**Bakı Dövlət Universiteti Sosial iş kafedrası**

**“Azərbaycan Sosial İş” İctimai Birliyi**

# “Postmüharibə dövründə sosial işin verə biləcəyi töhfələr”
# Beynəlxalq konfrans. 16-17 noyabr 2021-ci il

**Bakı- 2022**

**Moderator**: Üzeyir Şəfiyev

**Elmi redaktor**: Qızılgül Abbasova

**Redaktorluq və tərcümə işləri:**

Ələsgərov Səbuhi
Arixova Nəzrin
Həsənzadə Aytac
Qasımova Zeynəb
İsgəndərova Günel

## Bölmələr

Əhalinin Qarabağa geri dönüşündə sosial işin rolu.

Müharibədən əziyyət çəkmiş mülki əhali, hərbçilər və onların ailə üzvləri, məcburi köçkünlər, şəhidlərin ailə üzvləri, qazilər və onların ailə üzvləri ilə sosial iş.

Qarabağın sosial-iqtisadi reinteqrasiya prosesində sosial işin rolu.

Qarabağda həyata keçirilməkdə olan "Ağıllı şəhər" və "Ağıllı kənd" layihələrində sosial işçilərin rolu.

Postmüharibə dövründə sosial işçilərin təlimi.

Qarabağda dövlətin sosial xidmət siyasətinin həyata keçirilməsində sosial işçilərin rolu.

# MÜHARİBƏDƏN ZƏRƏR ÇƏKƏN ŞƏXSLƏRİN EMOSİONAL VƏ PSİXİ SAĞLAMLIĞI

**Ağayeva Günay Şərbət qızı**
Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası

İnsanın yaradılışı onun vətəni ilə başlayır.Zamanla ailə və təlim tədris, ətraf mühitin əsasında bizim torpağımıza,vətənimizə bağlılıq formalaşaraq qəlbimizin, ruhumuzun əsas sevgisinə çevrilir. Çünki bir insanın mənəvi dəyərlərinə ,milli kimliyinə olan hörməti ailəsinə,böyüklərinə olan dəyəri məhz onun ilk vətəni və torpağına olan sevgisindən başlayar. Vicdanı məsuliyyət kimi, müqəddəs olan vətən torpağını lazım gələrsə canın bahasına belə olursa olsun qorumaqdan çəkinməmək isə bu yolda bir ürək, şücaət, qəhrəmanlıq istəyər.Bu həyatda müharibə, ölüm, çətin hissləri yaşamaq,yaxınlarının yaşantılarını eşitmək, yaxınlarını itirmək, müharibə ilə bağlı xəbərlərin daima içində olmaq, yaralanma, xəstəlik, aclıq, itki,qorxu insanlarda fiziki və psixoloji problemlərin ortaya çıxmasına səbəb olur ki, zamanla bu insan sağlamlığına bərpa olunmaz və çətin bərpa olunan travmatik izlər qoyur.

Bəs bu 44 günlük müharibə bizə illərin sevincini yaşatsada ,xain düşmənin hiylə dolu planları qəhrəmanlarımıza, itki ilə üz-üzə qalan şəhid ailələrinə,xalqımıza sağlamlığın əsas sütununu təşkil edən ruh, psixi və emosional halına nə dərəcə mənfi və müsbət təsirləri oldu? Müharibə itki,göz yaşı və zorakılıq olaraq insanın bu gününə deyil, eyni zamanda gələcəyinə də ziyansız,təsirsiz ötüşməyən ən ağır bir travmalardan hesab olunur. Bu çətinliyin uzaqdan şahidi olmaq bir başqadır,lakin onu yaşayaraq şahidi olan insanların keçirdiyi o mənəvi, emosional halları, travmaları yalnız yaşayanlar,onların acılarını duyanlar bilər. Bu dönəm ərzində hər an pis bir xəbər almaq qorxusu əsasən güvən hissini

zədələyir və insanın təşviş,obsessiv kompulsiv pozuntu, depressiya, asılılıq, həyəcan pozuntusu yaşamağına səbəb olur. Əgər bu problemlərin dərinliklərinə varmış olsaq,o zaman bir müharibənin bizə ziyanlı tərəflərinin nə dərəcə yüksək olduğunu anlamış olarıq.

Həssas kateqoriyadan olan qruplar var ki, məsələn yaşlılar, uşaqlar ,qadınlar və psixi narahatlığı olan insanlar ,onların sağlamlığı üçün müharibənin riskli təsirləri daha yüksəkdir. Bu riskli təsirlər gələcəkdə sağlam nəslin formalaşmalasmasına mane olaraq,şiddət davranışlarının artması və insani dəyərlərin itirilməsinə gətirib çıxara bilər. Qarabağ zəfəri və bu ağır savaşda döyüş meydanında soyuq bilmədən əzmlə əli sılahlı qəhrəmanlarımızla bərabər narahatçılıq, stress,travmatik hallarla üz-üzə qalan,sözlərlə ifadə olunmayacaq dərəcədə gərginlik yaşayan analarımız, bacılar, doğmalar və övladlar oldu.Qadınlar müharibə, terror hadisələri və cəmiyyətdə narahatlıq yaradan buna bənzər bütün mənfi situasiyalardan kişilərlə müqayisədə daha çox təsirlənirlər. Müharibə bitdikdən sonra çətin psixoloji vəziyyət şəhid ailələrinin bu itkini qəbul etməsidir. Şəhid ailələrinin üzvlərində fəsadlaşmış hüzn reaksiyaları baş verir. Onlar hüznün şok və inkar, güclü emosiyalar, depressiya və itkinin qəbul edilməsi mərhələlərini yaşayırlar.

Şəhid ailələrinin üzvlərində itkinin qayıtmayacağının dərk olunması çıxılmazlıq, emosional boşluq, kəskin tənhalıq hissləri doğurur. Ana olaraq övlad itkisi,həyat yoldaşı olaraq bir ömür gün yoldaşı itkisi,qız olaraq bir ata itkisi bir xanım üçün olduqca çətin bir hissdir. Artıq qadının ailədə ,cəmiyyətdə, uşaqlarının həyatında məsuliyyət və öhdəlikləri iki qat artır.Bir göz qırpımında ailədə olan dəyişim,itki və uşaqlara bu durumların izahı olduqca çətin prosesdir.Qadınlara nisbətdə kişilər emosional reaksiyalarını daha yaxşı nəzarət altında saxlaya bilir.Bununla əlaqədar olaraq məhz kişilər müharibə zamanı mübarizəni daha güclü formada yaşanılan hər

emosional ,psixoloji gərginliyə baxmayaraq idarə edə bilirlər. Bunun əsas səbəbi kişilərin uşaqlıqda möhkəm struktur əsasında böyüməsi ilə bağlıdır. Cəmiyyət daxilində evini, həyat yoldaşını və ailəsini qoruyan, lazım olanda vətəni üçün canını verəcək bir gücə sahib olurlar. Müharibə zamanı kişilərin ən həssas cəhətlərindən biri onların öz emosiyalarını gizlətməsi ilə öz psixoloji ,ruh halını sağlam formada əlində saxlamasıdır.

Lakin bu o demək deyil ki ,müharibə kişilərə ziyansız ötüşür.Müharibədə iştirak edən kişilərdə müharibə sindromu adı verilən və posttravmatik stress pozuntusuna səbəb olan psixoloji narahatlıq müşahidə olunur. Müharibədən ən çox zərər görən digər bir qrup uşaqlardır. Müharibədən zərər görmüş uşaqlarda əsəb, kəkələmək,yuxu pozğunluğu, iştah pozğunluğu, inkişaf geriliyi, kabus görmə, günahkarlıq duyğusu, özünə qapılma, qaranlıqdan və ya xəyali varlıqlardan qorxma, səbəbsiz ağlama, ağrılar, səslərə qarşı həddindən artıq həssaslıq, məktəbə getməyi və dərs öyrənməyi rədd etmə, yoldaşları ilə əlaqələrdə pozulmalar müşahidə olunur. Yeniyetmələrdə isə asosial davranışlar artır və özünə güvən duyğusu azalır.

Gələcəyə aid plan qura bilmirlər. Uşaqlar xüsusilə bu dövrdən nə baş verdiyini anlamadıqları üçün daha çox təsirlənirlər. Bütövlükdə güvən hissi zədələndiyi üçün uşaqların mümkün qədər bu xəbərlərə az məruz qalması, qorxuducu və yaşlarına uyğun olmayan şəkil və videoların göstərilməməsi, gördükləri vaxt isə ən azından mütləq hisslərini ifadə etmələrinə icazə verilməsi gərəklidir. Bir çox ailələrdə valideynlər bu dönəmdə gərgin olurlar. Çalışmaq lazımdir ki, bu gərginlik uşaqlara hiss olundurmasın. Bu halda nə qədər çətin belə olsa,uşaqlar sual verdiyi halda uşaqlara cavab verilməli, səmimi formada yaşa uyğun izahlar verilməlidir. Bunun üçün uşağın müharibə ilə bağlı düşüncələrini ilk öncə dinləmək, xətalı olanları düzəltmək və

sonda təhlükədə olmadığını və onu qoruduğunuzu bildirmək faydalı olar.

Əgər uşaq bu haqda danışmaq istəmirsə məcbur etmək və ya informasiya ilə yükləmək yerinə, istədiyi vaxt danışa biləcəyinizi bildirməyiniz yetərlidir. Müharibə uşaqların psixologiyasında ciddi travma izləri qoyur. Valideynlərinin zamansız,heç bir səbəb olmadan ölməsi onlara daha çox acı verir. Bundan sonra onlar bir növ uşaqlıqlarını itirmiş olurlar. Bu səbəbdən də həmin uşaqlarda daim aqressiya, təşviş pozuntuları hiss olunur. Təəssüf ki, profilaktik tədbirlər görülməsinə baxmayaraq bəzi uşaqlar bu problem içlərində ömürlərinin sonuna qədər yaşayacaqlar. Bu, özünü ünsiyyət problemində biruzə verəcək. Travma səbəbindən bu cür uşaqlarda daha çox neqativ şeylərə meyllilik artacaq.

Psixoloqların tədqiqatlarına əsasən desək, qorunma instintki bu tip uşaqlarda çox olduğu üçün kriminal aləmə bağlılıq daha çox olur. Ona görədə hər bir mütəxəssis bilməlidir ki,digər uşaqlarla müqayisə etsək, bu uşaqlarla işləmək peşəkarlıq tələb edir. Valideynini itirmiş uşaqlarda yaş terapiyası və psixosematik terapiyalar tətbiq olunur. Bizim üçün daha həssas olan kateqoriyalardan biri,silahı ürəyi ilə tutmağı bacaran şəhidlərimizin övladlarıdır. Heç bir Azərbaycan vətəndaşı unutmamalıdır ki,bu gün torpaqlarımızın bütövlüyünü şəhidlərimizə borcluyuq. Zəfər tarixini igidlərimiz öz qanı, canı bahasına xalqına yaşatdı. Onların hər biri ilə yanaşı ailələri, doğmaları bizə torpaq qədər əziz və müqəddəs vətənimizin əmanətidir.

Ona görə də bu uşaqlarla dövlətin nəzarətindəki qurumlar çox ciddi məşğul olmalı, onlara sosial və psixoloji dəstək verilməlidir. Bu dəstək elə qurulmalıdır ki, onların zədə almış psixoloji durumlarını normal bir hala döndərsin, şəhidliyi itki kimi deyil, uca bir məqam kimi, qürur kimi qəbul edə bilsinlər. Biz məsələni nə qədər doğru şəkildə təlqin etsək, onlar o qədər çox qürur duyacaq, doğmalarının başqa insanlardan daha üst

mərtəbədə olduğunu anlayacaqlar. Yardımın əsas istiqamətlərindən birini də psixoloji dəstək təşkil edir. Hərbçilərə, əsgərlərə, onların ailələrinə və müharibədən xəsarət almış vətəndaşlara psixoloji problemlərin xüsusiyyətlərindən asılı olaraq psixoloji yardım müxtəlif müddətlərdə göstərilir. Müddətindən asılı olaraq şəxslərə təcili, qısamüddətli və uzunmüddətli psixoloji yardım növləri göstərilir. Təcili psixoloji yardım – böhran vəziyyəti, neqativ psixoloji gərginliyin aradan qaldırılmasına istiqamətlənmiş ilkin psixoloji yardımın təxirəsalınmadan göstərilməsidir.

Qısamüddətli psixoloji yardım psixoloji yardım alan şəxsin fərdi xüsusiyyətləri nəzərə alınmaqla 3 ay müddətində ardıcıl şəkildə həyata keçirilir. Uzunmüddətli psixoloji yardım 12 məşğələdən çox müddət tələb edən psixoloji yardımın, o cümlədən psixoterapiya və ya psixoloji reabilitasiyanın həyata keçirilməsidir. Hər bir sosioloq və psixoloqun bu gün əsas vəzifəsidir ki, heç bir təmənna güdmədən belə istər TV-lərdə, istərsə də hər hansı toplantı zallarında bu mövzularda seminarlar,təlimlər,qrup terapiyaları verməli, insanlarda dözümlülüyü aşılamalı,onlara travmatik problemlərin öhdəsindən gəlmək yollarını öyrətməli,müharibə iştirakçılarının işə düzəlməsi ilə bağlı təlimlər verilməsində yaxından iştirak etsin. Əgər psixoloji yardımla psixoprofilaktika işini düzgün təşkil etsək, konkret psixoloji yardıma ehtiyacı olan vətəndaşların sayı bir o qədər azalar. Ona görə də bu gün görə biləcəyimiz vacib məqamlardan biri psixoloji maariflənmə və psixoprofilaktikaya daha geniş yer ayrılmasına şərait yaratmaqdır.

Mübarizəmizin qəhrəmanlarının yeni mühitə alışması, yaşananların unudulması, yenidən irəliləmək yolunda mütləq qabaqlayıcı tədbirlər görülməlidir. Unutmaq olmaz ki, sağlam bir nəsil yetişdirə bilmək üçün həm müharibə ilə qarşılaşan fərdlərimizə, həm də bilavasitə müharibədən təsirlənən hər kəsə, nizamlı bir şəkildə, psixo- sosial dəstəklər zamanında

verilməsi mütləqdir. Çünki yaşananları, sarsıntı yaradacaq hadisələri qısa zaman ərzində atlatmaq, qavramaq asan bir şey deyil.

## POSTMÜHARİBƏ DÖVRÜNDƏ İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏMƏŞĞULLUQ SİYASƏTİ

**Kazımova Bənövşə Mübariz qızı**
**BDU-nun HFMS Sosial iş ixtisasının II kurs magistrantı banovsha.17@gmail.com**

Bütün dünyaya artıq məlumdur ki, 30 ildən artıq düşmən tapdağı altında olan Azərbaycanın əbədi torpağı Qarabağ uğrunda Ermənistanla olan mübarizədə biz qəhrəman oğullarımız, şəhid və qazilərimiz, bir sözlə, rəşadətli ordumuz sayəsində qələbə qazandıq.

Ölkəmizdə bugünkü gün yeni müəssisələr, iş yerləri açılır. İşsizlərin, xüsusilə də, gənclərin işlə təmin olunmasında mühüm addımlar atılır. Postmüharibə dövründə artıq bu tədbirlər nəinki rayon və şəhərlərdə, eyni zamanda Qarabağımızda da həyata keçirilir. Ümumiyyətlə, Qarabağda iş yerlərinin yaradılması, işlə təmin olunma məsələsi prioritet məsələlərdən biridir. Təəssüflər olsun ki, Ermənistan, torpaqlarımız işğalda olduğu müddətdə ərazilərimizə külli miqdarda zərər vurmuş, vəhşilik törətmiş, yaşayış məskənlərimizi dağıtmış, təbii sərvətlərimizi talamışdır. Buna görə də, müharibədən sonrakı dövrdə bu ərazilərdə yenidənqurma, bərpa işləri biraz vaxt və vəsait tələb edir. Həyata keçirilən iqtisadi islahatlar hər zaman ölkə rəhbərliyinin diqqət mərkəzində olmuşdur. Bizim Qarabağımız da həm strateji, həm də coğrafi cəhətdən həm xarici dövlətlərin iş adamlarının, həm də yerli sahibkarlarımızın fəaliyyəti üçün çox mühüm rol oynaya bilər.

Bildiyimiz kimi, işğaldan azad edilmiş ərazilərimizin böyük iqtisadi potensialı və təbii ehtiyatları var: bu ərazilər həm yerli və xarici investisiyaların cəlbi, həm də əhalinin məşğulluğunun təmin edilməsi baxımından dövlət siyasətinin bir parçası hesab olunur. 2016-cı il aprel döyüşlərindən sonra Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi qısa müddətdə yenidən qurulmuşdur. Vurğulamalıyıq ki, işğaldan azad edilən torpaqların az müddətdə inkişafının uğurlu təcrübələri vardır. Bu gün Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyinin ən önəmli fəaliyyəti işğaldan azad edilmiş torpaqlarda ora yenidən qayıdıb məskunlaşan əhali, gənclər üçün səmərəli məşğulluq proqramlarının həyata keçirilməsidir.Azad edilən rayonlar işğaldan əvvəl pambıqçılıq, taxılçılıq, heyvandarlıq, bir sözlə kənd təsərrüfatı və istehsal sahələri üzrə münbit rol oynamışdır. Şuşa, Füzuli, Kəlbəcər və Zəngilan əraziləri böyük turizm potensialına malikdir.

Dünyanın ən qədim insan məskənlərindən olan Azıx mağarası Füzuli rayonu ərazisində yerləşir. Sadaladığım rayonlarda daxili və xarici turizm imkanları hədsizdir. İsti su mənbələri ilə zəngin Kəlbəcərdə sağlamlıq turizminin inkişaf etdirilməsi, mədəniyyət turizm marşrutlarının bərpa olunması prioritet istiqamətdir. Bu kimi məqamlar onu göstərir ki, əhalinin bu torpaqlarda müxtəlif işlə təmin olunması üçün, məşğulluq siyasətinin müxtəlif sahələrdə səmərəli şəkildə həyata keçirilməsi üçün imkanlar kifayət qədər çoxdur. Hətta bunu əlavə etməliyəm ki, azad edilmiş torpaqlarda əsas fəaliyyət sahələri kimi kənd təsərrüfatı, kənd təsərrüfatı məhsullarının emalı və turizm sahələri müəyyənləşdirilib. Kənd təsərrüfatı sahəsində proqramlara 460 milyon manatdan çox vəsaitin ayrılması təmin olunacaq.

Bu bir il ərzində yenidənqurma, bərpa müddətində kifayət qədər inşaat işləri aparıldı və aparılmaqdadır. Ərazilərimizin kommunal xidmətlərlə təmin olunması istiqamətində aparılan addımlar da yeni iş yerlərinin açılmasına təkan verdi. Yaxın

gələcəkdə işğaldan azad olunmuş ərazilərdə sosial xidmət müəssisələrinin, reabilitasiya mərkəzlərinin, DOST mərkəzlərinin açılacağı da gözlənilir. Hazırda Qarabağ ərazisində 11 müxtəlif istiqamətdə avtomobil yolları çəkilir ki, bunların da ümumi uzunluğu 700 kilometrdən çoxdur. Bölgədə tikilən hava limanları, çəkilən dəmir yolları vasitəsilə daşımalar da həm əhalinin Qarabağa qayıdışına, həm də orada icra olunan iqtisadi layihələrin səmərəliliyinin artmasına, yeni məşğulluq proqramlarının icrasına xidmət edəcək. Yeri gəlmişkən, ölkəmizin reallaşdırdığı bütün nəqliyyat layihələri, 2023-cü ilədək Füzuli, Zəngilan və Laçında bir-birinin ardınca açılması nəzərdə tutulan hava limanları, çəkilən avtomobil və dəmir yolları qlobal inteqrasiya proseslərinin də xeyli sürətlənməsinə imkan verəcək. Füzuli Beynəlxalq Hava Limanının inşaatında 500-dən artıq işçi çalışır. Liman istifadəyə verildikdən sonra həmin ərazilərin sakinləri də orada fəaliyyət göstərəcəklər.

Son olaraq bildirməliyik ki, tikinti şirkətlərinin bu ərazilərdə fəaliyyətinə ehtiyac çoxdur. Məşğulluq siyasətinin əsas, vacib istiqamətlərindən biri də ixtisaslaşmış İT mütəxəssislərinin cəlb olunması, onlara şərait yaradılmasıdır. Profilaktik mühafizə şəbəkələri, terror aktlarına qarşı sistemlərin qurulması və s. bu region üçün ən vacib məsələlərdən biridir. Bu bölgədə digər əsas işçi tələb olunan iş yerləri də məhz Ekologiya və Fövqəladə Hallar Nazirliyinin struktur bölmələridir. Beləliklə də, indiki məqamda tikinti, İT, ekoloq və fövqəladə hallar sahələrində iş yerləri bu bölgələrdə prioritet təşkil edir.

## ƏDƏBİYYAT SİYAHISI


1. “Qarabağ Azərbaycandır” jurnalı- UNEC, 2021 mart
2. https://www.sosial.gov.az/post_427521
3. http://pia.az/qarabagda-yeni-is-yerleri-maas-ne-qederdir--425750-xeber.html

4. https://baku.ws/karabakh/104115

## Postmüharibə dövründə müharibə nəticəsində valideyn himayəsindən məhrum olmuş uşaqlarla sosial iş

**Əzizova Həmidə Müşfiq qızı**
**BDU-nun "Həyat fəaliyyətinin müxtəlif sahələrində sosial iş" ixtisasının II kurs magistrantı**
**ezizova.h@mail.ru**

2020-ci il tarixə Azərbaycan Respublikasının prezidenti , Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun Vətən müharibəsində möhtəşəm zəfəri sayəsində 30 ilə yaxın uzun bir müddət Ermənistanın işğalı altında qalmış doğma torpaqlarımızın azad edildiyi qələbə ili kimi həkk olundu.Şanlı ordumuz 44 günlük uğurlu hərbi əməliyyatlarla xalqımızın 30 illik həsrətinə son qoydu.

Tarixdə bütün müharibələr kimi Vətən müharibəsi də itkilərsiz ötüşmədi. Xalqımız bu şanlı zəfəri qazanmaq üçün çox sayda şəhid verdi və indi onların övladları, ailələri dövlətimizin himayəsindədir. Azərbaycan cəmiyyətimizdə, postpandemiya dövründə genişmiqyaslı və effektiv sosial paket tətbiq etməyə başladı. Bu sosial dəstək paketi, Vətən müharibəsi iştirakçılarını, müharibə şəhidlərinin ailə üzvlərini, yaralanmış hərbçiləri, müharibə əlillərini, erməni terrorundan zərər çəkənləri, eyni zamanda qeyd olunan şəxslərin yaxınlarını əhatə edir. Sosial yardımın istiqamətlərinə gəldikdə isə, şəhidlərin və qazilərin ailə üzvlərinə, həmçinin müharibədə iştirak etmiş şəxslərə sosial-psixoloji dəstəyi, yaralanmış hərbçilərə və zərər çəkən digər şəxslərə reabilitasiya xidmətlərini, maddi yardım, məşğulluq məsələlərinin operativ həllində dəstəyin göstərilməsini, sosial təminat hüquqlarının

çevik reallaşdırılması və sosial ödənişlərin təyinatını, məişət şəraitlərinin yaxşılaşdırılması və s. kimi yardım işlərini qeyd etmək olar. Və təbii ki, bu sosial dəstək paketində müharibə nəticəsində valideyn himayəsindən məhrum olmuş uşaqlarla sosial və psixoloji dəstək xarakterli işi də xüsusi olaraq qeyd etmək lazımdır. Ümumilikdə, bu yardım paketi bütünlükdə 20 mindən artıq insanı əhatə edir.

Postmüharibə dövründə valideyn himayəsindən məhrum olmuş uşaqlarla sosial iş üçün ilk olaraq Azərbaycan Respublikasında "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Qanunu əsas götürülür və qanunda da qeyd edildiyi kimi: "Müvafiq icra hakimiyyəti orqanları valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların və onların arasından olan şəxslərin sosial müdafiəsi üzrə məqsədli proqramları hazırlayır və həyata keçirir, onlar üçün mərkəzləşmiş xüsusi yaşayış yerləri, habelə təhsil, sosial xidmət və digər müəssisələrin bazasında sosial uyğunlaşma və reabilitasiya üzrə dövlət müəssisələri yaradırlar".

Postmüharibə dövründə, şəhidlərin və qazilərin övladları və ailə üzvləri ilə sosial işlə bağlı bir sıra layihələr həyata keçirilib. Bunlardan biri "Fövqəladə hallarda uşaq müdafiəsi" layihəsidir. Bu layihə "ASAN Könüllüləri" Təşkilatı və BMT-nin Uşaq Fondunun Azərbaycan Nümayəndəliyinin birgə təşkilatçılığı ilə həyata keçirilib. Layihənin əsas məqsədi 44 gün davam edən Vətən müharibəsinin gedişatında cəbhə zonasında yaşayan, erməni terroru nəticəsində yaşadığı ərazi, ailəsi və yaxınları zərər görmüş, psixi sağlamlıqlarına risk yaranmış uşaqlara psixo-sosial dəstəyin gücləndirilməsidir. Bu çərçivədə Gəncə şəhəri, Ağdam, Goranboy və Tərtər rayonlarının ən çox zərərçəkmiş ərazilərində yaşayan ailələrin, o cümlədən şəhid hərbçilərin və həlak olan mülki şəxslərin ailələrinin övladlarında travmatik və ya stressli hadisə yaşamasından sonra müşahidə olunan simptomların

kəskinliyinin qiymətləndirilməsi və psixo-sosial reabilitasiya işinə 2020-ci ilin noyabr ayından başlanılıb. Bu ərazilərdə yaşayan 700-dən çox ailə ilə psixo-sosial dəstək üzrə iş görülüb, 400-ə yaxın qadına və 1500-dən çox uşağa ilkin psixoloji yardım göstərilib.

Digər bir layihə isə "Müharibədən sonrakı dövrdə uşaqlara və ailələrə psixo-sosial dəstək" layihəsidir. Layihə çərçivəsində Goranboy və Ağdam rayonlarında müharibədən zərər görən 600-dən çox ailəyə səfər edilmiş və onların tibbi-sosial-hüquqi problemləri araşdırılıb. Ümumilikdə 1441 nəfərin ilkin psixo-emosional vəziyyəti qiymətləndirilmiş, risk qrupunda olan uşaq və analarla fərdi və qrup terapiyası işi həyata keçirilməkdədir. Mərkəz əməkdaşları Tərtər rayonundan olan ailələrə də səfər edib. Bundan başqa gələcəkdə baş tutacağı ehtimal olunan layihələrdən Türkiyə Silahlı Qüvvələrinin nəzdində fəaliyyət göstərən "Elele" (Əl-ələ), "Eğitim" (Təhsil), "Dayanışma" (Həmrəylik) və "Məhmətçik" (Əsgər) Fondlarında konkret məsələlər ətrafında səmərəli müzakirələrin aparıldığını diqqəti çəkən dövlət agentliyinin rəhbəri Azərbaycanın "YAŞAT" Fondu ilə görüş zamanı bildirib ki, şəhid övladlarının Türkiyədə təhsil alması və qazilərin müalicəsi ilə bağlı danışıqlar gedir. Layihələrdən əlavə hökumət və qeyri-hökumət təşkilatları tez-tez şəhid və qazi ailələri, xüsusilə də uşaqlarla görüşlər keçirir. Onların problemləri ilə maraqlanır,yeni dəstək proqramları həyata keçirirlər. Məsələn, 31 may 2021ci ildə "Vətən Müharibəsi Əlillərinə Kömək" İctimai Birliyi Vətən Müharibəsində müqəddəs şəhidlik zirvəsinə yüksəlmiş şəhidlərimizin və müharibə əlillərimizin övladları ilə görüşmüşdür.

## ƏDƏBİYYAT

1. "UNICEF Azerbaijan and ASAN Volunteers Organization join forces to support children in affected

districts” article by Ayna Mollazade Communication and Partnership Specialist 15.03.2021
2. “ “YAŞAT” Fondu ilə Türkiyə vəqflərı arasında şəhid övladlarının Türkiyədə təhsil alması və qazilərin müalicəsi ilə bağlı danışıqlar aparılıb” Sabir ŞahtaxtıAZƏRTAC-ın xüsusi müxbiri
3. https://www.sosial.gov.az/post_441406

# MÜHARİBƏ VƏ MÜNAQİŞƏ QURBANLARI İLƏ SOSİAL İŞ

**Məsimov Nicat**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Kulturologiya fakültəsi, Gənclərlə iş ixtisası üzrə magistrantı**
**Nicat.mesimov.1997@mail.ru**

Müharibələri dağıntısız, itkisiz, ziyansız təsəvvür etmək mümkün deyil. Dünyanın bir çox ölkələrində illərlə baş vermiş müharibələrin fəsadları bugünə qədər görünür. Misal olaraq Yaponiyanın Xirosimo, Naqasaki şəhərlərini, Viyetnam müharibəsini buna misal göstərə bilərik. Heç çox uzağa getməyək 90-cı illərə nəzər salsaq 1-ci Qarabağ müharibəsində necə ağır bir faciənin, dəhşətli bir qətliamın, soyqırımın törədildiyinə şahid olarıq. 1 milyondan çox insan öz evlərindən qaçqın və didərgin düşdü, təsərrüfatını, malını, mülkünü və sağlamlığını itirdi. Bu dövrdə Azərbaycanda sosial işin bu istiqaməti bir o qədərdə inkişaf etməmişdi, baxmayaraq ki, dövlət öz dəstəyini, himayəsini müharibədən zərər çəkmiş insanlardan əsirgəməmişdir.

2020-ci il sentyabr ayının 27-sində başlayan və 44 gün davam edən 2-ci Qarabağ müharibəsi Azərbaycan xalqının qələbəsi ilə nəticələndi. Baxmayaraq ki, heç bir qələbə ziyansız, zərərsiz, itkisiz əldə olunmur. Bu dövrdə Gəncənin, Bərdənin, Tərtərin raket, artilleriya atəşinə tutulması, mülki

obyektlərə, infrastrukturlara ciddi ziyan vurdu, o cümlədən bəzi mülki vətəndaşlar həyatını, bəziləri isə sağlamlığını itirdi. Əlbəttə müharibədən söz açmışkən bizlərə bu sevinci yaşadan igidlərdən söz açmasaq olmaz. Hansı ki, bəziləri əmək qabiliyyətini, peşə qabiliyyətini itirdilər, əlilliyi yarandı və bəziləri Şəhidlik zirvəsinə ucaldılar. Bizim mövzumuzu da, məhz müharibə və münaqişə qurbanları təşkil edir. Hansı ki, onların sosial, psixoloji, maddi və məişət şəraitinin yaxşılaşdırılması yönümündə görülmüş tədbirlərdir. Bu sferada dövlətin gördüyü bir sıra tədbirlər vardır: Postmüharibə dövründə şəhid ailəsi üzvləri, qazilər və erməni terrorundan əziyyət çəkənlər, müxtəlif peşə kurslarına, aktiv məsğulluq tədbirləri çərçivəsində fərdi məsğulluq planının tərtib olunmasına, özünüməşğulluğa cəlb olunmuşlar.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi Vətən müharibəsindən sonrakı dövrdə həmin kateqoriyalara aid 5320 şəxsi özünüməşğulluq proqramına cəlb edib. Onlara proqram çərçivəsində mal və materiallar formasında aktivlər verilməklə kiçik ailə təsərrüfatları yaradılıb. 2000-dən çox şəxs isə aktiv məşğulluq proqramları çərçivəsində münasib işlərlə təmin edilib. Şəhid ailəsi üzvləri və müharibədə yaralanmış qazilərin məşğulluğuna dəstək məqsədilə bu ilin 10 iyunundan başlanan “Məşğulluq marafonu”na artıq 534 işəgötürən qoşularaq, 2833 vakansiya təqdim edib. Həmin vakansiyalar üzrə bu günədək 832 şəhid ailəsi üzvü və qazi işlə təmin olunub [2].

Müharibə iştirakçıları ən qısa zamanda özünüməşğulluq, haqqı ödənilən ictimai işlər, sosial iş yerlərində əməkhaqqının birgə maliyyələşdirilməsi proqramlarına növbədənkənar cəlb edilir, kiçik ailə təsərrüfat və müəsissələrini qurmaları üçün aktivlərlə təmin olunurlar. Dövlət başçısının tapşırığına əsasən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Vətən müharibəsi şəhidlərinin ailə üzvləri və qazilər, erməni

terrorundan zərər çəkənlərlə bağlı genişmiqyaslı sosial dəstək tədbirləri həyata keçirilməkdə davam edir. Bu tədbirlər çərçivəsində 44 günlük Vətən müharibəsi şəhidlərinin ailə üzvlərindən ibarət 7900 nəfərə 15700 sosial ödəniş təyinatı aparılıb. Vətən müharibəsi qazilərindən artıq 2000 qaziyə ölkəmizin ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar əlillik və müvafiq sosial ödənişlər təyin edilib[1]. Postmüharibə dövründə Vətən müharibəsi şəhidlərinin ailə üzvləri, qazilər və ailə üzvləri və erməni terrorundan zərər çəkənlərdən ibarət 3 minədək ailənin 10 minədək ailə üzvünə sosial-psixoloji dəstək, Nazirliyin reabilitasiya müəssisələrində 1500 qaziyə reabilitasiya xidmətləri göstərilib[1].

Araşdırmalar göstərir ki, yuxarıda adı çəkilən kateqoriyadan olan şəxslərlə aparılan sosial iş çox böyük əhəmiyyətə malikdir. Nəinki həmin kateqoriyalar hətta cəmiyyətimizdə sosial yadırğamadan, dezadaptasiyadan və sosial çətinliklərlə üzləşən şəxslərin problemlərinin həlli istiqamətində atılmamış addımlar, cəmiyyətin rifah halını kəskin şəkildə aşağı salır.

## ƏDƏBİYYAT


1. https://sosial.gov.az/post_482929
2. https://www.sosial.gov.az/post_487735
3. https://sosial.gov.az/shehid_muharibe_istirak_destek

# MÜHARİBƏ VETERANLARI İLƏ SOSİAL İŞİN TƏŞKİLİ

**İsgəndərova Aysel İbrahim**

**Bakı Dövlət Universiteti, Sosial iş kafedrasının müəllimi, Bakı, Azərbaycan**

XXI əsrin astanasında müxtəlif mübahisəli məsələlərin həllində hərbi gücdən istifadə edilməsi müharibə kabusunun tarixdə qalacağına ümid etməyə əsas vermir. Nə qədər ki, dünyada silahlı zorakılıq təhlükəsi var, deməli, bu təhlükənin özünün də aradan qaldırılması üçün hərbi gücdən istifadə edilməsi zərurəti olacaqdır.

Mütəxəssislər hərbi əməliyyatlarda iştirakın əsgərin psixikasına təsiri haqqında ilk dəfə olaraq ABŞ-ın Vyetnamdakı hərbi əməliyyatlarından sonra danışmağa başladılar və tibbdə bu, "Vyetnam sindromu" adlı xəstəlik kimi tanındı. Son illərdə posttravmatik stress pozğunluğu problemi getdikcə aktuallaşır. Bunun səbəbi, bütün dünyada, o cümlədən Azərbaycanda aktiv düşmənçiliklə müşayiət olunan bir çox gərginlik ocaqlarının olmasıdır. Bu münaqişələrin həllinə cəlb olunan və döyüşlərdə iştirak edən hərbçilərin sayı getdikcə artır.

Doğrudur, bizim doğma vətənimiz, torpaqlarımız uğrunda apardığımız müharibə yad ölkənin torpaqlarının işğalı naminə aparılan müharibə ilə müqayisə edilə bilməz. Lakin nəticə etibarilə müharibənin törətdiyi fəsadlar, dəhşətlər və itkilərin təsiri eynidir.

I və II Qarabağ müharibəsində və zaman-zaman atəşkəsin pozulması nəticəsində xeyli itkilər vermişik. Rəsmi məlumatlara görə, I Qarabağ müharibəsində 11557, II Qarabağ müharibəsində 2908 hərbçimiz şəhid olub. Bundan əlavə, müxtəlif dərəcəli xəsarət alanların sayı da kifayət qədərdir.

Müharibədən qayıdan hərbçilərin yaşadığı problemli hadisələrlə üzləşən ölkələrin təcrübəsi göstərir ki, qanlı döyüşlərdə iştirak etmək döyüşçülərin psixi vəziyyətinə və sağlamlıqlarına travmatik təsir göstərir. Döyüş əməliyyatlarında iştirak etmiş hərbçilər arasında yaranan problemin kökündə psixogen pozuntular dayanır. Müharibə təkcə hərbçilərin psixo-fiziki sağlamlığına deyil, həm də psixoloji tarazlığına, dünyagörüşünə və dəyər istiqamətlərinin sabitliyinə də mənfi təsir göstərir.

Keçmiş əsgərlərin əsas problemləri şübhə, təcavüzkarlıq, qorxu və nümayişkaranə davranışdır. Onların davranış xüsusiyyətlərinə ailədə, qohumlarla, iş yoldaşları ilə münaqişə, qəzəb, spirtli içkilərə və narkomaniyaya aludəçilik daxildir.

Müharibə veteranlarında mövcud olan digər psixi vəziyyətlər bunlardır:

- özünə qarşı bədbinlik, başqalarının müraciətinin onlar tərəfindən yanlış anlaşılması;
- insanlara inamın olmaması, müharibədən danışa bilməməsi;
- həyatın mənasının olmaması;
- öz qabiliyyətlərinə inamın olmaması;
- müharibədə baş verənlərin qeyri-real olması hissi;
- hadisələrin gedişatına təsir edə bilməməsi;
- digər insanlarla ünsiyyətdə çətinlik, bəzən ümumiyyətlə təcrid;
- narahatlıq;
- güvənsizlik, özündə silah daşıma ehtiyacı;
- ətrafdakı insanlara qarşı mənfi münasibət;
- kiminsə qisasını almaq istəyi, müharibəyə göndərildiyi və orada baş verən hər şey üçün qəzəb hissi;
- ekstremal axtarış, təhlükəli "macəralarda" iştirak etmək ehtiyacı;
- "dostların öldü, sən niyə yox " sualına cavab tapmaq cəhdi.

Alimlərin posttravmatik stress pozuntusu adlandırdıqları bütün bu təzahürlər hərbi əməliyyat iştirakçılarının posttravmatik stress pozuntusuna malik olduğunu göstərir. İnkişaf etmiş ölkələrdə belə xəstələr üçün xüsusi mərkəzlər fəaliyyət göstərir. Bu mərkəzlərdə müxtəlif terapiya üsullarından kompleks şəkildə istifadə edilir. Ölkəmizdə də bu tip mərkəzlərin açılması günümüzün vacib tələblərindəndir.

Dinc şəraitə keçid zamanı keçmiş hərbi qulluqçular ilk növbədə hərbi şəraitin nəticələrini aradan qaldırır və itirilmiş sosial əlaqələri bərpa edirlər. Buna görə də, ilk öncə müharibə veteranlarının ehtiyac duyduqları sosial reabilitasiya haqqında danışmalıyıq. Əhalinin bu kateqoriyadan olan qrupları ilə sosial işin əsas istiqamətləri tibbi-psixoloji reabilitasiya və sosial dəstək olmalıdır.

Sosial işin hədəf qrupu olan hərbi əməliyyat iştirakçıları hərtərəfli araşdırma tələb edən problemli sahəni təmsil edirlər. Bu gün sosial işlə məşğul olan insanlar nəzərə almalıdırlar ki, müharibə iştirakçıları xüsusi həyat təcrübəsi olan insanlardır. Bu kateqoriyalı insanlarla iş xüsusi yanaşma tələb edir. Başqa sözlə, müasir cəmiyyətin mükəmməl olmasını istəyiriksə, sosial işə, müdafiəyə və yardıma ehtiyacı olan hərbçilərə qarşı dözümlü davranmalıyıq. Hərbçilərin mülki həyata uyğunlaşmasına kömək etmək lazımdır. Bu problemi həll etmək üçün bütün qüvvələrdən istifadə etmək, müxtəlif ictimai və kommersiya təşkilatlarını bu işə cəlb etmək lazımdır.

# MÜHARİBƏDƏN ƏZİYYƏT ÇƏKMİŞ MÜLKİ ƏHALİ, HƏRBÇİLƏR VƏ ONLARIN AİLƏ ÜZVLƏRİ, MƏCBURİ KÖÇKÜNLƏR, ŞƏHİDLƏR, QAZİLƏR VƏ ONLARIN AİLƏ ÜZVLƏRI İLƏ SOSIAL IŞ

**Eyvazlı Aygün** Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Sosial-mədəni fəaliyyət" kafedrasının dosenti, kulturologiya üzrə fəlsəfə doktoru
Eyvazlı_a@gmail.com

**Açar sözlər:** sosial iş, müharibə, sosial adaptasiya, qazi, şəhid, hərbiçilər, ailələr

**Keywords**: social work, war, social adaptation, war participants, martyred, the military, families

Müharibə müxtəlif tərəflər arasında hərbi əməliyyatlar vasitəsilə gedən münaqişənin bir növüdür. Hal-hazırda yeni müharibədən çıxmış bir xalq olaraq, bu halı yaxşı anlaya bilərik. Heç kimə sirr deyildir ki, müharibənin ağır fəsadları da mövcuddur. Buna biz müharibə iştirakçılarını, hərbçiləri və onların ailələrini, həmçinin, müharibə nəticəsində zərər görmüş mülki əhalini misal göstərə bilərik.

II Qarabağ Müharibəsi zamanı öz bir qarış torpağını belə, düşmən tapdağı altında qoymayan igidlərimiz bu uğurda qan tökərək şəhid oldular, ağır şəkildə yaralandılar. Bunun nəticəsi olaraq şəhid olmuş igidlərimizin ailə üzvləri də, öz doğmasından ayrılmaq məcburiyyətində qaldı.

Şəhid olmuş şəxslərin ailə üzvləri hər zaman dövlətimizin diqqət mərkəzindədir, daim onlara diqqət və qayğı göstərilir. Şəhid olmuş şəxslərin ailə üzvləri dedikdə, 1994-cü il tarixli qərarına əsasən, şəhidimizin valideynləri, rəsmi nikahlı həyat yoldaşı, yetkinlik yaşına çatmayan övladları, 18 yaşına çatanadək sağlamlıq imkanlarının məhdudluğu müəyyən olunmuş 18 yaşından yuxarı əlilliyi olan övladları, uşaq evində tərbiyə olunan bacı və qardaşları və nənə və babaları əgər

onları himayə edən şəxs yoxdursa, nəzərdə tutulurlar. Dövlət tərəfindən daim şəhid ailə üzvlərinə xidmət göstərilir.

Hərbçilərimiz və onların ailə üzvləri də, müharibə nəticəsində psixoloji olaraq, çox əziyyət çəkir, çox narahatlıq keçirirlər. Öz doğmasından, onun sağlamlığından bixəbər qalır, bir zəngə gözlərini dikirlər. Müharibədən sonra hərbçi və qazilərimizin özləri də, müəyyən qədər psixoloji sarsıntı keçirirlər. Normal həyata adaptasiya olmaq artıq o qədər də asan olmur. Bu istiqamətdə onların ciddi şəkildə yardım alması vacib olur.

Mülki şəxslər də, müharibə nəticəsində ziyan görürlər, çoxsaylı çətinliklərlə qarşılaşırlar. Buna əyani sübut olaraq biz II Qarabağ Müharibəsində atılan raketlərdən, bombalardan zərər görən mülki əhalini göstərə bilərik. Öz evindən, doğmasından ayrılan insanlar, gözləri qarşısında ailə üzvlərini itirən cavanlar düşmənin xislətinin ən bariz nümunəsidir. Öz doğmasını, əziyyətlə ərsəyə gətirdiyi evini itirən, müharibənin ən çətin üzü ilə qarşılaşan mülki əhalinin də psixoloji dəstəyə, yardıma ehtiyacı vardır.

Məlumdur ki, sosial işçilər çətin həyat şəraitində yaşayan şəxslərin rifah halını yaxşılaşdırmaq, onları daha yaxşı bir şərait üçün hazırlamağa çalışırlar. Müharibə nəticəsində dəymiş ziyan nəticəsində zərər görən mülki şəxslər, hərbçilər və onların ailə üzvləri, şəhid olmuş şəxslərin ailə üzvləri üçün də sosial xidmətin göstərilməsi mühüm əhəmiyyət kəsb edir. Bu şəxslərə tək olmadıqlarını, həyatlarını yenə də yaşaya biləcəklərini anlatmaq, sosial həyatdan qopmamağa çağırmaq olduqca mühümdür. Bu nöqtədə sosial işçilərin rolu böyükdür. Onlar bu şəxslərin çətinliyini düzgün şəkildə dərk etməli, qarşı-qarşıya olduğu vəziyyəti düzgün şəkildə təhlil etməli və hər bir şəxsə fərdi yanaşaraq problemi həll etməyə çalışmalıdırlar. Çünki məhz sosial işçilər həmin şəxsləri düzgün yönləndirərək həyatdan qopmamağa sövq edə bilərlər.

Bu gün müharibənin fəsadlarının aradan qaldırılması, insanların həyata yenidən adaptasiya ola bilməsi çox mühüm bir məsələdir və burada həm sosial işçilər, həm də digər fəaliyyət sahələrinin mütəxəssisləri mühüm rol oynayırlar.

## POSTMÜHARİBƏ DÖVRÜNDƏ SOSİAL İŞIN VERƏ BİLƏCƏYİ TÖHFƏLƏR

**Şəfiyev Üzeyir, Bakı Dövlət Universitetinin Sosial iş kafedrasının müdiri, sosiologiya üzrə fəlsəfə doktoru, dosent**

2020-ci il sentyabrın 27-dən noyabrın 10-na qədər davam edən İkinci Qarabağ müharibəsi “Biz birlikdə güclüyük!” şüarı ilə xalqımızın öz lideri ətrafında sıx birliyi sayəsində Azərbaycanın qələbəsi ilə bitdi. Bu gün işğaldan azad edilmiş ərazilərin bərpası və yenidən həyata qaytarılması Azərbaycan dövlətinin qarşısında duran əsas vəzifələrdən biridir.

Azərbaycan Respublikasının Prezidenti məskunlaşma və Qarabağa böyük qayıdışla bağlı məsələlərdə ictimai rəyə böyük önəm verir, bu istiqamətdə ictimai iştirakçılığı məqsədəuyğun sayır.Elə bu məqsədlə dövlət başçısının sərəncamına uyğun olaraq müvafiq qurumlar məcburi köçkünlər arasında sosioloji sorğular keçirməkdədir.

Tədqiqat Qrupu məcburi köçkünləri bu sorğuda fəal iştirak etməyə, suallara səmimi cavab verməyə çağıraraq xüsusi vurğuladı ki, bu sorğu da, buna bənzər digər araşdırmalar da Qarabağa qayıdacaq həmvətənlərimizin rəy və təkliflərini nəzərə almaq üçündür.

Hazırda işğaldan azad edilən şəhərlərin baş planları hazırlanır. Qarabağda məsələn, Şuşa, Ağdam və ya digər şəhərlərin timsalında "Ağıllı şəhər” (Smart City) layihəsi həyata keçirilməsi istiqamətində də işlər getməkdədir.“Böyük Qayıdış Proqramı”nın ikinci hissəsi işğaldan azad edilmiş

ərazilərimizdə yerləşən hər bir şəhər və rayonun spesifik xüsusiyyətləri və potensialını nəzərə almaqla hazırlanan alt proqramlar toplusu üzərində iş gedir. Burada bütövlükdə işğaldan azad olunmuş ərazilərin iqtisadi, coğrafi və tarixi baxımdan inkişaf xüsusiyyətləri, təbii şəraiti və potensialı, təbii sərvətlərinin miqyası və çeşidi, onların Ermənistan tərəfindən talan edilmə səviyyəsi, əhalinin məskunlaşma proqnozları, rayonun müqayisəli üstünlükləri və prioritetləri aiddir.

Layiqli əmək haqqı olan yeni iş yerlərlərinin, xüsusən də gənclərə uyğun iş yerlərinin yaradılması, onların sahibkarlıq fəaliyyəti ilə məşğul olmasının hərtərəfli təşviqləndirilməsinin işlək mexanizmi nəzərdə tutulur. Gənclərin sahibkarlıq fəaliyyəti və əmək məşğulluğu ilə bağlı genişmiqyaslı özünüməşğulluq layihələrinin həyata keçirilməsi və bu işdə müvafiq beynəlxalq təşkilatların dəstəyi, eləcə də beynəlxalq əməkdaşlığın genişləndirilməsi, onların beynəlxalq proqramlarda, layihələrdə iştirakının təmin olunması planlaşdırılır.

Məskunlaşma həyata keçirilən zaman şübhəsiz ki, məcburi köçkünlərin istəkləri əsas götürüləcəkdir.Böyük yaşayış məskənləri ilə yanaşı, əhalisi az olan yaşayış məskənlərinin də abadlaşdırılaraq yurd sahiblərinin istifadəsinə verilməsi həyata keçiriləcəkdir.Çünki hər bir insan öz yurdunda, uşaqlıq, gənclik xatirələrinin, kənd icma həyat tərzinin nostaljisi ilə öz ata-baba yurduna dönmək arzusundadır.Bu motivasiya Böyük Qayıdışda dərin sosial-psixoloji çəkiyə malikdir.Ona görə də məcburi köçkünlər arasında keçirilən sorğularda respondentlərin kifayət qədər böyük hissəsi məhz öz ata-baba yurdlarına qayıtmaq istədiklərini birmənalı şəkildə qeyd edirlər.

İşğaldan azad olunmuş ərazilərə böyük qayıdış prosesinə hər bir Azərbaycan vətəndaşının töhfə vermək imkanı vardır.Bu istiqamətdə sosial xidmət, sosial iş sferasında çalışan işçilərlə yanaşı, sosial iş və xidmət üzrə təhsil alan tələbələrin könüllü kimi fəaliyyət göstərmək üçün böyük potensialı

vardır.İlk öncə qazilərimiz və şəhid ailələri ilə sosial-psixoloji iş aparmaq, öz yurdlarına qayıdacaq əhali arasında sosial iş istiqamətində onların potensialından istifadə etmək məqsədəuyğun olardı.Sosial sahə mütəxəssisləri məskunlaşma ilə bağlı sosial təşəbbüslərlə çıxış etməli, müvafiq sosial layihələr təqdim etməlidirlər. Repatriasiya olunacaq əhali ilə, icmalarla sosial iş aparmaq, layiqli məskunlaşma üçün sosial layihələr təklif etmək, ağıllı şəhər, ağıllı kənd layihəsi üçün inklüziv tələblərə uyğun modellər təklif etmək, dinc, yanaşı yaşama üçün işğaldan azad rayonların əhalisi arasında xalq diplomatiyası, sosial dialoq potensialını hərəkətə gətirmək, məşğulluq potensialını təqdim edəcək sosial xidmət sektoru üçün layihələrlə çıxış etmək Azərbaycan sosial işçiləri qarşısında duran mühüm və şərəfli vəzifələrdəndir.

Bununla yanaşı, repatriasiya ediləcək vətəndaşların qayğıları ilə maraqlanmaq, onların məskunlaşma zamanı və yeni mühitə adaptasiyası gedişində qarşılaşa biləcəkləri sosial çətinlikləri aradan qaldırmasında yardım etmək məqsədilə işğaldan azad edilmiş ərazilərdə sosial xidmət və sosial iş və dost mərkəzlərinin yaradılması məqsədəuyğundur.İşğaldan azad edilmiş ərazilərdə sosial işçilər tərəfindən məskunlaşmanı təşviq edən sosial çarxların və digər sosial layihələrin işlənib hazırlanması, məskunlaşma zamanı əhalinin bütün demoqrafik göstəricilər üzrə repatriyasiyasına nail olmaq üçün sosial işçilər tərəfindən innovativ layihələr və təşəbbüslərin hazırlanması da qeyd olunan gerçəkləşməsi zəruri və labüd vəzifələrdəndir.

İnanırıq ki, işğaldan azd edilmiş ərazilərə böyük qayıdış uğurla həyata keçəcəkdir.Çünki Azərbaycan xalqının rasional-leqal lideri İlham Əliyev bütün məsələlərə intelektual yanaşmanı əldə rəhbər tutur, xalqın potensialına həmişə istinad edir, qərar qəbul etmədə ictimai iştirakçılığa önəm verir. Odur ki, Prezident-xalq birliyi sayəsində işğaldan azad edilmiş ərazilərimizə böyük qayıdış uğurla həyata keçəcək,

Azərbaycan bir daha "BİZ BİRLİKDƏ GÜCLÜYÜK" şüarının hikmətinin gücü ilə dünyaya Günəş kimi işıq saçacaq!

## SOSİAL SAHİBKARLIQ – CƏMİYYƏTİN İNKIŞAFINA İSTİQAMƏTLƏNƏN YENİ SOSİAL XİDMƏT SAHƏSİDİR

**F.ü .f.d. İsmayılova Elizə Sahadulla qızı**
eliza_ismayilova@yahoo.com

**Açar sözlər**; İnsan, rifah, sosial sahibkarlıq, ləyaqətli həyat, təhlükəsizlik.

İnsan inkişaf konsepsiyasının əsasında onun rifahına yönələn dövlətin sosial siyasəti, onun sosial xidmətinin səviyyəsi və innovativ modeli durur. Insanların həyat keyfiyyətinin yuksəldilməsi dövlətimiz tərəfindən ən ali prinsip kimi qəbul olunmuş və bu istiqamətdə davamlı olaraq yeni, innovativ sosial tədbirlərin, proqram və layihələrin həyata keçirildiyinin son illər tez-tez şahidi oluruq. Cəmiyyətin müxtəlif sosial sahələrini əhatə edən imkan və bacarıqların artırılması, ədalətli və ləyaqətli, sülh və əminamanlıq şəraitində təhlükəsiz həyat tərzinə nail olmaq dövlətimizin ümdə məqsədlərindən biridir. Məhz bu məqsədi maddi və mənəvi cəhətdə tamamlayan, milli təhlükəsizliyimizin əsasında duran insan, cəmiyyət və dövlət anlayışlarını tam mənasında doğruldan 44 günlük Vətən müharibəsinin Zəfər Qələbəsindən sonra yurd- yuvamızda yeni həyat qurmaq əzmi bizdə cəmiyyətimiz üçün yeni baxış, innovativ fəaliyyət və xidmət modellerinin ərsəyə gəlməsi zərurətini yaradır.

Otuz ilə yaxın bir müddət ərzində Ermənistanın işğalı nəticəsində ərazimizin 20%-i, şəhərlərimiz, kəndlərimiz, vəhşicəsinə darmadağın olmuş, nəinki yerüstü mal-mülklərimiz, eləcə də yeraltı sərvətlərimiz talan olunmuş, qızıl mədənləri, digər filiz yataqları, meşə zolaqları da barbarcasına

yağılanmışdır. Bütün bunların nəticəsində bir milyondan çox insanlar öz yurd-yuvalarından, yaşadıqları evlərindən zorla çıxarılmış, milyonlarca insanların maddi və mənəvi haqları ermənilər tərəfindən oğurlanmışdır. Bu faciənin qurbanı olmuş hər bir fərd, onun yaşadığı mühit dağıdılmış və məhvə məhkum olunmuşdu. Hər bir fərdin insan haqqı, onun yaşadığı cəmiyyətin milli-mənəvi dəyərləri, bütövlükdə isə dövlətimizə dəyən külli miqdarda ziyanın ödənilməsi hər hansı bir hesablamalarla ifadə olunsa da, onun insanlığa vurduğu ziyanı, mənəvi tərəfini heç nə ilə ölçmək mümkün deyil.

Bütün deyilənlər Azərbaycan Respublikası Prezidenti, Müzəffər Ordumuzun Ali Baş komandanı cənab İlham Əliyevin rəhbərliyi altında hərb yolu ilə artıq tarixə qovuşmuşdur. Azad olunmuş torpaqlarımıza öz sahiblərinin qayıdışı prosesinə başlanılmışdır. "Böyük Qayıdış" proqramı çərçivəsində Qarabağ və Şərqi Zəngəzurda əhalinin yenidən məskunlaşması, infrastrukturun yaradılması, orada yaşayacaq insanların ləyaqətli həyat şəraiti ilə təmin olunması və bütövlükdə bölgənin yüksək səviyyəli inkişaf istiqamətləri artıq müəyyənləşmişdir.

Qarabağda həyata keçirilməsi nəzərdə tutulan "Ağıllı şəhər" və " Ağıllı kənd" layihələrində əhalinin illər əvvəl itirilmiş maddi və mənəvi haqlarının bərpasına yeni baxış və yeni yanaşmaları tələb edir. Bu baxımdan bu ərazilərdə müasir dünyanın sosial-iqtisadi həyatını möhkəmləndirən- *sosial sahibkalıq,* onun müxtəlif fəaliyyət modellerinin tətbiqinə başlamaq bölgədə olduqca əhəmiyyətli faydaları ilə yanaşı, yeni bir sosial xidmət modeli kimi də dəyərləndirilə bilər. Nobel Sülh Mükafatı laureatı professor Məhəmməd Yunisinin təbirincə desək, " *sosial sahibkarlıq*- insanlığın ən aktual ehtiyaclarına xidmət edən yeni kapitalizm növüdür". Burada müasir dövrün və cəmiyyətin ictimai-iqtisadi formasiyasından asılı olaraq sosial sahibkarlığın inkişafına təsir edəcək bir neçə amilləri nəzərə alsaq, işçi qüvvəsinə bazarın tənzimlədiyi əmək

haqqının ödənilməsi, daha yaxşı iş şəraitinin təmin olunması, iş və yaşam həyatında daha rifahlı və uzun müddətli fəaliyyəti öz əksini tapmış olur. Sosial sahibkarlıq insanların sosial həyatındakı problemlərin aradan qalxmasını təmin etməklə yanaşı sosial biznes ilə qarşılıqlı əlaqələrin qurulması nəticəsində özünün ən yüksək inkişaf mərhələsinə də çata bilər. Sosial sahibkarlıq həm də ölkəmiz tərəfindən qəbul olunan " 2015-2030-cu illərdə Dayanıqlı İnkişaf Məqsədləri" proqramına da öz töhfəsini vermiş olar. Sosial sahibkarlar sosial müəssisələrin biznes fəaliyyətini genişləndirərək yeni sosial model tətbiq etməklə yeni xidmət sahələrinin inkişafına kömək edər. Bununla da sosial sahibkarlığa marağın artması, sosial-iqtisadi inkişaf, yeni sosial xidmət sahələrinin artması, yeni iş yerlərinin yaranması, eləcə də əhalinin sosial məmnunluğu artaraq cəmiyyətin rifahı yüksələr.

## ZƏNGƏZUR KORİDORUNUN AÇILMASININ REGİONAL VƏ İPƏK YOLU TİCARƏTİ ÜÇÜN İQTİSADİ FAYDALARININ EKONOMETRİK TƏHLİLİ

**Orucov Samir Zakir oğlu**
ADA universitetinin saathesabı müəllimi, Bakı, Azərbaycan
Cənub Brotan universitetinin riyaziyyat elmləri üzrə doktorantı, Vannes, Fransa

30 ilə yaxın davam edən Qarabağ münaqişəsinin region dövlətləri üçün iqtisadi zərərlərini təhlil edərkən təkcə müharibənin törətdiyi dağıntıları və pozulan iqtisadi əlaqələri deyil, həm də münaqişənin davam etdiyi 30 il ərzində bütün region və İpək Yolu xəttində yerləşən dövlətlər arasında Qarabağ münaqişəsi ucbatından baş tutması mümkün olmayan ticarət həcminin də nəzərə alınması önəmlidir. Cari elmi işdə Qarabağ münaqişəsinin həll olunmasının məntiqi davamı kimi

Zəngəzur dəhlizinin açılmasının region və İpək yolu ticarəti üçün təsirlərinin riyazi ekonometrik təhlili müzakirə olunacaqdır. Bunun üçün Beynəlxalq Ticarət nəzəriyyəsində geniş tətbiq olunan qravitasiya modelindən istifadə edilmişdir. Qravitasiya ekonometrik modeli Nyutonun ümumdünya cazibə qanununun iqtisadi ticarətə tətbiqi nəticəsində yaranmışdır. Bildiyimiz kimi Nyutonun qeyd edilən qanununa əsasən hər hansı 2 əşya arasında cazibə qüvvəsi onların çəkiləri ilə düz, onların aralarındakı məsafənin kvadratı ilə tərs mütənasibdir. Tinbergen 1962-ci ildə ilk dəfə bu qanunun məntiqini Beynəlxalq ticarətə tətbiq etmişdir və qeyd etmişdir ki, iki ölkə arasında ticarət dövriyyəsinin həcmi ölkələrin çəkisi (ümumi daxili məhsulunun həcmi) ilə düz, aralarındakı məsafənin kvadratı ilə tərs mütənasibdir. Cari işin məqsədi eyni məntiqi və modeli istifadə etməklə Zəngəzur koridorunun açılmasının region və İpək yolu ölkələri arasında ticarət dövriyyəsinin həcminə təsirini araşdırmaqdır. Qeyd etmək lazımdır ki, Zəngəzur dəhlizinin açılması İpək yolu ticarətində məsafələrin qısalması, gömrük xərclərinin və keçidlərinin sayının azalması və təhlükəsizlik baxımından önəmlidir.

Cari elmi işlə bağlı məlumat bazasının toplanması vaxt tələb etdiyi üçün ilkin mərhələdə, Zəngəzur dəhlizinin iqtisadi əhəmiyyətini sırf Türkiyənin digər İpək yolu ölkələri ilə olan ticarət dövriyyəsinin təhlili ilə məhdudlaşdırmışıq. Məlumat bazası tamam olduqda cari ekonometrik model bizə Zəngəzur dəhlizinin açılmasının istənilən 2 region və İpək yolu ölkəsi arasında olan ticarət dövriyyəsinin həcminə təsirini ölçməyə imkan verəcəkdir. Qravitasiya modeli aşağıdakı reqressiya tənliyi əsasında tərtib olunmuşdur:

$$[dövriyyə]_{ijt} = \alpha[məsafə]_{ijt} + \beta[ÜDM]_{ijt} + \cdots + \epsilon_{ijt}$$

Qeyd olunan reqressiya tənliyində i və j ölkə indeksi, t zaman bildirir. Dövriyyə hər hansı i və j ölkəsi arasında olan dövriyyəni, ÜDM ümumi daxili məhsulu, $\alpha$ və $\beta$ hesablanması gərəkən əmsalları, $\epsilon$ isə xəta payını, məsafə təhlil edilən hər

hansı iki ölkənin paytaxtları arasındakı məsafəni bildirir. Qeyd etmək lazımdır ki, bütün dəyişənlər loqarifmik transformasiya olunmuşdur. Qravitasiya modeli əsasında aparılan hesablamalarımız göstərir ki, Zəngəzur koridorunun açılması nəticəsində Türkiyə ilə digər region və İpək yolu dövlətləri arasında ticarət dövriyyəsi faiz etibarı ilə aşağıdakı həcmdə artacaqdır:

| | |
|---|---|
| Türkiyə -Azərbaycan | 44.5% |
| Türkiyə-Tacikistan | 15.3% |
| Türkiyə-Türkmənistan | 22.6% |
| Türkiyə-Özbəkistan | 19.0% |
| Türkiyə-Rusiya | 9.0% |
| Türkiyə-Çin | 7.9% |
| Türkiyə-Qazaxıstan | 17.4% |

Qeyd etdiyimiz kimi, alınan ilkin nəticələr məhdud məlumat bazasına əsaslanmışdır və yalnız Türkiyə ilə digər region və İpək yolu ölkələri arasında ticarətin həcmini təhlil etməyə imkan verir. Məlumat bazası tam hazır olduqdan sonra nəticələr daha etibarlı olacaq və yalnız Türkiyə ilə digər ölkələrin deyil, istənilən 2 region ölkəsi arasında ticarət dövriyyəsinin təhlilinə imkan verəcəkdir.

## ƏHALİNİN QARABAĞA QAYITMASI PROSESİNDƏ SOSİAL İŞİN ROLU

**Verdiyeva Tünzalə Müslüm qızı**
*Azərbaycan Universiteti, Bakı, Azərbaycan*
Email: tunzala.verdiyeva@au.edu.az
**ORCID No: 0000-0003-0044-6697**

2020 -ci ilin payızı Azərbaycan üçün əhəmiyyətli və tarixi bir hadisə ilə əlamətdar oldu: ölkə ərazi bütövlüyünü erməni işğalından hərbi yolla bərpa etməyi bacardı. Azərbaycanın işğal olunmuş əraziləri azad edildikdən sonraki əsas hədəf həmin

əraziləri bərpa etmək və məcburi köçkünləri oradakı evlərinə qaytarmaqdır. Məcburi köçkünlərin doğma yurdlarına geri qayıtması üçün stabil və rahat şərait də daxil olmaqla uyğun bir mühit lazımdır.

Sosial işçilər, institusional və peşə vəzifələrinin bir hissəsi olaraq, problemlərin həllində mərkəzi və əsas rol oynayırlar. Sosial işçilər cəmiyyətin risk və ehtiyac sahibləri ilə birgə işləyərək onların problemlərinin həllində aktiv şəkildə iştirak edirlər. Beləki sosial işin vətəndaş cəmiyyəti təşkilatlarına və hərəkatlarına verdiyi töhfələr çox vaxt yerli hakimiyyət orqanları və digər rəsmi sosial yardım agentlikləri qədər əhəmiyyətli olmuşdur.

İşğaldan azad olunmuş ərazilərə məcburi köçkünlərin geri qayıtması prosesində sosial iş amili çox önəm daşıyır. Sosial işçilərin, bu yerləşmə müddətində sosial işin əhatə etdiyi mikro səviyyədə, mezo səviyyədə və makro səviyyədə görəcəyi işlər əhəmiyyətli olacaqdır.

İnteqrasiya prosesi multikultural cəmiyyətin inkişafına imkan verir. Əhalinin uğurlu inteqrasiyasını təşviq etməkdə sosial işçilərin rolu çox vacibdir. Sosial iş rifahı sektoru sosial birliyi, kollektiv məsuliyyəti, fərdi və cəmiyyətin səlahiyyətlərini təşviq edir. Xüsusilə səlahiyyətləndirmə sosial iştirakçılığı və öhdəliyi artıran mühüm məqsəddir. Mandatlarının geniş spektrinə görə sosial işçilər dövlət, özəl, rəsmi və qeyri-rəsmi (könüllü) xidmətlər tərəfindən işə götürülür və müvafiq xidmətlər təşkil edir. Peşəkar bacarıqlar və müxtəlif şəraitlərdə iştirak (məsələn, sosial yardım, təhsil və s.) sosial işçiləri əsas mövqeyə qoyur, əhalinin yerləşməsi prosesində də fəal iştirak edir.

İnteqrasiya prosesinin mürəkkəbliyi Berrinin (1997, 2001) akkulturasiya modelini və Ager və Strangin (2008) yanaşmasını təhlil edərək araşdırılacaq. Bu modellər inteqrasiya mövzusu ilə bir-birini tamamlayır. Berry (1997,2001). Ager və Strang (2008), öz növbəsində

inteqrasiyanı əsas ehtiyaclar və vətəndaş hüquqlarının həyata keçirilməsi baxımından nəzərdən keçirir.

Akkulturasiyanın həlledici strategiyası kimi inteqrasiya immiqrantların irsi və qəbul edən-mədəni ənənələr və dəyərlər arasında qarşılaşma nəticəsində yaranan çoxölçülü prosesi təmsil edir (məsələn, Schwartz, Unger, Zamboanga, & Szapocznik, 2010). O, qruplararası təmasdan irəli gəlir, immiqrantlar və qəbul edən cəmiyyətlər üçün qarşılıqlı münasibət və davranış dəyişikliyinə səbəb olur (Berry, 2001).

Müvafiq ədəbiyyatda immiqrant qrupları daxilində akkulturasiya prosesi tez-tez araşdırılır. Bununla belə, qəbul edən cəmiyyətlər və yeni gələnlər fərqli akkulturasiya strategiyalarını qəbul edərək mədəniyyətlərarası vəziyyətlərlə üzləşirlər.

*Əsas ehtiyacların yerinə yetirilməsi: inteqrasiyanın əsası kimi*

Ager və Strang-ə (2008) görə, uğurlu inteqrasiya prosesi üçün xüsusi müddəalar vacibdir. Birinci səviyyədə nailiyyətlər və ictimai fəaliyyətin əsas sahələrinə çıxış (məşğulluq, mənzil, təhsil və səhiyyə) uğurlu inteqrasiyanın göstəricisidir. Müddəaların ən yüksək səviyyəsində vətəndaşlıq və hüquqlar bütün ölkələrdə milliliyin əsasını təşkil edir. Vətəndaşlıq məsuliyyət və ictimai, siyasi fəaliyyətlərdə iştirakdan ibarətdir. Hüquqlar isə mədəni kimliyi və təcrübələri qorumaq imkanlarına aiddir. Sosial əlaqə işarələr-vasitələr və təməl prinsiplər arasında vasitəçilik edir. “Mədəniyyətlərarası sosial toxuma”nın bir hissəsi kimi qruplar daxilində və qruplar arasında sosial münasibətlər yerli səviyyədə ünsiyyəti və inteqrasiyanı asanlaşdırır. Nəhayət, müxtəlif fasilitatorlar iki əsas sahəyə aid olan struktur maneələri aradan qaldırmağa imkan verir:

1) dil və mədəni biliklər
2) təhlükəsizlik

Dil səriştəsi çarpaz problemdir və multikultural kontekstlər, mədəniyyətlər arasında ünsiyyəti asanlaşdırmaq üçün vasitəçilik xidmətləri təqdim etməlidir. Üstəlik, inteqrasiya olunmuş icma qarşılıqlı biliklərə və müxtəlif mədəni gözləntilərin dərkinə əsaslanır. İctimai təhlükəsizlik və milli təhlükəsizlik prioritetləri sülh arzusu, zülm və sosial təhdid formalarının aradan qaldırılması ilə bağlıdır.

Məqsədlər

Əsas məqsəd sosial işçilər tərəfindən izlənilən inteqrasiya yollarını araşdırmaqdır. İnteqrasiya, öz adət-ənənələrini qorumaq və qruplararası əlaqə yaratmaq üçün ikitərəfli istək kimi, həm də əsas cərəyan tərəfindən multikultural ideologiyanın mənimsənilməsindən asılıdır. Bundan əlavə, institutlar xüsusi əsas ehtiyaclara yönəldildikdə inteqrasiya əldə edilə bilər: ilkin ehtiyaclar, hüquqi status və sosial hüquqlar əldə etmək. Nəticə etibarı ilə inteqrasiya anlayışını bu ölçülərin hər ikisinə aid Berrinin tərifinə (məsələn, 2001) və ya Ager və Strangin (2008) tərifinə endirmək olmaz. Bu səbəblərdən birinci məqsəd sosial işçilər baxımından inteqrasiya prosesinin əhəmiyyəti; ikinci məqsəd isə hər bir peşə sahəsi üçün gündəlik qarşılaşılan əsas problem və çətinlikləri vurğulamaqdır. Sosial işçilərin inteqrasiyanı təşviq etmək üçün necə hərəkət etdiyini anlamağa çalışaraq, inteqrasiyanı təkmilləşdirmək üçün zəruri olan təcrübələri və səyləri araşdırmaq istəyir. Üçüncü məqsəd real təcrübənin nəzəriyyəni nə dərəcədə əks etdirdiyini araşdırmaq və bir neçə suala cavab verməyə çalışır: “İnteqrasiya plüralist sosial ideala nail olmaq məsələsidir, yoxsa daha doğrusu, resursların bölüşdürülməsi məsələsidir? İnteqrasiya nə dərəcədə müxtəlif mədəniyyətlərlə üzləşən ev sahibi cəmiyyətin xüsusi yardımçı qollarının səylərindən irəli gələn mürəkkəb bir prosesdir?” Nəhayət, sosial işçilər nöqteyi-nəzərindən “İnteqrasiyanın mərhələləri hansılardır?”.

Müzakirə

Rəsmi və qeyri-rəsmi sosial işçilər inteqrasiya prosesində fəal rol oynayan mühüm dəstək şəbəkələrini təmsil edirlər. Sosial işçilər, rifahın sütunları, mümkün sosial maneələrə baxmayaraq, mədəni fərqlilikləri tanıyaraq və onlara hörmət edərək, immiqrantlara dəstək və imkanlar təqdim edirlər. İnsanların qabiliyyətlərini əvəz etmədən, onlar fərdi məsuliyyət və səlahiyyətləri inkişaf etdirməyi bacarır, yeni gələnlər müxtəlif vəziyyətlərlə üzləşə bilirlər. Berriyə (2001) görə, sosial üzvlüyə mədəni saxlama və qruplararası əlaqəni təşviq edən inteqrasiya strategiyası vasitəsilə nail olmaq olar. Ona görə də multikultural ideologiyanı əhatə edən mədəniyyətlər daxilində inteqrasiya strategiyası uğurlu olur. Multikulturalizm nəzəriyyəsi qruplararası münasibətlərə dair psixo-sosial tədqiqatları inteqrasiya prosesi ilə bağlı araşdırmalarla əlaqələndirir. Bununla belə, normativ nöqteyi-nəzərdən Berrinin (1997; 2001) nəzəriyyəsində uğurlu inteqrasiya üçün vacib komponentlər nəzərə alınmır. Ager və Strang (2008) öz növbəsində inteqrasiyanın tərifini tədqiq edərək göstərdilər ki, bu strategiyanın əsas sahələri məşğulluq, mənzil, təhsil və səhiyyə, daha sadə səviyyədə - vətəndaşlıq və hüquqlar - ən yüksək səviyyədə təminatlarla bağlıdır. Sosial əlaqə və fasilitatorlar (məsələn, mədəni vasitəçilik, sosial təminat və s.) bu iki nailiyyət kateqoriyası, eləcə də nailiyyətlər və ev sahibi cəmiyyət arasında vasitəçilik edir.

Hazırkı araşdırma göstərir ki, sosial işçilər inteqrasiya prosesini daha çox Ager və Strangin (2008) yanaşmasına yaxınlaşaraq resursları bölüşdürmək və konkret ehtiyacları həll etmək cəhdi ilə əlaqələndirirlər. İştirakçılar immiqrantların əsas ehtiyaclarına, işarələrinə və inteqrasiya imkanlarını təşviq etmək vasitələrinə cavab vermənin vacibliyini vurğulayırlar. Buna baxmayaraq, işsizlik və qara əmək bazarı kimi geniş yayılmış və makrososial problemlər inteqrasiya yolunda zərərli maneələr yaradır.

*Üzvlüyün ən yüksək səviyyəsi olan vətəndaşlıq hüquqlarla bərabər öhdəlikləri də ehtiva edir.*

Multidissiplinar komandalar daxilində mədəni vasitəçiliyin rolu inteqrasiya prosesində, müxtəlif mədəniyyətlər arasında (yalnız deyil) anlaşmanın və ünsiyyətin yaxşılaşdırılmasında vacibdir. Vasitəçilik uğurlu mədəniyyətlərarası ünsiyyəti, əlaqələri və multikultural cəmiyyətin çiçəklənməsini təşviq edir. Bu, sadəcə olaraq "tərcümə" (linqvistik-mətn əməliyyatı) məsələsi hesab edilmir, çünki o, fikir və hisslərin başa düşülməsini tələb edir. Bu mənada vasitəçilik qruplararası əlaqəni inkişaf etdirərək qruplar arasında maneələri azalda bilər. Berrinin (məsələn, 2001) modelinə görə, immiqrantlar və ev sahibliyi edən cəmiyyətlər üçün akkulturasiya strategiyaları bir-birinə təsir edir, lakin mümkün əlaqələri göstərmir. Bu araşdırma vurğulayır ki, sosial işçilərin səyləri inteqrasiyaya doğru ilk addımdır, halbuki mədəni vasitəçilər, "mədəni körpülər" plüralistik kontekstlər daxilində rəsmi və qeyri-rəsmi qruplararası əlaqələri dəstəkləyən bir metabağlantı təmsil edə bilər. Buna görə də, sosial işçilər empatik və qarşılıqlı anlaşma təklif edə bilən mədəni vasitəçilər də daxil olmaqla, multidissiplinar komandalar daxilində işləməlidirlər.

Berriyə görə (məsələn, 2001), inteqrasiya əsas axının iştirakı olmadan təsəvvür edilə bilməz. Bununla belə, ev sahibi cəmiyyətin rolu yalnız mühacirlərə diqqət yetirməklə sosial işçilər arasında marjinal olaraq ortaya çıxır. İcmaya olan eyhamlar, əsasən, yeni gələnlərə qarşı geniş yayılmış düşmənçiliklə əlaqədardır. İştirakçılar bilirlər ki, cəmiyyətdə qərəz və ayrı-seçkilik epizodları yayılır, lakin bu mümkün deyil. Problemin həlli müsahibələrdən görünmür. Əslində, onlar bütün əhalini sıxışdıran (getdikcə həssas və ehtiyacı olan) sosial-iqtisadi böhran səbəbindən irqçiliyi rasionallaşdırmağa meyllidirlər. Məhdud resurslar immiqrantların ehtiyaclarını ödəmək cəhdlərinə mənfi reaksiya verir, əsas axının hüquqlarına təhlükə kimi qəbul edilir. İmmiqrantlarla yerli

əhali arasında yoxsulluq fərqi nə qədər azaldıqca, vətəndaşlar "yardımın milliyyəti yoxdur" izahından bir o qədər çox imtina edirlər. Sosial işçilər hesab edirlər ki, sosial şərait təhlükəli olmasa da, ev sahibi cəmiyyət qruplararası əlaqəni arzulayacaq. Beləliklə, irqçilik, əhalinin kövrək təbəqələrinin ehtiyaclarından daha çox şəxsi ehtiyaclara üstünlük verərək, mövcud sosial böhranın nəticəsi olardı. Üstəlik, ehtimal edilən "işğal" anlayışı yeni gələnlərə qarşı sosial maneələr yaradır. Göstərdiyimiz kimi, mütərəqqi dilemma (məsələn, Pearce, 2004), etnik müxtəliflik və sosial həmrəylik, "etik bərabərlik dəyərləri və gizli nativizm" (Barberis & Boccagni, 2014, s. 71) arasındakı gərginlik vətəndaşlar arasında aşıb-daşır.

Sosial işçilər öz işlərinin diqqətini cəmiyyətə yönəltməli və müxtəlif sosial qrupların birgəyaşayışını təşviq etməlidirlər, məsələn, qərəzlərin azaldılmasına müdaxilələr, inklüziv multikultural öyrənmə mühitləri və s. Xüsusən də irqçiliyin hər hansı formada problemin qarşısını almasına səbəb olan əsaslandırmalar qəbul edilə bilməz.

*Fərqli fəaliyyət sahələrində müdaxilələr*

Sosial işin fəaliyyət sahələrini nəzərə alsaq, hər bir müdaxilə sahəsi daxilində müxtəlif problemlər və strategiyalar aşkar edilə bilər. Bu aspekt inteqrasiya prosesinin daha aydın təsvirini verir ki, bu da mikro aspektlərdən kənara çıxa bilməz. Bəzi sosial işçilər digərlərindən daha çox bilirlər ki, məlumatsızlıq mədəni uçurumun genişlənməsinə və immiqrantların xidmətlərdən uzaqlaşmasına səbəb ola bilər. Sosial xidmətlərə görə, məsələn, əsas çətinlik şübhə və qorxuya səbəb olan immiqrantlar arasında qarşılıqlı anlaşma və onların rolu haqqında biliklərin olmaması ilə bağlı idi. Əsassız narahatlıqlar xüsusilə, kişilərdən daha çox qurumlara müraciət edən və yardım tələb edən, özləri və uşaqları üçün daha yaxşı gələcək təmin etməyə çalışan əcnəbi qadınları əngəlləyir. Qadınların tez-tez çətin həyat şəraiti (yəni, alkoqolizm, sui-istifadə) ilə qarşılaşdıqlarını nəzərə alaraq bu vəziyyət diqqətə

layiqdir. Sosial xidmətlərdən qorxduğu üçün vasitəçilər yeni gələnlər və müəssisələr arasında əlaqə və ünsiyyəti asanlaşdırır. Öz növbəsində, müəllimlər diqqəti yetkinlik yaşına çatmayanlara yönəldir, müxtəlif mədəniyyətlərdən olan tələbələr və mədəni cəhətdən fərqli ailələr və məktəb arasındakı məsafələri aradan qaldırmağa çalışırlar. Müəllimlər sosial inteqrasiyaya həssas yanaşır və birgə yaşayışı və qarşılıqlı anlaşmanı təşviq edirlər. Məsələn, onlar multikultural cəmiyyətin əsaslarını qoymağa ümid edərək zənginləşdirmə strategiyası kimi tələbələr arasında müxtəlif mədəniyyət və ənənələri vurğulayırdılar.

Sağlamlıq ölçüsü çərçivəsində qeyri-qanuni vəziyyətlər immiqrantları qayğı xidmətlərindən uzaqlaşdırdığı üçün, social- iqtisadi vəziyyətindən asılı olmayaraq insanlara kömək etmək üçün bəzi səhiyyə xidmətləri yaranmışdır. Həkimlər tez-tez bəzi terapevtik müalicələrin əhəmiyyətini (məsələn, peyvəndin əhəmiyyətini) izah etməli olurlar, halbuki vasitəçilik uyğunluğu artırmaq üçün həlledici olduğunu bir daha sübut edir. Nəhayət, hər bir fəaliyyət səviyyəsində QHT-lər mühüm rol oynayır, çünki onlar immiqrantları təmin edirlər. formal institutlar mühüm bufer funksiyasını yerinə yetirərək, ehtiyaclarını ödəyə bilmirlər. Üstəlik, onlar qeyri-rəsmi və dəstəkləyici yardım formalarını təklif edir, rifahdan daha çox səlahiyyətləri təşviq etməyə çalışırlar (yəni, paternalizm və assistensializmə düşmədən).

Beləliklə, hesab edirik ki, sosial işçilər sahib olduqları sosial işçi bacarıqları vasitəsilə əhalinin işğaldan azad olunmuş ərazilərə qayıdışına yaxından kömək edəcək, yerləşmə müddəti və daha sonrakı vaxt ərzində insanların yaşadıqları ərazilərə adaptasiya, inteqrasiya və yenidən qurulan icma birliklərindəki iştiraklarına töhfələr verəcəkdir.

**Tünzalə Verdiyeva Müslüm**

## Əhalinin Qarabağa qayıtması prosesində sosial işin rolu

**Xülasə**

Sosial iş peşəsi, siyasi və iqtisadi vəziyyətindən və dini mənsubiyyətindən asılı olmayaraq bütün insanların ləyaqətini və dəyərini yüksəltməyə çalışır. Peşə cəmiyyətdə mövcud olan maneələri, bərabərsizlikləri və ədalətsizlikləri aradan qaldırmaqla həyat keyfiyyətinin yüksəldilməsinə və müştərilərin tam potensialının inkişafına sadiqdir. Beləliklə, insan hüquqları və sosial ədalət prinsipləri sosial işin əsasını təşkil edir.

Sosial işçilər sahib olduqları sosial işçi bacarıqları vasitəsilə yerləşmə müddəti və daha sonraki vaxt ərzində insanların yaşadıqları ərazilərə adaptasiya, inteqrasiya və yenidən qurulan icma birliklərindəki iştiraklarına töhvələr verəcəkdir.

**Açar sözlər:** Azərbaycan, Dağlıq Qarabağ bölgəsi, qayıdış, sosial iş.

**Tunzala Verdiyeva Muslim**

## The role of social work in the process of population return to Karabakh

**Summary**

Social work seeks to enhance the dignity and worth of all people, regardless of their political, economic, or religious affiliation. The profession is committed to improving the quality of life and developing the full potential of customers by overcoming barriers, inequalities and injustices in society. Thus, the principles of human rights and social justice form the basis of social work.

Through their social work skills, social workers will contribute to people's adaptation, integration, and participation in reorganized community groups during their stay and beyond.

**Keywords:** Azerbaijan, Nagorno-Karabakh region, return, social work.

**Тунзала Вердиева Муслим**

**Роль социальной работы в процессе возвращения населения в Карабах**

**Резюме**

Социальная работа направлена на повышение достоинства и ценности всех людей, независимо от их политической, экономической или религиозной принадлежности. Профессия стремится улучшить качество жизни и полностью раскрыть потенциал клиентов, преодолевая барьеры, неравенство и несправедливость в обществе. Таким образом, принципы прав человека и социальной справедливости составляют основу социальной работы.

Благодаря своим навыкам социальной работы социальные работники будут способствовать адаптации, интеграции и участию людей в реорганизованных общественных группах во время их пребывания в стране и за ее пределами.

**Ключевые слова:** Азербайджан, Нагорно-Карабахский регион, возвращение, социальная работа.

## ƏDƏBİYYAT SİYAHISI

1. Ager, A., & Strang, A. (2008). Understanding integration: A conceptual framework. Journal of Refugee Studies,21,166–191.

2. Barberis, E., & Boccagni, P. (2014). Blurred rights, local practices: Social work and immigration in Italy. British Journalof Social Work,44,70–87.

3. Berry, J. W. (2001). A psychology of immigration. Journal of Social Issues,57, 615–631.

4. Berry, J. W. (1997). Immigration, acculturation and adaptation. Applied Psychology,46,5–68.

5. Pearce, N. (2004). Diversity versus solidarity: A new progressive dilemma. Renewal: A Journal of Labour Politics,12,79–87.

6. Rappaport, J. (1987). Terms of empowerment/exemplars of prevention: Toward a theory for community psychology.American Journal of Community Psychology,15, 121–148.

7. Schwartz, S. J., Unger, J. B., Zamboanga, B. L., & Szapocznik, J. (2010). Rethinking the concept of acculturation:Implications for theory and research. American Psychologist,65, 237–251.

8. Wegmann, K. M. (2014). Shaping a new society: Immigration, integration, and schooling in Germany. International Social Work,57, 131–142.

## MÜHARİBƏDƏN ƏZİYYƏT ÇƏKMİŞ QAZİLƏR VƏ ONLARIN AİLƏ ÜZVLƏRİ İLƏ SOSİAL İŞ

**Muradlı Aygün Hüseynağa qızı**
**Azərbaycan Universiteti, Bakı, Azərbaycan**
**Email: aygun.muradly@au.edu.az**

**Açar sözlər:** vətən müharibəsi, qazilər, sosial iş, sosial işçi.

Sentyabrın 27-də əks-əməliyyat ilə başlanan və Vətən müharibəsi kimi xarakterizə edilən İkinci Qarabağ müharibəsi cəmi 44 gün çəkərək müzəffər Azərbaycan ordusunun parlaq qələbəsi ilə başa çatdı. Bu qələbə xalqımızın illərlə gözlədiyi həsrətinə son qoymaqla yanaşı özü ilə birlikdə bir sıra məsuliyyət və öhdəlikləri gətirmiş oldu.

Bu müddət ərzində minlərlə döyüşçü yaralanmış və 2000-dən artıq şəxsin şəhid olması ilə yanaşı onların ailə üzvləri və yaxınları üçün psixo-sosial cəhətdən ağır vəziyyətlər yaranmışdır.

Sosial iş cəmiyyətin risk qruplarına aid olan şəxsləri ilə işləməkdə və onların sosial rifahlarına töhfə verməkdədir. Sosial işçilərin çalışdığı bir digər qrupda məhz qazilər və müharibədən əziyyət çəkən şəxslərdir.

Qazilərlə sosial iş təcrübəsi, hərbi qulluqçular, qazilər və ailələri ilə işləməklə bağlı bir çox problemi özündə cəmləşdirən hərtərəfli, sübuta əsaslanan sosial iş prosesidir.

Qazilərlə sosial iş zamanı sosial işçilər onlara dəstək, terapiya, gərəkli xidmətlər təqdim edərkən, ixtisaslararası modelə əsaslanan bir sistemdə onlara əsaslı şəkildə yardım etməyə çalışırlar.

Onların sağlamlığını maksimum dərəcədə artırmaq üçün, qazilərin malik olduğu hər bir maneəni aradan qaldıraraq bütün güclü cəhətləri ön plana çıxarmalı, sosial işçi qazilərə optimal müalicə nəticələrini əldə etməyə kömək edə biləcək xüsusi psixososial faktorlar haqqında geniş məlumat verərək gərəkli xidmət növlərinə yönəltməlidirlər. Qazilər ilə sosial iş zamanı yalnız tibbi və psixi sağlamlıq problemlərini müalicə etmək üçün deyil, həm də mənzil, hüquqi problemlər, baxıcı dəstəyi və icma ilə əlaqə ilə bağlı səylər artırılmalıdır.

Sosial işçilər qazi və onların ailələri üçün qiymətləndirici, profilaktik, müalicəvi, bərpaedici və şəxsi qulluq xidmətləri göstərir. Sosial işçilər qazilərlə iş çərçivəsində onların ehtiyaclarını ödəmək üçün qaynaqlar tapmağa kömək edirlər.

Müharibədən sonra xidmət üzvləri ailə həyatına yenidən inteqrasiya edərkən çox vaxt fiziki və ruhi sağlamlıq problemləri ilə üzləşirlər. Bunun aradan qaldırılması üçün qazilərlə çalışan sosial işçilərin hərbi mədəniyyət haqqında bacarıqlı və məlumatlı olması və ən yaxşı təcrübələr haqqında məlumatlandırılması lazımdır.

Qazilərlə sosial iş təcrübəsi zamanı əldə olunan məlumatlar, hərbi mühitdəki şəxslərlə işləyən sosial işçilər, məsləhətçilər və psixi sağlamlıq mütəxəssisləri üçün əhəmiyyətli bir qaynaqdır.

## POSTMÜHARİBƏ DÖVRÜNDƏ MÜHARİBƏ NƏTİCƏSİNDƏ VALİDEYNİNİ İTİRMİŞ UŞAQLARA HİMAYƏDARLIQ

**Əsgərzadə Mədinə Ehtibar qızı**
**BDU-nun II kurs magistrantı**
**m.asgarzade@yandex.com**

44 gün davam edən Vətən müharibəsi milli həmrəyliyimizin simvoluna çevrildi, tariximizə qürur mənbəyimiz kimi qızıl hərflərlə yazıldı. 27 sentyabr 2020-ci ildə başlayan II Qarabağ müharibəsində "Dəmir yumruq" əməliyyatı ilə qədim Azərbaycan torpaqları mənfur düşmənin işğalından azad edildi. Azərbaycan öz tarixi torpaqlarını,qədim yurd-yuvasını geri qaytardı. Ali Baş Komandanın siyasəti, Türkiyə və Pakistan başda olmaqla bir çox ölkələrin dəstəyi ən əsası şəhidlərimizin qanı bahasına Qarabağ yenidən öz əzəli və tarixi sahibinə geri qayıtdı. Təəssüf ki, müharibə itkisiz ötüşmür. Torpaqlarımızın bütövlüyü uğrunda 2907 igid ən uca məqama – şəhidlik zirvəsinə yüksəldi.

Şəhidlərimizin hər birinin ürəyində vətən sevgisi,torpaq həsrəti vardı, tarix yazan igidlərimizin əksəriyyəti könüllü şəkildə müharibəyə yollanmışdı. Lakin, unutmaq olmaz ki, onların geridə qoyub getdiyi ata-anaları, həyat yoldaşları,vətənə əmanət körpələri var. Dövlətimiz hər zaman şəhid ailələrinə maddi-mənəvi dəstək göstərir. Şəhid ailələrinə ev və maşın bağışlanır, təqaüd təyin edilir. Əlbəttə, heç bir yardım onların yerini doldura bilməz,ancaq bu, dövlət tərəfindən ailə başçısını, yeganə övladını, oğlunu itirmiş şəhid ailələrinin (gələcək) maddi qayğılarının həll olunması

istiqamətində düşünülmüşdür. Çünki, əksər ailələr yeganə gəlir qazanan ailə üzvlərini itirdiyindən onların təkcə mənəvi deyil,həmçinin maddi dəstəyə də ehtiyacları vardır. Qazi və şəhid ailələrindən bəhs edərkən, əlbəttə ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 8 dekabr 2020-ci il tarixində "Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondunun yaradılması haqqında" Fərmanı ilə "YAŞAT" Fondu təsis edilməsinə də diqqət yetirmək lazımdır. Fondun yaradılmasında əsas məqsəd şəhid ailələri, müharibə əlilləri olan şəxslərin sosial müdafiəsi sahəsində dövlət tərəfindən həyata keçirilən tədbirlərə əlavə dəstək verilməsi (maliyyə yardımlarının göstərilməsi və digər dəstək tədbirlərinin həyata keçirilməsi) üçün şəffaf, effektiv və əlçatan platformanın formalaşdırılmasıdır.

Dövlətimizin şəhid ailələrinə göstərdiyi maddi-mənəvi yardımla yanaşı, yardımsevər Azərbaycan xalqı da torpaqların bütövlüyü uğrunda canından keçən, ümidləri sönən,ömrü yarım qalan şəhidlərini unutmur. Xüsusilə, "ata" sözünü deməyə həsrət qalan şəhid övladlarının gələcək həyatının modelləşdirilməsində xeyriyyəçi insanlar onlara dəstək olmağa çalışır. Bu isə bizim xalqımızın birliyinin,mərhəmətinin təcəssümüdür. Bir çox təşkilatlar,şirkətlər və ayrı-ayrı şəxslər şəhidlərin vətənə əmanət övladlarına maddi-mənəvi dəstək olaraq onların bütün xərclərini öhdəliyini almışlar. Unibank torpaqlarımızın düşməndən azad olunması uğrunda canından keçmiş şəhidimiz Quba rayonu, Zizik kənd sakini Allahyarov Şahin Hüseynbala oğlunun ailəsini himayəyə götürmüşdür. Bu barədə onun ailəsinə məlumat vermiş, şəhidin üzünü görmədiyi adını daşıyacaq oğlu Şahini 18 yaşına çatanadək himayəsinə götürmüşdür. 18 il ərzində şəhid övladının aylıq təminat xərcləri və ali məktəbə qəbul olunduğu təqdirdə 4 illik universitet xərcləri bank tərəfindən qarşılanacaq. Ali məktəbi

bitirdikdən sonra şəhid övladının istədiyi təqdirdə Unibankda işlə təminatı da həyata keçiriləcək.

II Qarabağ müharibəsinin xəbərçisi hesab edilən Tovuz döyüşlərində şəhid olan Elşad Məmmədovun 7 aylıq övladını əslən Tovuz rayonundan olan Rusiyada yaşayan biznesmen İlham Rəhimov 18 yaşınadək himayəsinə götürüb. Bu xəbəri şəhidin 7 mərasimində biznesmenin xüsusi nümayəndəsi ailə başçısına elan edib..Həmçinin İlham Rəhimov tərəfindən şəhidimizin ailəsinin bundan sonra qarşılaşacağı problemlərin həllinə də öz dəstəyini göstərəcəyi bildirilib.

Aprel döyüşlərində də böyük şücaətlə döyüşüb şəhid olan igidlərimizin övladları xeyirxah insanlar tərəfindən himayə edilib. Fövqəladə Hallar Nazirliyi İşçilərinin Həmkarlar İttifaqı şəhid kiçik gizir Orxan Həmidovun övladları - 2007-ci il təvəllüdlü Həmidli Vüsal və 2009-cu il təvəllüdlü Həmidli Fəridi himayəyə götürüb. Şəhidimizin ailəsinə hər övlada 18 yaşı tamam olana kimi hər ay 150 manat olmaqla 300 manat məbləğində maddi yardım verilir. Fövqəladə Hallar Nazirliyi işçilərinin Həmkarlar İttifaqının sədri Mehman İsmayılov şəhid Orxan Həmidovun ailəsi ilə görüşərək hər bir problemdə yanlarında olacağını vurğulayıb. Bu kimi nümunələr həddindən artıq çoxdur.

Onlar Azərbaycan torpaqları birləşsin, daha da qüdrətlənsin, torpaqlarımız işğaldan azad olunsun, bizlər, övladlarımız Vətənimizdə daha xoşbəxt yaşayaq deyə, Şəhid oldular. Biz onları heç vaxt unutmamalı, şəhidlərimizin əziz xatirəsini daim uca tutmalı, əmanətlərinə gözümüz kimi baxmalıyıq.Bu məsələyə biganə yanaşmamalı və onların gələcək həyatının modelləşdirilməsində hər birimiz yaxından iştirak etməliyik. Bunun üçün müxtəlif təkliflər verə bilərik. Mənim təklifim ondan ibarətdir ki, şəhid övladlarının xüsusilə aztəminatlı,çoxuşaqlı ailələrdən olanların şəhər və rayonlar üzrə sayını müəyyən edib hər ay gəliri normal ailələrin toplanıb ailəni ziyarət etməsi olardı. İkinci bir təklifim isə ondan

ibarətdir ki,xüsusilə, biz sosial iş üzrə təhsil alan tələbələr bu işdə daha fəal ola bilərik. Sosial iş sahəsi üzrə təhsil alan tələbələr vaxtaşırı şəhid övladlarını ziyarət edərək onlarla söhbət edib cəmiyyətə tam adaptasiyanın təmin olunmasına yardımçı ola bilər, onların təhsili, gələcək planları ilə maraqlana bilər. Unutmaq olmaz ki, onların sadəcə yeməyə, geyimə yox, dərdlərini dinlətməyə, qayğı göstərilməyə, bir xoş sözə də ehtiyacları var. Onlar hər birimizin övladlarıdır, hər birimiz onları vətənin torpağını üstün tutub canından keçən ataları kimi sevməliyik.

**ƏDƏBİYYAT SİYAHISI**


1. https://baku.ws/social/93600
2. https://yenisabah.az/sehid-ve-qazi-aileleri-dovletimizin-himayesi-altindadir
3. https://oxu.az/society/416744


## MÜHARİBƏDƏN ƏZİYYƏT ÇƏKMİŞ MÜLKİ ƏHALİ, HƏRBİÇİLƏR VƏ ONLARIN AİLƏ ÜZVLƏRİ, MƏCBURİ KÖÇKÜNLƏR, ŞƏHİDLƏRİN AİLƏ ÜZVLƏRİ, QAZİLƏR VƏ ONLARIN AİLƏ ÜZVLƏRİ İLƏ SOSİAL İŞ.


**Həsənzadə Natəvan Rəşid qızı**
Baki Dövlət Universiteti, Psixoloji Yardım Sektoru,
Bakı şəhəri, Azərbaycan Respublikası.


Otuz ilə yaxın davam edən, atəşkəs pərdəsi altında gizlənən müharibənin məntiqi sonluğu olaraq, 27 Sentyabr 2020-ci ildə, Azərbaycan Respublikasının silahlı qüvvələri tərəfindən keçirlimiş əks-həmlə əməliyyatları nəticəsində, İkinci Qarabağ müharibəsi, Azərbaycan Xalqı üçün Vətən Müharibəsinə çevrilmiş bir savaş başladı.

Azərbaycanın zəfər qazandığı, İkinci Qarabağ müharibəsindən artıq bir il ötməkdədir. Müharibə başlanan gündən bu günə qədər, Azərbaycan xalqının, bir xalq olaraq, Orduya, Ali Baş Komandana və bir-birinə olan dayaq və dəstəyi örnək olacaq bir nümunəyə çevrilmişdir. Hər kəs bir nəfər kimi ordu və qələbə üçün çalışırdı. Təəssüflər olsun ki, müharibə fəsadsız və itkisiz ötüşmür. Bu müharibə zamanında, mənfur düşmən, Azərbaycan əsgərinin qarşısında tab gətirə bilməyərək geriyə çəkilir, öz alçaq xislətini dinc əhaliyə atəş açmaqla nümayiş etdirirdi. Ağdam, Tərtər, Bərdə, Goranboy, Gəncə və digər rayon və şəhərlər düşmən atəşinə məruz qalmışdırlar. Dinc əhali qorxaq düşmənin hədəfinə çevrilmişdir. Gəncə şəhərinə, gecə saatlarında atılan mərmilərin düşməsi nəticəsində, dinc sakinlərin arasında onlarla ölən və yaralanan olmuşdur. Bir neçə yaşayış binası tam yararsız vəziyyətə gəlmişdir. Bu dəhşətləri yaşayan insanların, əsasən də uşaqlar, qadınlar və yaşlıların hansı hissləri keçirtdiyini anlamaq elə də çətin deyil. Bu insanlar maddi yardımdan daha çox, mənəvi dəstək və psixoloji yardıma ehtiyac duyurdular. Hər bir azərbaycanlı kimi, biz, psixoloqlar, o ərazilərdən uzaqda olsaq da, zərər çəkmiş insanlara öz yardımımızı göstərmək istəyirdik. Bu nədənlə, Birləşmiş Millətlər Təşkilatı (BMT) Uşaq Fondunun (UNİCEF), "Fövqaladə Hallarda Uşaq Müdafiəsi" layihəsi çərçivəsində, müharibədən zərər çəkən uşaq və analara psixoloji və sosial yardımın təşkil edilməsi hayata keçirildi. Bizim, zərər çəkən insanlara yardım etmək istəyən psixoloqlar üçün, bu bir vətəndaş borcu, eyni zamanda, böyük bir məsuliyyət idi. Layihə Goranboy, Bərdə və Gəncə şəhərlərini əhatə edirdi. Ərazilərə çatdıqdan sonra, dərhal, ilkin psixoloji və sosial qiymətləndirmə aparılmışdır. Qiymətləndirmənin nəticəsinə əsasən, prioritetlər müəyyənləşdirilmiş, yardıma ehtiyac olanlar individual və qrup şəklində terapiyaya cəlb olunmuşdur. Qeyd etmək istərdim ki, əhali bu cür diqqət və dəstəyi böyük minnətdarlıq hissi ilə qarşıladı. İnsanların psixoloji seanslara necə həvəslə gəldiyinin şahidi olurduq. İlk seanslarda, adi bir səsdən qorxub, reflektor

şəkildə yerindən atlanan uşaqlar, üçüncü seansda qorxunun artıq yox olduğu barədə danışırdılar. Belə hallar bizi sevindirməyə bilməzdir. İnsanlara, onların itirdikləri əzizlərini heç kim əvəz edə bilməsə də, psixoloq və sosial işçilər onları bu itkini daha ağır və fəsadlı keçirtməkdən xilas edirdilər. Bizim seansların nəticəsində hər bir körpənin, hər bir ananın, üzünə qayıdan təbəssümü, bizim öz cəbhəmizdə əldə etdiyimiz kiçik bir qələbəmiz kimi hesab edirdik. İçində kiçicik bir narahatlıq qalan uşaq və qadının narahatçılığını aradan qaldırmaq üçün, psixoloq və sosial işçilər əllərindən gələni edirdilər. Paralel olaraq bu cür psixoloji və sosial yardım qazilər və şəhid ailələri ilə də keçirilmişdir. Bütün hallarda görülən işlərin müsbət nəticələri göz önündə idi. Getdiyimiz hər ailə, görüşdüyümüz hər bir uşaq və qadından eşitdiyimiz xoş sözlər, bizim işimizə verilən ən böyük dəyər və qiymət idi.

Hesab edirəm ki, layihə özünü doğrultdu, və bu cür layihələrin təşkili, şəhid ailələrini, qaziləri və müharibədən zərər çəkən ailələri mütamadi olaraq yad etmək, onlara sosial-psixoloji dəstək göstərmək hər birimiz üçün bir vətəndaşlıq borcudur.

## POST-MÜHARİBƏ DÖVRÜNDƏ QARABAĞDA YARADILACAQ MƏKTƏBLƏRDƏ SOSİAL İŞÇİLƏRİN ƏHƏMİYYƏTİ

**Əsgərli Pünhani Səyyad oğlu**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Sosial-mədəni fəaliyyət kafedrasının müəllimi**
**asgerlipunhani@gmail.com**
**Mobil: (055)524-89-90**

**Açar sözlər:** Qarabağ, müharibə, məktəb, şagird, sosial işçi, təhsil, müəllim.

**Key words:** Karabakh, war, school, student, social worker, education, teacher.

Məktəblər, fərdlərin inkişafı və yetişdirilməsində, ixtisaslı insan gücü olaraq cəmiyyətdə yer almalarının təmin edilməsində və şagirdlərin sosiallaşma prosesində ciddi rol oynayan çox əhəmiyyətli təhsil müəssisələridir. Post-müharibə dövründə Qarabağda məskunlaşacaq ailələrin uşaqları məktəbə uyğunlaşmasına, məktəbdə uğurlarına, məktəbə davamiyyətinə və dostluq əlaqələrinə, biopsixososial inkişafına təsir edə biləcək müxtəlif problemlərlə qarşılaşa bilərlər. 44 günlük vətən müharibəsindən sonra azad olunmuş ərazilərdə yeni yaradılacaq məktəblərdə müəllim və psixoloqlarla birlikdə sosial işçilər də fəaliyyətə başlamalıdır. Sosial iş tibb, psixiatriya, cinayətkarlıq, qocalıq, əlillik, yoxsulluq, təhsil, ailə və uşaq rifahı kimi müxtəlif və geniş tətbiq sahəsinə malikdir. Məktəb sosial işi, sosial iş elminin xüsusi bir tətbiq sahəsidir və şagirdin məktəb performansına və məktəb şəraitində uğurlarına təsir edən biopsixsosial faktorlara diqqət yetirir.

Post-müharibə dövründə Qarabağda məskunlaşacaq ailələrin uşaqları müxtəlif bölgələrdən, müxtəlif həyat şəraitindən gəlmiş şagirdlər olacaqdır. Bu şagirdlərin bir çox fərqli problemləri ola bilər. Məktəblərdə bu problemlərlə peşəkar səviyyədə məşğul olmalı olan sosial işçilərin fəaliyyətinə ehtiyac var. Qarabağda yaradılacaq məktəblərdə fəaliyyət göstərən sosial işçilərin vəzifələri bunlar olmalıdır:

- Risk altında olan şagird və valideynlərə professional dəstək vermək
- Şagirdləri və ailələri gücləndirmək
- Məktəblə ailə arasında əlaqələri və əməkdaşlığı gücləndirmək
- Valideynlərin uşaqlarının ehtiyaclarını və inkişafını anlamağa kömək etmək
- Şagirdlərin və valideynlərin yeni həyat şəraitinə uyğunlaşmasına dəstək vermək.

- Şagirdlərin yeni həyat şəraitinə uyğunlaşmaları haqqında müəllimlərini məlumatlandırmaq

Məktəb sosial işçisi həm şagirdlər, həm valideynlər, həm də müəllimlərlə işləməlidir. O ana-atalarla işləyərək onların valideynlik vəzifələrinin düzgün yerinə yetirilməsinə dəstək verir. Uşaqlarla və ailələri ilə işləməkdə məqsəd şagirdin məktəbə müntəzəm getməsini təmin etmək, akademik uğursuzluq riskini azaltmaq və bəzi səbəblərdən erkən dövrdə təhsilini dayandırmasının qarşısını almaqdır. Bununla yanaşı Qarabağda yaranacaq yeni məktəblərdə çalışmalı olan sosial işçilər şagird, valideyn və müəllimlərin post-müharibə dövründə qarşılaşacağı problemlərə də hazırlıqlı olmalıdır.

Bütün bu faktorlar nəzərə alındıqda deyə bilərik ki, Qarabağda yaradılacaq məktəblərdə təlim və təhsilin keyfiyyətinin artırılması, eyni zamanda şagird, valideyn və müəllimlərin sosial adaptasiyasını gücləndirmək üçün məktəb sosial işçilərinə ehtiyac yaranacaq.

## ƏDƏBİYYAT

1. “School social work”-Leticia Villareal Sosa, Torry Cox, Michelle Alvarez. Oxford University Press, 2017.
2. “Okul sosyal hizmeti”-Dr.Taner Artan. İstanbul Üniversitesi, 2010

# HƏRBİ SİSTEMDƏ SOSİAL İŞ, ONUN TARİXİ İNKİŞAFI VƏ MÜXTƏLİF YANAŞMALAR

**Quliyev Nurlan**
**BDU Qazax filialı, Sosial iş, IV kurs**
**nurlanquliyev200@gmail.com**

Sosial iş bir fəaliyyət sahəsi kimi insanların problemlərini, çətinliklərini müəyyən etmək və onlara bu prosesdə dəstək göstərilməsini hədəfləyir. İnsan hüquqları və sosial ədalət

prinsiplərinə əsaslanan sosial iş həssas əhali qrupları arasında və həyat fəaliyyətinin müxtəlif sahələrində tətbiq olunur. Beynəlxalq Sosial İşçilər Federasiyası (IFSW, 2014) tərəfindən verilən tərifə – "Sosial iş, praktikaya əsaslanan peşə, sosial dəyişikliyi və inkişafı, sosial birliyi və insanların gücləndirilməsi, səlahiyyətləndirilməsini təşviq edən akademik bir fəaliyyətdir. Sosial ədalət, insan hüquqları, kollektiv məsuliyyət və müxtəlifliyə hörmət prinsipləri sosial işin əsasını təşkil edir. Sosial elmlər, humanitar elmlər və yerli bilik nəzəriyyələri tərəfindən dəstəklənən sosial iş, insanları və strukturları çətinliklərin həllində və rifahı artırmaq üçün səfərbər edir" baxmaqla sosial işin əhatə dairəsinin və onun predmetinin nə qədər geniş olduğunu görmək mümkündür. Sosial işin tətbiq olunduğu sahələrdən biri də hərbi sistemdir. Hərbi sistemdə sosial işə müxtəlif təriflər verilmişdir. Sosial İş Təhsili Şurasının (CSWE) verdiyi tərifə əsasən "Hərbi sistemdə sosial iş, hərbi qulluqçular, qazilər, onların ailələri və icmalarının problemlərinin həlli üçün terapevtik, reabilitasiya, profilaktik fəaliyyətlərlə bərabər vəkillik, siyasi və inzibati fəaliyyətlərin təmin edilməsindən ibarətdir". Bundan əlavə, hərbi sosial işçilər müxtəlif icmalarda müraciətçilərin və onların ailələrinin həyat keyfiyyətini yaxşılaşdırmaq məqsədilə proqramlar, siyasətlər və prosedurlar hazırlayırlar. Sosial İş Təhsili Şurasına (CSWE) görə, hərbi sistemdə sosial işin olması sosial işçilərin müharibə və ya təcavüzü dəstəklədiyi mənasına gəlməməlidir. Əksinə, burada çalışan sosial işçilərin əsas vəzifəsi müharibənin təsirlərinə məruz qalmış insanlara effektiv yardımın göstərilməsi ilə bağlıdır.

### Amerikada hərbi sistemdə sosial iş

Hərbi sistemdə sosial iş müxtəlif ölkələrdə müxtəlif vaxtlarda tətbiq olunmuşdur. Ancaq onun ilk izlərinə Amerikada rast gəlinir. Şenə görə, Amerikada hərbi sistemdə sosial iş ilk dəfə 1636-cı ildə qazilərin qayğısına Plimut

koloniyasının cavabdeh olduğu Qanunda öz əksini tapmışdır. Ancaq hərbi sistemdə sosial işçilərin ilk fəaliyyəti I Dünya Müharibəsi dövründə Amerika Ordusunda olan "Amerika Qırmızı Xaç Cəmiyyəti"ndəki (American Red Cross) mülki sosial işçilər tərəfindən həyata keçirilmişdir. O dövrdə hərbi sistemdə sosial işin olmaması və bu vəzifənin Qırmızı Xaç işçisi tərəfindən həyata keçirilməsi, hərbi sistemdə sosial işin olmasına əsas yaratmışdır. Sosial işçinin hərbi hospitallarda ilk fəaliyyəti 1918-ci ildə New Yorkdakı hərbi hospitalda həyata keçirilmişdir. Burada sosial işçinin vəzifəsi xəstəxanaya yerləşdirilən hərbi xəstələrin özü, ailəsi və ətrafı haqqında məlumat toplamaq, diaqnoz, müalicə və müalicədən sonrakı dövrdə xəstə üçün qayğıyla bağlı planın hazırlanmasında tibbi heyətə dəstək göstərməkdən ibarət olmuşdur. Ancaq sosial işçilər ilk dəfə 1945-ci ilin iyul ayında ABŞ Ordusunda zabit kimi işə götürülmüşdür.

ABŞ-da II Dünya Müharibəsindən sonra getdikcə daha da inkişaf edən hərbi sistemdə sosial iş və sosial işçilər hərbi heyət, qazilər və onların ailələrinin problemlərinin həlli, həyat keyfiyyətinin yaxşılaşdırılması kimi məsələlərdə çox böyük rol oynayırlar. Həm hərbi qurumlar, həm də qazilərlə bağlı təşkilatlar sosial işçilərin fəaliyyət göstərdiyi ən önəmli mənbələrdir. Məhz buna ən bariz nümunədir ki, ABŞ Veteranların İşləri üzrə Departament magistr dərəcəli sosial işçilərin ən böyük işəgötürənidir və hazırda bu qurumda 15.000-dən çox sosial işçi çalışır. Bu qurumda sosial işçilər 1926-cı ildən etibarən fəaliyyət göstərirlər. Sosial işçilər xidmət üzvlərinə, qazilərə və onların ailələrinə maliyyə və digər resurslara çıxış, psixi sağlamlıq, fərdi və ailə konsultasiyası, vəkillik, böhrana müdaxilə, qazilərin inteqrasiyası və müdafiəsi, müavinətlə bağlı yardım göstərir, eyni zamanda depressiya, post-travmatik stress pozğunluğu, alkoqol və narkotik asılılığı, intihara cəhd kimi problemlərin həllində xidmətlər təşkil edirlər.

**Türkiyədə silahlı qüvvələrdə sosial iş**

Türkiyədə silahlı qüvvələrdə (hərbi sistemdə) sosial iş 1970-ci illərdə mülki sosial işçilərin hərbi hospitallarda fəaliyyət göstərməsi ilə meydana gəlmişdir. Türkiyədə hərbi sistemdə sosial işin gec meydana gəlməsinin səbəblərindən biri kimi "Sosial Xidmətlər Akademiyası"nın 1961-ci ildə açılması və peşəkar sosial işçilərin 1965-ci ildə məzun olması göstərilir. Türkiyədə hərbi sistemdə sosial işçinin 1997-ci ildən zabit kimi fəaliyyət göstərdiyi qeyd olunur. Sosial işçilərin digər mütəxəssislərlə fəaliyyət göstərdiyi qurumlara "Gülhane Təhsil və Araşdırma Xəstəxanasının Sosial İş Proqramları"nı, "Qazilərin Fiziki Müalicəsi və Reabilitasiya Təhsili və Araşdırma Xəstəxanası"nı (TSQ Reabilitasiya və Qayğı Mərkəzi), "Rəhbərlik və Məsləhət Mərkəzləri"ni (RMM), "TELE-NET Telefon Məsləhət Xətti"ni, "Alo Mehmetçik Xətti"ni nümunə göstərmək olar. Türkiyədə hərbi sistemdə sosial iş fəaliyyətlərindən biri də hərbi hospitallarda qazilərlə həyata keçirilən sosial iş təcrübəsidir. Eyni zamanda "Şəhid Qohumları və Qazilər İdarəsi" şəhidlərin xatirəsini yaşatmaq, şəhid və qazilərin yaxınları üçün nəzərdə tutulmuş sosial xidmətlərin və sosial yardım tədbirlərinin icrasını əlaqələndirmək məqsədilə yaradılmışdır.

**Kanadada silahlı qüvvələrdə sosial iş**

I Dünya Müharibəsi dövründə Kanada Ordusunun əsgərlərinə ruhanilər və qoşun zabitləri tərəfindən dəstək göstərilmişdir. Kanada silahlı qüvvələrində sosial iş 60 ildən çoxdur ki mövcuddur. Onun yaranmasının çox maraqlı bir tarixi vardır. Belə ki, 1939-cu ilin ilk aylarında Stüart Sutton adlı sosial işçi Kanada əsgərlərinin mənəvi problemlər barədə məlumatlılığını artırmaq məqsədilə baş nazir W.L.Mackenzie King-ə məktub yazdı. O məktubunda ən böyük mənəvi problemin əsgərlərin ailələrindən uzaqda xidmət etmələrinə

diqqət çəkərək, onların ailə problemlərinin həlli ilə daha çox maraqlandıqlarını qeyd edirdi. O, həmçinin əsgərlərin şəxsi və ailələri ilə bağlı problemlərinin həll edilməsi, bu problemlərin həllində kömək almaq məqsədilə hansısa sosial xidmətin tətbiq olunmasını təklif edirdi. Nəhayət, 1942-ci ilin mayında Milli Müdafiə Departamenti qoşunların əhval-ruhiyyəsinə təsir edən amillərin və Kanadadakı ailələrin vəziyyətləri haqqında məlumatın toplanması və qoşunların mənəviyyatına mənfi təsir göstərən məsələlərin həll edilməsi mandatı ilə Xüsusi Xidmətlər üzrə Şöbənin yaradılmasına rəsmi icazə verdi. İkinci Dünya Müharibəsi illərində Kanadada peşəkar sosial işçi çatışmazlığı olmuşdur. Bəzi müəlliflər hesab edirlər ki, o zaman ölkədə bütövlükdə 1000-dən bir qədər çox sosial işçi olub. 1943-cü ildə sosial işçilərə Kanada Ordusunun sıralarına qoşulmaq icazəsi verildi və onlar qəbul mərkəzlərinə təyin edildilər. Sosial işçilər tibbi qiymətləndirmələr zamanı sosial və tibbi məlumatların yoxlanılması ilə yanaşı, psixopatologiyası olan insanları da müəyyən etməli idilər. Onlar psixi sağlamlıq və kriminal yoxlamalar əsasında kimin hərbi xidmətə yararsız hesab ediləcəyinə qərar verməkdə mühüm rol oynamışdırlar. Müasir dövrdə Sosial İş Zabitləri Kanada Silahlı Qüvvələrinin üzvlərinin və onların ailələrinin psixi sağlamlığının qorunmasına mənəvi dəstək olaraq hərbi şəraitdə peşəkar sosial iş xidmətləri göstərir. Sosial İş Zabitləri daha çox klinik sosial iş xidmətləri təklif edirlər.

**Azərbaycanda vəziyyət**

Azərbaycanda sosial iş təhsili ilk dəfə magistr səviyyəsində 2005-ci ildə Bakı Dövlət Universitetində tədris olunmağa başlanmışdır. Sosial iş Azərbaycanda yeni peşə olduğundan onun bir qolu olan hərbi sistemdə sosial iş kifayət qədər inkişaf etməmişdir. Müasir dövrdə hərbi sistemdə sosial işin olması travma, özünü cəmiyyətdən təcridetmə, psixi sağlamlıq, intihar kimi mürəkkəb problemlərin həllində olduqca mühüm əhəmiyyət kəsb edir. Hərbi sistemdə sosial

işin tətbiq olunduğu həssas qruplar arasında qazilər xüsusi yer tutur. Müharibə iştirakçısı olan bu şəxslərin hər birinin özünəməxsus hadisələrlə qarşılaşdıqlarını nəzərə alsaq, o zaman bu insanlara tibbi, psixoloji, sosial və mənəvi xidmətlərin göstərilməsi zəruridir. Qazilərlə çalışan sosial işçilərin əsas məqsədi bu şəxslərin tibbi, psixoloji, sosial, mənəvi ehtiyaclarını qarşılamaq, müharibədən sonra yarana biləcək post-travmatik pozğunluqları, depressiyanı, maddə aludəçiliyini, zorakılıq və intihar meyllərini aradan qaldırmaq, onların mülki həyata, ailəsinə və cəmiyyətə uyğunlaşmasını təmin etməkdən ibarətdir. Bu şəxslər ən ağır travmaları yaşamış, dostlarının, yoldaşlarının ölümünə şahidlik etmişlər. Qazilərlə sosial iş təkcə qazi olan şəxslə deyil, eyni zamanda onun ailə üzvləri ilə də aparılmalıdır. Bu zaman şəxsin ailəyə, ailənin isə qaziyə uyğunlaşdırılması prosesi həyata keçirilir. Qazilərə diqqətin daha da artırılması, onların sosial problemlərinin vaxtında aşkarlanması və mütəmadi olaraq psixososial yardımın həyata keçirilməsi məqsədilə ABŞ və Türkiyədə olduğu kimi Azərbaycanda da “Qazilər günü”nün təsis olunması məqsədəuyğundur.

Sosial işin tətbiq olunduğu digər sahə isə hərbçilər və onların ailə üzvləridir. Hərbçinin peşə həyatı əsnasında qarşılaşdığı hadisələr birbaşa və ya dolayı yolla onun ailəsinə də təsir göstərir. Buna görə də hərbçi ailələri digər ailələrdən fərqlənir. Hərbçi ailəsi dedikdə, hərbçi xanımı və hərbçi övladı olmaq nəzərdə tutulur. Bu tip ailələrdə atanın uzun müddət ailədən uzaqda olması uşaqlara daha çox təsir göstərir. Belə ki, bu uşaqlarda emosional və davranış problemləri, atanı itirmək qorxusu və bu kimi digər hallar özünü göstərir.

Müstəqilliyimiz və ərazi bütövlüyümüz uğrunda canından keçən şəhidlərimizin ailə üzvlərinə psixososial yardımın göstərilməsi vacibdir. Övlad, qardaş, həyat yoldaşı itkisinin yaratdığı travmanı aradan qaldırmaq məqsədilə sosial işçilər bu ailələrlə görüşüb ilkin qiymətləndirməni aparmalı,

problemlərinin həlli istiqamətində müəyyən addımlar atılmalı, ehtiyac yaranarsa psixoloq və psixiatr yardımından da istifadə edilməlidir.

Ümumiyyətlə, son 30 ildə iki müharibə yaşamış bir xalq olaraq Azərbaycanda hərbi sistemdə çalışan sosial işçi kadrların hazırlanması və "Hərbi sistemdə sosial iş"in bir fənn kimi tədris olunması məqsədəuyğundur.

## ƏDƏBİYYAT


1. Fatih Şahin, Hakan "Sakarya silahli kuvvetlerde sosyal hizmetin tarihi, gelişimi ve işlevler".
2. Bülent ŞEN "Silahli kuvvetlerde sosyal hizmetin önemi".
3. Mehmet Başcillar "orduda sosyal hizmet: terör gazilerinin ve aile üyelerinin yaşam deneyimleri, sorunlari ve gereksinimleri".
4. Dave Blackburn "Social Work in the Military ~ Considering a Renewed Scope of Practice".
5. Council on Social Work Education "SPECIALIZED PRACTICE CURRICULAR GUIDE for MILITARY SOCIAL WORK".
6. https://www.ifsw.org/what-is-social-work/global-definition-of-social-work/
7. https://socialworklicensemap.com/social-work-careers/military-social-worker/
8. https://www.socialworkers.org/Practice/Military-Veterans/Social-Work-in-the-Armed-Forces
9. https://forces.ca/en/career/social-work-officer/

# DÖVLƏTİN SOSİAL YARDIM SAHƏSİNDƏ SOSİAL SYASƏTİ

**Rəcəbəli Əliyev**
Sosioloji tədqiqatlar laboratoriyası, Bakı Dövlət Universiteti, baş elmi işçi, fəlsəfə üzrə fəlsəfə doktoru

Azərbaycanın sosial sistemi, onun formalaşmasının əsasını təşkil edən prinsiplər Azərbaycanda sosial sferanın yaranmasından əvvəlki vəziyyətlə bağlıdır. 90-cı illərin ikinci yarısında, Azərbaycan Prezidenti, Ümummilli lider Heydər Əliyevin səyləri nəticəsində ictimai-siyasi vəziyyəti normaya qaytarmaq mümkün oldu, iqtisadiyyatda dəyişikliklər başladı və nəticədə köklü modernləşmə və mahiyyət etibarilə müəyyən spesifik xüsusiyyətlərin müasir təcrübəyə üzvi şəkildə daxil edilə biləcək sosial sistemin yeni milli modelinin yaradılması məsələsi ortaya çıxdı.

İqtisadiyyatın bərbad vəziyyətdə olduğu və demək olar ki, ilk addımları atan neft strategiyası şəraitində sosial sistemin bu mütərəqqi modelinin yaradılması o dövrdə cəsarətli addım idi ki, bu da ilk növbədə Azərbaycanın gələcəyinə inamla baxan Heydər Əliyevin nikbinliyinə söykənirdi. Ümummilli lider onun ölkəsi və ən iddialı sosial layihələrin reallaşacağı zamanın gələcəyinə inanırdı. Ancaq bundan əvvəl belə bir sistemin səmərəli işləməsi üçün bir neçə başqa problemi həll etmək lazım idi. Birincisi, özünü maliyyələşdirən sığorta pensiya modelinin yaradılması məqsədilə pensiya təminatı mexanizminin müasirləşdirilməsidir. Bu gün ölkədə məcburi sosial sığorta haqlarının yığılması, pensiyaların təyin edilməsi və ödənilməsi üzrə vahid orqan fəaliyyət göstərir. Əmək pensiyaları haqqında yeni qanun, həmçinin sığortaolunanların fərdi uçotunun avtomatlaşdırılmış sistemi fəaliyyət göstərir.

İkinci problem səhiyyə və təhsil sektorlarında islahatların aparılması idi. Dövlət bu sahələrdəki obyektlərin özəlləşdirilməsinə razılıq verməsə də, eyni zamanda yeni özəl

məktəblərin, klinikaların, universitetlərin və s. formalaşması həyata keçirilirdi. Nəticədə əhalinin yoxsul təbəqəsinin pulsuz dərman və təhsilə çıxışını təmin etmək, eyni zamanda, bu sahələrdə rəqabətqabiliyyətli bazar yaratmaq mümkün olmuşdur.

Nəhayət, ən mühüm vəzifə vətəndaşların real gəlirlərinin artırılması olmuşdur. Makroiqtisadi islahatların davam edən yenidənqurmaların mənfi nəticələrinin minimuma endirilməsi tədbirləri ilə birgə həyata keçirilməsi sayəsində ölkəni ifrat sosial sarsıntılar olmadan indiki inkişaf mərhələsinə çatdırmaq mümkün olmuşdur. Beynəlxalq Valyuta Fondunun və Dünya Bankının tövsiyələrinə baxmayaraq, hökumət "şok terapiyasına" getmədi, ölkə tədricən bazar konyukturasına rahat keçidə nail oldu. Nəticədə, 1995-2003 -cü illərdə Azərbaycanın ÜDM -i 90%, orta aylıq əmək haqqı 6 dəfə, pensiyalar 8 dəfə artdı. Və son illərdə ölkənin sosial-iqtisadi inkişaf templəri bütün rekordları vurur.

Regionlar sürətlə inkişaf edir, buna görə də kəndlərdən şəhərlərə miqrasiya nəzərəçarpacaq dərəcədə azalıb. Bütün bunlar Qarabağ münaqişəsi nəticəsində yaranan milyonlarla qaçqın və məcburi köçkün ordusunun problemlərinin ağır yükü fonunda baş verdi.

Məlumdur ki, şəhid ailələrinə, müharibə əlillərinə dəstək tədbirlərindən bəhs edərkən, ilk növbədə, cənab Prezidentin xüsusi diqqət və qayğıkeşliyi ilə onların mənzil və fərdi evlə təminatının geniş vüsət aldığını vurğulamaq istərdim. Bunu son illərin timsalında da aydın görmək olar: 2018-ci ildə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən onlara 626, 2019-cu ildə bundan 50 faiz çox olmaqla 934, 2020-ci ildə isə 1572 mənzil və fərdi ev verilib [1]. Bütövlükdə şəhid ailələrinin və müharibə iştirakçılarının sosial təminatının gücləndirilməsi dövlət siyasətinin prioritetlərindəndir.

Bildiyimiz kimi, şəhid ailələrinə və Vətən müharibəsi iştirakçılarına dövlət qayğısının ən bariz örnəyi Azərbaycan

Respublikası Prezidentinin 2020-ci il 8 dekabr tarixli Fərmanı ilə “YAŞAT” Fondunun yaradılması olub. Belə ki, “YAŞAT” Fondu bu istiqamətdə dövlətin institusional təşəbbüsü olaraq öz fəaliyyətində humanitar missiyanı ehtiva edir [3].

## ƏDƏBİYYAT


1. Postmüharibə dövrü: çevik sosial dəstək tədbirləri geniş miqyas alır // https://www.sosial.gov.az/post_441406
2. Postmüharibə dövrü: çevik sosial dəstək tədbirləri geniş miqyas alır // https://www.sosial.gov.az/post_441406
3. Şəhid ailələrinin və müharibə iştirakçılarının sosial təminatının gücləndirilməsi dövlət siyasətinin prioritetlərindəndir// https://heydaraliyevcenters.az/tartar/news/17683


# MÜHARİBƏDƏN SONRA TƏHSİLİN TƏŞKİLİ XÜSUSİYYƏTLƏRİ


**Rzayeva Ülkər Cəmil qızı**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin müəllimi**
**hesen84@mail.ru**


Təhsil insan inkişafının ən mühüm tərkib hissələrindən biridir. İnsan inkişafı baxımından təhsil prosesi insanın imkanlarını əhəmiyyətli dərəcədə genişləndirir. “İşğaldan azad edilən Azərbaycan ərazilərində təhsilin inkişafı ilə bağlı tədbirlər xüsusi əhəmiyyət kəsb edir[1]. İşğaldan azad edilmiş ərazilərin quruculuğunda təhsil müəssisələrinin tikintisi, bərpası və tədrisin təşkili vacib amildir. Çünki təhsil insanların həmin ərazilərdə sürətlə məskunlaşmasına, eyni zamanda xidməti vəzifələrini yerinə yetirən əməkdaşların övladlarının təhsil almaq şəraitinin yaxşılaşdırılması üçün vacibdir[2]. Azərbaycan xalqı hazırda tarixi ədalətin bərqərar olduğu və

xalqımızın qürur mənbəyinin güclәndiyi, millətin və dövlətin bir yumruq kimi birləşdiyi bir dövrdə yaşayır. Bu dövrdə Azərbaycanımızın qüdrətini, gücünü daha da artırmaq, milli sərvətlərindən səmərəli istifadə etmək, yeni reallıqlar formalaşdırmaq və inkişaf etdirmək vacib şərtlərdəndir[3].

Hal–hazırda işğaldan azad edilən ərazilərimizdə sürətlə və yüksək səviyyədə həyat şəraiti yaradılır[4].

Ermənistanın Azərbaycana qarşı davam edən silahlı təcavüzü nəticəsində işğal olunmuş ərazilərimizdə 1107 ümumtəhsil müəssisəsi və 855 uşaq bağçası tamamilə məhv edilib.

**Ümumtəhsil müəssisəsinin** yenidən qurulması müəyyən zaman aparsa da, dövlətimizin mövcud iqtisadi siyasəti bunun real olmasını mümkün edəcək.

Həmin ərazilərdə yeni qurulacaq təhsil müəssisələrində müasir texnologiyaların tətbiqi, yeni və müasir bir sistemin qurulması vacibdir.

Rayonların təhsil şöbələrinin, eləcə də bu rayonlardakı orta məktəblərin köçkün məktəbi statusunda fəaliyyət göstərməsi prosesin idarəolunmasında müsbət rol oynayacaq. Rayon mərkəzlərində və Şuşada müasir təmayül tipli məktəblər, digər yaşayış yerlərində isə əhalinin sayına mütənasib olaraq modul tipli məktəblər qurulmalıdır. İşğaldan azad olunan ərazilərdə yeni orta məktəb və baxçaların, həmçinin ali təhsil, peşə təhsil müəssisələrinin, kolleclərinin yaradılmasına, bərpa edilməsinə ehtiyac var[5].

"Hal-hazırda ərazilərin yenidən qurulması planı hazırlanır. Plana əsasən təhsil infrastrukturu, onun böyüklüyü komplektləşdirilməlidir. İşğaldan azad olunan ərazilər tarix boyunca Azərbaycan elminə və incəsənətinə böyük dəyərlər qazandırıb. Bu məktəblərdən minlərlə dünya şöhrətli elm və incəsənət xadimi məzun olub. Yeni qurulacaq məktəblər o tarixi ənənələr üzərinə köklənməli və əvvəlki şöhrətlərini bərpa etməlidir. Şəhidlərimizin canı və tökülən qanlar hesabına azad

edilən torpaqlarda şagirdlərin vətənpərvərlik ruhunun daha da yüksək olacağı şübhəsizdir"[6].

Qarabağın sosial-iqtisadi inkişaf perspektivləri ilə bağlı vahid strategiyaya ehtiyac var. Bu strategiyada bölgədə təhsil sisteminin inkişafı həlledici rol almalıdır. Təkliflərdən biri ondan ibarətdir ki, Qarabağda pedoqoji kadrlar, inşaat mühəndisləri yetişdirəcək çoxsahəli bir universitet yaratmağa ehtiyac var. Qarabağda təkcə ali təhsil deyil, həm də peşə təhsilini inkişaf etdirmək vacibdir. Texniki məktəblərdə və kolleclərdə kənd təsərrüfatı, inşaat və iqtisadi peşələrə tələbat olacaq. Bu da bir faktdır ki, Qarabağdan olan professorlar, elmlər doktorları çoxdur və onlar bölgələrə köçəcəyi təqdirdə orada dərs deyəcək, elmi işlərlə məşğul olacaq. Ümumiyyətlə, ziyalılar bu fikirdədir ki, azad edilmiş ərazilərin bərpası zamanı təhsil sektorunda bir çox işlər görülməlidir. Məsələn, məktəblər, liseylər, gimnaziyalar tikmək lazım gələcək. Bu gün paytaxtda bir neçə universitet şəhərin mərkəzində, bir-birinin yanında yerləşir, nəinki həmin ərazidə, ictimai nəqliyyatda tələbə sıxlığı müşahidə edilir. Bölgələrdə, o cümlədən Qarabağda şəhərcikləri olan universitetlər tikmək lazımdır ki, tələbələr orada həm oxusunlar, həm də yaşasınlar [7].

Qarabağda təhsilin inkişafı istiqamətində bir çox addımların atılmasına ehtiyac var. Yeni təhsil müəssisələri əhalinin işlə təmin edilməsinə, eyni zamanda həmin ərazilərin iqtisadi inkişafına təsir edəcək. Təhsil orada həm müdafiədir, həm ixtisaslı kadrdır, eyni zamanda məskunlaşmağa təsir edən birbaşa amildir. Artıq bu gün tamamilə əminliklə deyə bilərik ki, Azərbaycan öz torpaqlarının işğaldan azad olunmasında olduğu kimi həmin ərazilərin dirçəldilməsində də qətiyyətli mövqedədir. İşğal nəticəsində köçürülmüş təhsil ocaqları öz yurdlarına qayıdaraq ölkəmizin dayanıqlı inkişafının davamlılığı uğrunda parlaq gələcəyi yetişdirməyə davam edəcək[8].

Təhsil orada həm müdafiədir, həm ixtisaslı kadrdır, eyni zamanda məskunlaşmağa təsir edən birbaşa amildir. işğaldan azad edilmiş ərazilərdə təhsil tamamilə yeni formatda qurulmalıdır[9].

İşğaldan azad olunmuş ərazilərdə ali təhsil müəssisələrinin açılması zəruridir. Bu təhsil müəssisələri regionda ixtisaslı, savadlı kadrların sayının daha da çox olmasına, gələcəkdə həmin ərazinin müdafiəsinin daha rahat həyata keçirilməsinə gətirib çıxarır[10].

Təhsilin sayəsində nəinki elmi biliklər və sosial qaydalar toplanaraq gənc nəsillərə ötürülür, həm də bütün cəmiyyətin və dövlətin intellektual potensialı formalaşır.

**ƏDƏBİYYAT**


1. https://report.az/elm-ve-tehsil-xeberleri/isgaldan-azad-olunan-erazilerde-tehsille-bagli-gorulecek-isler-aciqlandi/
2. https://karvannews.com/az/news/158384/qarabagda-tehsilin-berpasi-ucun-ne-etmeli-tehsil-ekspertinden-teklif
3. https://geostrategiya.az/news.php?id=187
4. https://aia.az/52737-postmuharib-dovru-v-yeni-reallqlar.html
5. https://teref.az/gundem/171409-qarabagda-mutleq-universitetler-de-acilmalidir-ekspert.html
6. https://azedu.az/az/news/37368-isgaldan-azad-edilmis-erazilerimizde-tehsil-infrastrukturunun-qurulmasi-ile-bagli-teklifler
7. https://afn.az/vacib/101997-qarabada-thsilin-inkiaf-strategiyas-.html
8. https://afn.az/vacib/101997-qarabada-thsilin-inkiaf-strategiyas-.html
9. https://teref.az/gundem/171409-qarabagda-mutleq-universitetler-de-acilmalidir-ekspert.html

10. https://teref.az/gundem/171409-qarabagda-mutleq-universitetler-de-acilmalidir-ekspert.html


# REİNTEQRASİYA PROSESİNDƏ SOSİAL İŞÇİNİN ROLU

**Şabanov Zeynəddin Müsənnif oğlu**
Azərbaycan Əmək və Sosial Münasibətlər
Akademiyası (Bakı, Azərbaycan)

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında işğaldan azad olunmuş ərazilərdə yeni-yeni ağıllı kəndlər, şəhərlər salınır, infrastruktur bərpa edilir, yollar çəkilir, məscidlər inşa edilir, mədəniyyət evləri və yaşayış binaları tikilir. Dövlətin təminatı altında öz doğma elindən didərgin düşmüş əhalinin arzusunda olduqları kənd və şəhərlərinə qayıdıb yüksək rifah şəraitində yaşaması üçün bütün zəruri tədbirlər həyata keçirilir.

Postmüharibə dövrünün əsas tədbirlərindən biri də sosial dəstək proqramlarının həyata keçirilməsidir. Belə ki, ölkəmizdə şəhidlərin ailə üzvləri, qazilər, müharibə əlilləri, erməni terrorundan zərər çəkənlər, onların yaxınları ilə bağlı sosial dəstək tədbirləri müntəzəm olaraq həyata keçirilir. Bu tədbirlər postmüharibə dövründə artıq 21 mindən çox şəxsi əhatə edib. 2901 şəhidin 7326 ailə üzvünə 13598 sosial ödəniş (Prezidentin aylıq təqaüdü, pensiya və müavinət) təyinatı aparılıb. Həmçinin 93 mülki şəhidin 206 ailə üzvünə sosial ödənişlər təyin olunub. 416 qaziyə əlillik və bununla əlaqədar Prezidentin aylıq təqaüdü, əlilliyə görə pensiya və ya müavinət təyin edilib. Eyni zamanda, 3 minədək ailə sosial-psixoloji dəstəklə əhatə olunub. Reabilitasiya müəssisələrində yüzlərlə qaziyə reabilitasiya xidmətləri göstərilib. 17 hərbçi yüksək texnologiyalı müasir protezlə təmin edilib, 650 qaziyə 4500 reabilitasiya vasitəsi verilib.Qeyd olunan kateqoriyalara aid şəxslərin məşğulluq

məsələlərinin həlli də diqqətdə saxlanır. Onlardan 6 min şəxsin məşğulluğuna dəstək verilib, o cümlədən 4667 nəfər özünüməşğulluq proqramına cəlb olunub,7200 müharibə əlilinə minik avtomobili verilib. Şəhid ailələrinə, müharibə əlillərinə dəstək tədbirlərindən bəhs edərkən, ilk növbədə, cənab Prezidentin xüsusi diqqət və qayğıkeşliyi ilə onların mənzil və fərdi evlə təminatının geniş vüsət aldığını vurğulamaq lazımdır. Bunu son illərin timsalında da aydın görmək olar: 2018-ci ildə onlara 626, 2019-cu ildə bundan 50 faiz çox olmaqla 934, 2020-ci ildə isə 1572 mənzil və fərdi ev verilib və bu proses davam edir. Ümumilikdə, Prezident İlham Əliyevin 25 yanvar 2021-ci il tarixli sərəncamı ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yaxın 5 ildə - 2014-2019-cu illərdə uçota alınmış şəxslərə və 2020-ci ildə hərbi əməliyyatlar, o cümlədən Vətən müharibəsi zamanı şəhid olanların ailələri və əlillərinə mərhələli şəkildə 11 min mənzil və fərdi ev təqdim edəcək.

Beləliklə, şəhid ailələrinə, müharibə əlillərinə əgər 1997-2020-ci illərdə 9200 mənzil və fərdi ev verilibsə, cənab Prezidentin xüsusi qayğıkeşliyi nəticəsində yaxın 5 ildə onlara daha 11 min mənzil və fərdi ev veriləcək. Bununla mənzil və fərdi evlə təmin olunanların sayı 2025-ci ilin sonuna 20 mini ötəcək. Artıq 2021-ci ilin planı üzrə 100 mənzil şəhid ailələri və müharibə əlillərinə verilib və il ərzində bu tədbirlər ardıcıllıqla davam edəcək.

Qarşıda duran əsas məsələ Azərbaycanın tarixi qələbəsinin nəticələrinin möhkəmləndirilməsi və əbədiləşdirilməsi üçün işğaldan azad olunan Qarabağ bölgəsində əhalinin dayanıqlı məskunlaşmasını təmin etmək və həmin ərazilərin cəmiyyətin ən sağlam, müasir və abad yaşayış mühitinə çevrilməsi üçün müasir prinsiplərə əsaslanan komfortlu yaşayış mühitinin yaradılmasıdır. Artıq bərpa-quruculuq prosesinə diqqətlə koordinasiya olunan tərzdə, vahid mərkəzdən idarə edilərək başlanılıb.

Əhalinin öz doğma el-obasına qayıdışı prosesinə artıq start verilib. Belə ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Zəngilana son səfəri zamanı bəyan etdi ki, bu ilin sonuna, gələn ilin əvvəlinə artıq zəngilanlıların öz torpaqlarına qayıdışı başlayacaq. Bu prosesin daha rəvan həyata keçirilməsində sosial işçilərin üzərinə də mühüm vəzifə düşür. Belə ki, sosial işçinin əsas vəzifəsi yardıma ehtiyacı olan şəxsə kömək göstərmək, onun hüquq və maraqlarını müdafiə etmək, son nəticədə şəxsin müstəqil fəaliyyət göstərmək qabiliyyətini təmin etməkdir.

Sosial işçilər öz peşələrini işğaldan azad olunmuş ərazilərdə icmaların inkişafı, uşaq və ailə firavanlığı, uşaqların müdafiəsi, gənclərlə iş, əlilliyi olan şəxslərlə iş, səhiyyə, təhsil, məşğulluğun təmin edilməsi, sosial siyasətin yaradılması və inkişafı kimi sahələrdə icra edə bilərlər. Sosial işçi reinteqrasiya prosesində bir sıra zəruri etik prinsiplərə də əməl etməlidir: -fərdi münasibət; -dürüstlük; -paternalizm və öz müqəddəratını təyin etmə; -qanunların və qaydaların gözlənilməsi; -qanun və qaydalara düzgün əməl edilmədikdə biganə yanaşmamaq; -vacib informasiyaların paylanması;-şəxsi və peşə dəyərlərinin qorunması;-etik qərar vermə;- təmənna gözləməmək.

Reinteqrasiya proseslərinə sosial işçilərin cəlb olunması ona görə lazımdır ki, onların keçdikləri təlimlər və sahib olduqları peşə fəaliyyətləri sayəsində birbaşa ünsiyyətdə olduqları şəxslər ilə münasibətləri daim tarazlıqda saxlaya bilirlər. Sosial işçilər eyni mühitdə bir neçə fərqli funksiya yerinə yetirə bilərlər. Bu funksiyaları qısaca belə izah edə bilərik: klinik funksiya – bu funksiya özündə birbaşa şəxslə əlaqəli bir neçə komponenti birləşdirir; psixososial qiymətləndirmə - şəxs və onun mühiti ilə bağlı tələb və ehtiyacların müəyyən edilməsi; şəxslə əlaqəli müxtəlif sistemlər arasında qarşılıqlı əlaqənin təhlili (ailə, sosial şəbəkələr və s.); vəziyyətin şəxsin özünə və ailəsinə təsirinin

qiymətləndirilməsi, habelə şəxsin buna adaptasiya bacarığı; şəxsin psixososial problemlərini müəyyənləşdirən detallı peşəkar rəyin hazırlanması; fərdi müdaxilə planının hazırlanması; psixososial müalicə - fərdlər, cütlüklər, ailə və ya qruplarla konsultasiyalar keçirərək, onların qabiliyyətlərini hərəkətə keçirmək; müxtəlif qanunlarda nəzərdə tutulmuş sosial müdafiə tədbirlərinin gücləndirilməsi; şəxs öz hüquq və azadlıqlarını həyata keçirməyə çalışarkən ona dəstək olmaq və nəzarətdə saxlamaq.

Reinteqrasiya prosesində sosial işçinin öhdəliklərinə aşağıdakı misal gətirmək olar: sosial işçi ilk növbədə el-obasına, evinə dönən şəxsin rifahını önə çəkməli və onun maraqlarını müdafiə etməlidir; öz müqəddəratını təyin etməyə-sosial işçi insanların həyat tərzi və dəyərlərindən asılı olmayaraq seçim etmək və qərar vermək hüququna hörmətlə yanaşmalıdır; informasiyanın alınmasına əsaslanan yanaşma – işə başlamamışdan əvvəl sosial işçi insanlara onun həyat situasiyası ilə bağlı hərtərəfli və dolğun məlumat verməlidir; maraqların toqquşması – sosial işçilər ədalətli mühakimə və peşəkarlığa mane olan maraqların toqquşmasından qaçmalıdır. Maraqların real və potensial münaqişəsi yarandıqda, sosial işçilər bu haqqda insanlara məlumat verməli, insanların maraqlarını müdafiə edən rasional addımlar atmalıdırlar; xidmətlər üçün ödəniş – ödəniş təyin edərkən sosial işçilərin ödənişin əsaslı, ədalətli və həyata keçirilən xidmətlərə uyğunluğuna əmin olmalıdır; sosial işçilər peşəkar xidmətin ödənişi müqabilində əhalidən xidmət və ya əmtəə almaqdan çəkinməlidirlər;– qərar qəbul etmək bacarığı məhdud olan şəxsin adından çıxış edən sosial işçilər onun hüquqlarını və maraqlarını müdafiə etmək üçün əsaslı addımlar atmalıdır.

Reinteqrasiya prosesndə sosial işçilər bunları edə bilərlər:-azad olunmuş torpaqlara geri dönən ailələrlə işləmək;-daha çox həyat keyfiyyətinə diqqətin yönəldilməsi; -güclü perspektivlərin müəyyən edilib, qəbul edilməsi; -qarşıda duran

vəzifələr ilə bağlı əhalinin maarifləndirilməsi;-ünsiyyət yaratmaqla bağlı təşviq xarakterli söhbətlərin aparılması;- qeyri-verbal ünsiyyət bacarıqlarının inkişaf etdirilməsi; - müxtəlif fəaliyyət planlarının əvvəlcədən planlaşdırılması.

Reinteqrasiya prosesində sosial işçi hər bir şəxsin şətəf və ləyaqətinə, şəxsiyyətinə hörmətlə yanaşmalı, fiziki, psixoloji, mənəvi və ruhi vəhdətini, rifahını dəstəkləməli və müdafiə etməli və hmanist olmalıdır. Sosial işçi cəmiyyətdə insanlara qarşı törədilən ədalətsizlik uğrunda mübarizə aparmaq öhdəliyini daşıyır, belə ki, onların insanlara qarşı məsuliyyətləri və öhdəlikləri mövcuddur. Geriyə dönən əhalinin yerli şəraitə, mövcud vəziyyətə tez adaptasiya olunması üçün geniş maarifləndirmə işlərinin aparılması zəruridir. Bu maarifləndirmə işinə kütləvi-informasiya vasitələri, qeyri-hökumət təşkilatları, könüllülər, fədakar şəxslər, ziyalılar və vətəndaş cəmiyyəti institutlarının nümayəndələri cəlb olunmaqla sosial işçinin fəaliyyətini müəyyən qədər yüngülləşdirmək olar.

**İstifadə olunmuş ədəbiyyat**


1. https://www.sosial.gov.az/post_452016. 16-05-2021
2. Şəfiyev Ü. Azərbaycanda sosial iş və sosial siyasət. Bakı, "Elm və təhsil", 2018
3. https://gree-conditions.ru/az/socialnyi-rabotnik-funkcii-i-obyazannosti-socialnyi-rabotnik-dolzhnostnaya/
4. https://www.alz.org/help-support/caregiving/coronavirus-(covid-19)-tips-for-dementia-care
5. http://lib.bbu.edu.az/read.php?item_type=lecture&file_type=pdf&file=317

# MÜHARİBƏDƏN SONRAKI DÖVRDƏ MƏNƏVİ MƏDƏNİYYƏTDƏ MİLLİ ƏNƏNƏLƏRİN DİRÇƏLDİLMƏSİ

**Musayeva Vüsalə Kərəm qızı**
**BDU-nun Fəlsəfə tarixi və mədəniyyətşünaslıq kafedrasının dissertantı**
**E-mail: vusala.musayeva@gmail.com**

XX əsrin 20-50-ci illərində Azərbaycanda mənəvi həyatda baş verən proseslər sırasında bir sıra yeniliklər, o cümlədən incəsənətdə yeni janrların formalaşması, həmin janrlarda xalq yaradıcılığından qaynaqlanması, bununla da ictimai şüurda yeni çalarlar və ifadə tərzlərinin formalaşması müşahidə olunur. Bunu incəsənətin bütün sahələrində, o cümlədən musiqidə, boyakarlıqda, təsviri sənətin digər nümunələrində, memarlıqda, tətbiqi sənətdə, heykəltaraşlıqda, daha sonra ədəbiyyatda görmək olar.

Zənnimizcə, tədqiq olunan dövrdə dəyişiklikllər daha çox sosial – siyasi və təbii təfəkkürdə öz ifadəsini tapmışlar. İlk növbədə qeyd etməliyik ki, musiqi mədəniyyətin yeni müstəvidə inkişafına təkan verən janr və formada, ideoloji əsaslandırmada baş verən dəyişikliklər olmuşdur. Əhəmiyyətli istiqamətlərindən biri – tamaşa və pyeslərə yazılan musiqinin inkişafı idi. Burada qədim xalq sənətinin qaynaqlarında irəli gələn ənənələrinnə də müraciətlər olmuşdur (toy və bayram mərasimləri, ailə - məişət adətləri və s.). musiqi teatr sənətinin elementlərini biz həm də aşıq yaradıcılığında görmüş oluruq.

Bütün bu qeyd edilən xüsusiyyətlər öz ifadəsini inkişaf etməkdə olan musiqi sənətində, ilk növbədə opera, balet, musiqili komediya, dram tamaşalarında öz ifadələrini tapmışlar.

Dünyanın qavranılmasının ən geniş imkanlarına malik olan musiqi sənətinin inkişafında böyük addımlar atan Azərbaycan

sənətkarları demək olar ki, bu sahənin böyük zirvələrini fəth etmişlər. Tədqiq edilən dövrdə yalnız teatr səhnəsində tamaşaçıların zövqünü formalaşdıran, onların bədii təfəkkürü genişləndirən, təxəyyül və dəyərlər sistemini formalaşdıran böyük sənətkarlar qrupunu qeyd etmək olar, bunlar sırasınada H.Sarabski, M.A.Əliyev, R.Kazımov, R.Darablı, S.Ruhulla, Süxeyli, H.Şərifov, Ə.Əzimzadənin, sonradan formalaşıb püxtələşmiş İ.Hidayətzadə, K.Kazım – Ziya, M.Mərdanov, A.Qarabəyli, R.Təhmasib və R.Əfqanlının adlarını çəkmək olar [1, s.41].

Aydındır ki, Sovet dövrünü əhatə edən bu tarixi mərhələdə incəsənət ilk növbədə mövcud siyasi ideologiyaya xidmət edir, xalq kütlələri "inqilabi mübarizə" ruhunu formalaşdırır, həyatdan seçilən və səhnədə, sənət nümunələrində öz əksini tapan əsərlərdə yeni bədii formalarda onları əks etdirirdi [1, s.46].

Həmin dövrün bəzi sənət əsərləri əhaliyə, xalq kütlələrinə birbaş təsir etmək məqsədilə bir sıra imkanlardan istifadə edirdi: xalq mahnı və rəqslərdən faydalanır, şüar şəklində ifadələri işlədir, satirik səhnələr qurulur və s. [1].

Bu istiqamətdə aparılan işlərdən biri də - teatr tamaşaları üçün yazılan musiqinin inkişafında böyük irəliləyişin olması idi. Burada ilk növbədə Ə.Bədəlbəyli, A.Zeynallı, Ü.Hacıbəyovun, S.Rüstəmovun adları qeyd olunmalıdır. Məs., Ə.Bədəlbəylinin böyük xidmətlərindən biri milli folklora, xalq vokal və instrumental musiqidən faydalanması idi. Muğam tipli improvizasiyalardan da geniş istifadə olunmuşdu. Bu sahədə uğurların qazanılması həm də muğamın notlara çevirmək cəhdlərinin olması ilə bağlıdır [1, s.62-63].

Qeyd olunmalıdır ki, tədqiq edilən dövr həm də müharibə mərhələsini özünə daxil edir (Böyük Vətən müharibəsi, 1941-1945-ci illər); bu da sənətkarlar qarşısına yeni ideya vəzifələrini qoyaraq, bunun yeni bədii ifadə formalarının tapılmasını tələb edirdi. Hər bir dövrün qəhramanı olur və bu

qəhrəman obrazı neçə nəsil insanları yetişdirib formalaşdırır, bu prosesdə ilk növbədə öz təsirini göstərən amil - ictimai şüur, onun əsasını təşkil edən isə dünyagörüşüdür. Bütövlükdə insanın özünə, dünyaya münasibətin formalaşması prosesi həmin sxem əsasında həyata keçir.

**ƏDƏBİYYAT**

1. Керимова Н. Театр и музыка. Баку: Яазычы, 1982, 101 s.

2. Касимов К. Музыкальная культура Азербайджана в XII веке по произведениям Низами // «Низами Гянджеви». – Изд. АН Азерб. ССР, – Баку: –1947, – с. 123-131

## POSTMÜHARİBƏ DÖVRÜNDƏ HƏSSAS QRUPLAR ÜZRƏ SOSİAL İŞİN TƏŞKİLİ

**Köçərli Yalçın Ənvər oğlu**
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) baş müəllim*
**Köçərli Leyla Rais qızı**
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) müəllim*
**E-mail: yalcinkocharli4@gmail.com**

Sosial iş həssas qrupların sosial xidmətlərlə təminatında mühüm sahələrdən biridir. Bu gün Azərbaycanda postmüharibə dövründə sosial iş həssas qrupların bu və ya digər səbəbdən sosial-psixoloji vəziyyətini, məişətini çətinləşdirən və təkbaşına bacarmadıqları problemlərin həllində dövlət dəstəyini nəzərdə tutan sosial xidmətlərlə təminatıdır. Həssas qruplara aşağıdakılar aiddir:

- Şiddətə məruz qalanlar;
- Həyatda dəyişikliklərə məruz qalanlar;
- Fiziki və ya əqli cəhətdən əlil olanlar;

- Anadangəlmə fiziki, əqli və zehni problemlərinə görə cəmiyyət içində sağlam şəkildə yaşaya bilməyənlər;
- Sonradan qazanılmış fiziki, əqli və zehni problemlərinə görə cəmiyyət içində sağlam şəkildə yaşaya bilməyənlər;
- Şəhid ailələri və qazilər;
- Valideynlərini və ailə başçısını itirənlər;
- Cinsi fərqliliklər üzündən yaşadıqları problemlər üzündən cəmiyyət içində sağlam şəkildə yaşaya bilməyənlər;
- Yaş xüsusiyyətlərinə görə sosial proseslərini sağlam şəkildə yaşaya bilməyənlər;
- Sosial qarşılıqlı təsirdən yaranan problemləri səbəbindən cəmiyyətdə sağlam bir şəkildə yaşaya bilməyənlər;
- Sosial təzyiqlər nəticəsində ortaya çıxan sıxıntılar üzündən cəmiyyətdə sağlam şəkildə yaşaya bilməyənlər;
- Mədəni təzyiqlərdən qaynaqlanan problemlər üzündən cəmiyyətdə sağlam şəkildə yaşaya bilməyənlər;
- Azlıqlara qarşı edilən təzyiqlərdən qaynaqlanan problemlər üzündən cəmiyyətdə sağlam şəkildə yaşaya bilməyənlər;
- Şəxsi xüsusiyyətlərindəki fərqliliklər səbəbiylə ortaya çıxan problemlər üzündən cəmiyyətdə sağlam bir şəkildə yaşaya bilməyənlər;
- İnkar edilənlər, aşağılananlar, laqeyd qalanlar, istismar edilənlər;
- Özünü ifadə edə bilməyənlər;
- Hüququnu qorumaq üçün müxtəlif maneələrlə rastlaşanlar;
- Qaçqınlar və məcburi köçkünlər və s.

Həssas qruplarla işin idarə olunmasinda diqqət edilməli olan əsas məqamlara köməkçi sindromuna düşməmək və «Qurban üçbucağina» düşməməyi qeyd etmək mümkündür. Karpman Drama Üçbucağı insanlar arasında ən çox yayılmış münasibətlər nümunəsidir. Təşkilatlar da insanlardan ibarət

olduğu üçün bu oyunu yalnız 2 nəfərlik şirkətlərdə deyil, yüzlərlə işçisi olan şirkətlərdə də görmək olar. Ünsiyyət gündəlik həyatımızın əvəzolunmaz elementlərindən biri hesab edilir. Özümüzü cəmiyyətdə ifadə etmək üçün sağlam ünsiyyət xüsusilə çox vacibdir. Ünsiyyətdə istifadə etdiyimiz dili yaxşı bilmək, bir-birimizi düzgün anlamağa kömək olan və ünsiyyət keyfiyyətimizi artıran amillərdən biridir. İnsanın özünü tanıması baxımından baxdığımızda, ünsiyyətdə çox fərqli bir pəncərə açılır: "JoHari Pəncərəsi". Johari pəncərəsi insanların özlərini və başqaları ilə münasibətlərini daha yaxşı anlamalarına kömək etmək üçün hazırlanmış psixoloji vasitədir. Bu model öz-özünü dərk etmə modeli də adlanır. Johari pəncərə modeli, fərdin başqaları haqqında qavrayışını yaxşılaşdırmaq üçün istifadə olunur. Johari Pəncərəsi modeli fərdin özünü başqalarına açmağa, tanıtmağa və izah etməyə nə qədər həvəsli olması ilə bağlıdır. Bu model iki fikrə əsaslanır:

1.Haqqınızdakı məlumatları başqalarına güvənərək açıqlamaq.

2.Özünüzü başqalarının sizə qarşı olan düşüncələrinə, fikirlərinə əsasən öyrənmək.

Psixodrama insanın daxili dünyasını və onun digər insanlarla münasibətlərini rol oynayaraq araşdırır. Müştəri aktyora çevrilir və konfliktini və ya şəxsi dramını aktyorluq yolu ilə ifadə edir. Hansı psixoloji dram ola bilər? Bəzi hadisələr nəticəsində daxili dünyamızda səslənən vəziyyət.

Psixodrama psixo və sosial-terapevtik fəaliyyət metodu olaraq həyata mümkün qədər yaxın olan qrup psixoterapiyasının bir formasıdır. Psixodrama aktyorluğa əsaslanan psixoterapiya metodudur. Psixodramanın köməyi ilə insanlar öz daxili aləmlərini araşdırırlar. Bura kiçik bir teatrdır. Bir rol seçmək, probleminizi şərti kiçik səhnədə oynamaq və ondan xilas olmaq olar. Bir mütəxəssisin rəhbərliyi altında insanlar səhnədəki aktyorlar kimi həyat dramlarını canlandırmaqla ağrılı düşüncələrdən qurtulurlar, düzgün həll

yolu tapırlar. Özünün və ya başqa bir insanın roluna girərək xəstə zehni travmaları ilə işləyir, gələcəyi planlaşdırır, keçmişdə baş verən travmatik vəziyyətləri tamamlayır. Müştəri aktyora (qəhrəmana) çevrilir, konfliktini və ya şəxsi dramını oyun vasitəsi ilə ifadə edir.

Bu gün sosiodrama inkişaf etməyə və üfüqlərini genişləndirməyə davam etmişdir. Hazırda bu texnika sosial müdaxilə sahəsində də istifadə olunur. Bu sahədə məqsəd, hər cür insana özünü başqalarının yerinə qoymaq üçün kömək etmək, mədəni xarakterli problemlərlə mübarizə aparmaqdır.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT VƏ MƏNBƏLƏR


1. İstanbul Sabahattin Zaim Üniversitesi, Yrd. Doç. Dr. Mehmet Birinci, Arş. Gör. Fatih Altun ve Arş. Gör. Kaan Sevim “SOSYAL ÇALIŞMA VE YÖNETİM ARASINDAKİ İLİŞKİNİN DEĞERLENDİRİLMESİ”, səh. 221

2. Mehmet Zafer Danış “Sosyal hizmet mesleği ve disiplininde sosyal politikanin yeri ve önemi” Cilt 18, Sayı 2 Ekim 2007, səh. 273

3. Davis, V. L. ve Hagen J. L. (1992) “The Problem of Wife Abuse: The Interrelatinship of Social Policy and Social Work Practice.” Social Work, 37 (1) 146.

4. Denney, D. (1998) Social Policy and Social Work, New York, Oxford University Press.

5. Klaus Şvab “Dördüncü sənaye inqilabı” . “İqtisad Universiteti” nəşriyyatı. Bakı-2020, 200 səh.

6.WTO, ILO (2011).Making Globalization Socially Sustainable. Ed (More Bacchetta and Marion Jansen) ILO, Geneva, WTO.

7. PROF. DR. HALİS YUNUS ERSÖZ “SOSYAL POLİTİKA” (Ders notu), İSTANBUL ÜNİVERSİTESİ AÇIK VE UZAKTAN EĞİTİM FAKÜLTESİ, səh. 318

8. Social Work and Social Policy: An Introduction (2nd ed.) by Dickens Jonathan. 2016: London, Routledge, 212 pp.

## POSTMÜHARİBƏ DÖVRÜNDƏ HƏSSAS QRUPLAR ÜZRƏ SOSİAL İŞİN TƏŞKİLİ

**Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)**
Köçərli Yalçın Ənvər oğlu, Köçərli Leyla Rais qızı

XÜLASƏ

Tədqiqatın əsas məqsədi – sosial işin həssas qrupların sosial xidmətlərlə təminatında mühüm sahələrdən biri kimi təhlilidir. Məqalədə həssas qruplarla işin idarə olunmasinda diqqət edilməli olan əsas məqamlar əsaslandırılmışdır. Tədqiqat zamanı perspektiv dövr üçün nəzərdə tutulan tədbirlərin icrası məqsədilə Johari pəncərəsi və Karpman Drama Üçbucağının fərqli cəhətləri qiymətləndirilmişdir. Sosial-psixoloji vəziyyət, məişəti çətinləşdirən və həssas qrupların təkbaşına bacarmadıqları problemlərin həllində dövlət dəstəyini nəzərdə tutan sosial xidmətlərin hədəfləri müəyyənləşdirilmişdir.

## ORGANIZATION OF SOCIAL WORK ON SENSITIVE GROUPS IN THE POST-WAR PERIOD

***Azerbaijan State University of Economics(UNEC)***
**Yalchin A. Kocharli, Leyla R. Kocharli**

**S U M M A R Y**

The main purpose of the study is to analyze social work as one of the important areas in the provision of social services to vulnerable groups. The article substantiates the main points to be considered in the management of work with vulnerable groups. During the study, the differences between the Johari window and the Karpman Drama Triangle were assessed in order to implement the measures planned for the perspective period. The goals of social services, which provide

state support in solving the socio-psychological situation, difficulties in life and problems that vulnerable groups can not solve on their own, have been identified.

**“Müharibədən sonrakı dövrdə qazilərlə sosial iş”**

**Abbasov Kənan Cavanşir**
Azərbaycan Əmək və Sosial
Münasibətlər Akademiyası
E-mail: kenan.abbasov4092@gmail.com

XX əsrin ən qanlı müharibələrindən biri Ermənistan-Azərbaycan Dağlıq Qarabağ müharibəsi olmuşdur. Müharibə nəticəsində milyonlarla azərbaycanlının həyatında silinməz acı izlər buraxılmışdır.

Sovet İttifaqı dövründə Azərbaycan ərazisinə kütləvi şəkildə erməni köçləri təşkil edilmiş, Azərbaycan ərazisində yaradılmış muxtar vilayətdən fərqli olaraq Ermənistanda kompakt yaşayan vətəndaşlarımız üçün muxtar vilayət nəzərdə tutulmamışdır. Bu da illər boyu Sovet İttifaqının dövlətimizə qarşı ortaya qoyduğu ikili standartın ən açıq örnəklərindən biridir. I Qarabağ müharibəsindən sonra Azərbaycan ərazilərinin beşdə birini itirmiş, o cümlədən bir milyondan çox vətəndaşımız öz torpaqlarından didərgin düşmüşdür [2].

2020-ci il 27 sentyabr tarixində cəbhə boyunca erməni hərbi birləşmələri təxribatlar törətməyə başladı və əks tədbir olaraq mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan ordusunun komandanlığı tərəfindən qoşunların bütün cəbhə boyu sürətli əks-hücum əməliyyatı başlaması barədə qərar verildi. Qarşıdurmalar nəticəsində Ermənistanda hərbi vəziyyət və ümumi səfərbərlik, Azərbaycanda isə hərbi vəziyyət və komendant saatı, 28 sentyabrda qismən səfərbərlik elan edilmişdir. Qarşıdurmalar qısa müddətdə sürətlə alovlanmış və II Qarabağ müharibəsinə çevrilmişdir. II

Qarabağ müharibəsi nəticəsində düşmən xeyli sayda canlı qüvvə və texnika itkisi vermiş, erməni ordusu demək olar ki, rüsvay olmuşdur. Müharibə zamanı Şuşa şəhərinin azad olunması isə tarixdə tayı-bərabəri olmayan döyüş strategiyası və döyüş əzmi ilə müşahidə olunmuşdur [3].

II Qarabağ müharibəsi dünya tarixində böyük əzəmət nümunəsi kimi öz yerini tapmışdır. Bu qələbəni bizlərə hədiyyə edən əsgər və zabitlərimizə, o cümlədən onların ailələrinə yüksək sosial xidmətin təşkil olunması ən prioritet məqsədlərin başında gəlməkdədir.

Müharibə qazilərinin geriyə qayıtdıqdan sonra yenidən həyata adaptasiya olması evə qayıtma prosesinin mühüm tərkib hissəsidir. Sosial siyasətlər ölkədə yaşayan vətəndaşların rifah səviyyəsinə təsir göstərir həlledici ola bilər. Sosial işçilər (sosial iş peşəkarları), hərbi xidmətdə sosial xidmət müştəri qrupları siyasətinin formalaşdırılmasında böyük rol oynayırlar. Bu istiqamətdə ordudan qovulma, işdən çıxarılma səbəbləri, Evə qayıtdıqdan sonra həyatın adaptasiya, mülki həyata keçid və uyğunlaşma sosial işin əsas tədqiqat obyektlərindən biridir [1].

**Evə qayıtdıqdan sonra həyata alışma.**

Yeni bir işdə işləmək, öz biznesinizi qurmaq və ya təhsil həyatınıza davam etmək veteranların evə qayıtdıqdan sonra həyatlarına dair planları arasında qəbul edə bilər. Veteranlar evə qayıtdıqdan sonra mülki həyatlarına uyğunlaşa bilərlər. Bir çox veteran iş tapmaqda çətinlik çəkdiklərini ifadə etməkdədirlər [4].

Evə qayıtdıqdan sonra veteranların həyatında bir, çox mənfi dəyişikliklər baş verməsi müşahidə olunmaqdadır. Misal olaraq: daha gərgin, əsəbi, narahat, döyüşkən və kədərli hiss etmək, cəmiyyətin digər üzvlərindən fərqli düşünmək, daha çox spirtli içki qəbul etmək və təhlükəli hərəkətlərlə məşğul olmaq [5].

Veteranların vətənə qayıtması “uyğunlaşma”, “vətəndaş həyatda yeni dostluqlar qurmaq”, “ailə üzvləri ilə münasibətlər” "uğurlu karyera qurmaq", "yeni işdə işləmək", “həyatın tələblərini yerinə yetirmək”, “vətəndaş həyatına aid hiss etmək ” və “mənalı məqsədə sahib olmaq” ölçüləri ilə müəyyən edilə bilər. Ağır depresiya hallarından başqa bəzi araşdırmalarda veteranlarda evə qayıtdıqan sonra hərtərəfli düşüncə, hadisələri və insanları daha yaxşı başa düşmək, məsuliyyəti dərk etmək, ailə üzvlərinin və dostların dəyərini daha yaxşı başa düşmək, öz dəyərini daha yaxşı başa düşmək, əvvəlkindən daha çox özünə inam halları müşahidə olunmuşdur [6]

**Depressiya.**

Depressiya, evə qayıtdıqdan sonra həyatda ən çox görülən psixi problemlərdən biridir. İstəksizlik, bədbinlik, konsentrasiya çətinliyi, çəki dəyişikliyi, qətiyyətsizlik, dəyərsiz hiss etmək, qısacası pis hiss etmək depressiyanın xarakterik xüsusiyyətlərdəndir. Digər qazilərlə müqayisədə, evə qayıdan və depressiya diaqnozu qoyulan qazilər məşğulluq dərəcələri və saatlıq gəlirlər əhəmiyyətli dərəcədə aşağıdır. Eyni zamanda digər veteranlarla müqayisədə depressiya diaqnozu qoyulan veteranların saatlıq əmək haqqı nisbətinin 45% aşağı olduğu bildirilir [7].

# POSTMÜHARIBƏ ŞƏRAITINDƏ SOSİAL IŞÇININ TƏLİM ISTIQAMƏTLƏRI

**Iqtisad elmləri doktoru, professor, Əməkdar elm xadimi,**
**“Şöhrət” ordenli Əlirzayev Əli Qənbərəli oğlu**
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)*
**i.e.n.dosent Qurbanova Fəridə Əhməd qızı**
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)*

Sosial işçilər postmüharibə şəraitində yeni hədəflər, biliklər, bacarıqlar kəsb etməklə öz töhfəsini çoxşaxəli istiqamətlərdə göstərir. Təbii ki, sosial iş bütün regonlarda və işğaldan azad olunmuş regionlarda Azərbaycan Respublikasının sosial inkişaf meylləri, xüsusiyyətləri və hədəflərinə uyğun transformasiya olunur. Sosial işin anatomiyası və onun məqsədi, resursları və əhatə etdiyi obyekt və subyektlərin məcmuu bu fəaliyyətin xüsusiyyətləri ilə, həmçinin sosial işin istehlakçısı olan insanların, ailə və icmaların tələbatına uyğun formalaşır. Sosial işin verəcəyi mövqe qlobal və lokal maraqlara, sahə və ərazi potensialına uyğun idarəetmə təcrübəsinə, həmçinin sosial işçinin qərar qəbuluna uyğun olaraq formalaşır. Azərbaycan Respublikası sosial yönümlü siyasət yürütməklə ölkənin sosial-iqtisadi inkişafında özünün aktuallığı və sinergetik səmərə, həmçnin fərdi maraqları nəzərə alan tədbirlər həyata keçirir. Bu da postmüharibə dövründə sosial işin daha çox ərazilərin bərpası və insanların məskunlaşması həmçinin digər regionların təsirini nəzərə alan tədbirlər və amillərlə müəyyənləşir. Postmüharibə şəraitində iki əsas istiqamətdə sosial işçilərin təlimi və onlardan istifadənin rolu qiymətləndirilir:

- sosial işçilərin peşəkarlığı, sosial ədalət prinsiplərinə uyğun hazırlığı və real prosesləri qiymətləndirmək bacarığına malik olmalıdır;

- sosial işçi hər bir sahənin və fiziki, hüquqi şəxsin ehtiyaclarını qiymətləndirməklə, onun həlli yolunda alternativ layihələri əsaslandırmaq və müvafiq orqanlar qarşısında məsələ qaldırmaq bacarığı olmalıdır;

- sosial işçi nəzəri və praktiki təcrübənin ümumiləşməsi və prioritet hədəfləri seçməklə onun reallaşması üçün ən əlverişli variantları hazırlamalıdır;

- sosial işçi sahə və ərazilərin strateji inkişaf planında sosial meyar və sosial müdafiə sisteminin təkmilləşmə mexanizmlərini verməlidir;

- sosial işçi və sosial xidmətlər prizmasından biznes, sosial həmrəylik və sosial bərabərlik metodları əlaqəli baxılmalıdır.

Sosial hədəflər daima dəyişir. Postmüharibə dövründən sonra bu hədəflərin proqnozu və onların reallaşması üçün resursların mənbələri və onlardan istifadənin yollarının tədqiqi və nəticələrinin qiymətləndirilməsi ilə baş verir. Azərbaycan Respublikasında işğaldan azad olmuş regionlarda sosial problemlər və onların həlli yolları, ölkə iqtisadiyyatının və əhalinin məskunlaşması üçün zəruri olan tədbirləri əhatə edir. Fikrimizcə,əsas sosial məsələlər aşağıdakılardır:

- məskunlaşmaya tövsiyələr verməklə əhalinin məşğulluğu və rifahının yüksəldilməsi üçün tövsiyələr vermək;

- əhalinin yerləşməsi və fəaliyyətinin təşkili üçün fəalliyyət növü, infrastruktur layihələrini vermək.

Sosial işçinin tədris prosesi və təlimləri sosial inkişafı təmin edən nəzəri və praktiki bilikləri, sosial sahənin xüsusiyyətlərini nəzərə almaqla insan amilinin hər tərəfli tənzimlənilməsi üçün istifadə olunan mexanizmləri əhatə edir.

Sosial biliklərin nəzəri əsasını, hüquqlar, insanın maddi və mənəvi tələbatı, içtimai və fərdi maraqlar, insanın rifaha ədalətli bölgü prinsipləri, dövlətin sosial vəzifələri və ədalətli sosial müdafiə prinsipləri təşkil edir.

Sosial müdafiə məsələləri dövlətin, fərdin, ailənin və ayrı-ayrı icmaların ümumi milli və mənəvi dəyərlər baxımından təşkil olunur. Belə ki, ailə, kənd, şəhər, region və sahələrin hər birində sosial müdafiə vəzifələrini reallaşdırmaq sosial işçi kimi idarəetmə sistemini formalaşdırır.

Sosial işçinin dövlət və özəl sektorda işləməsindən asılı olmayaraq əsas məsləki, ədalətli qərar qəbuludur.

Postmüharibə şəraitində ədalətli qərarlar verilməsi hər bir ailənin və fərdin arzularını, məhdud resurslar çərçivəsində ədalətli həll etməkdir. Fikrimizcə, işğaldan azad olmuş regionlarda yaşamaq üçün zəruri olan resursları planlaşdırmaq və mənbələrini tapmaq vəzifəsi əsasdır. Sosial işin ailə və kənd, şəhərlər üzrə təşkili fərdi və kollektiv istifadə obyektlərinin optimal yerləşməsini zəruriləşdirir.

Sosial müavinat sistemi, əmək haqqının stimullaşması mənzil-kommunal, təhsil, səhiyyə və digər obyektlərin əhalinin rifahına yönəldilməsi, həmin ərazilərdə kompleks sosial işin təşkili ilə mümkündür. Bu da tarazlı inkişaf dinamikasıdır.

Sosial işin elmi və praktiki aspektləri, təlimlərin real davranışla əlaqəsindən və məqsədlərin reallığından səmərəli təşkilindən asılı olaraq planlaşdırılır.

Strateji məqsəd və onun kompleks həlli müasir şəraitdə əhali rifahının yüksəldilməsi, iqtisadi potensialın və əmək ehtiyatlarının təbii-coğrafi və təşkilatı resurslardan asılı olaraq planlaşdırılması və idarə edilməsi aspektlərini birləşdirir.

Müasir şəraitdə sosial dövlət olaraq Azərbaycanda mülkiyyətin, resursların vahid məqsədə regionların bərpasına və insanların məskunlaşmasına yönəldilir.

Sosal müdafiə istiqamətlər əhali məskunlaşması üçün zəruri olan şəraitin yaradılması, məkəzi tənzimləmə və ərazi potensialı hesabına inkişaf etdirilir. Bu məqsədlə əhalinin pensiya təminatı, əmək haqqı sistemində sosial müdafiə üçün əlavə xərclər həmçinin xidmət sferasına yönəldilir.

İşğaldan azad edilmiş regionlarda texnologiyalara əsaslanan xidmət səviyyəsi əhalinin bu regionlara qayıtmasına stimul yaradacaq.

Sosial siyasətin reallaşması, institutsional səviyyənin təkmilləşməsi, strateji planlaşma və sahibkarlıq mühiti ilə birgə həll olunur.

## Yerleşiklik Kavramı Bağlamında Geriye Dönüş Göçünün Sürdürülebilirliği Sorunu

**Prof. Dr. Ebulfez Süleymanlı**
Üsküdar Üniversitesi Sosyoloji Bölümü
E-mail: ebulfez.suleymanli@uskudar.edu.tr

Sığınmacı ve mültecilerin kendi topraklarına geri dönüşü genellikle bir kişinin hayatını yeniden inşa etmesinin karmaşık bir sürecidir.

Geri dönüşü bir süreç olarak düşünmek için sürdürülebilir dönüş göçü, yeniden entegrasyon yerine karma bir yerleşiklik süreci olarak adlandırılmaktadır. Yerleşiklik kavramı alanyazında, bireyin kendi toplumunda kendi konumunu bulma ve bu topluma aidiyet duygusuna sahip olma hissini veren çok boyutlu bir kavram olarak tanımlanmaktadır. Yerleşik olmak birbiriyle ilişkili; Ekonomik yerleşiklik, Sosyal ağ yerleşikliği ve Psikososyal yerleşiklik olmak üzere üç boyuttan oluşmaktadır.

Ekonomik yerleşiklik, göçmenler için sürdürülebilir bir geçim sağlamayı içermektedir. Geri dönenler, işsizlik ve sosyal hizmetlere sınırlı erişim ile karşı karşıya kaldıkları için, bu durum geri dönüşlerinin uygun ekonomik ve sosyal bir temel olmadan sürdürülebilir olma olasılığını zayıflatmaktadır. Bu yüzden konut bulma, iş bulma, eğitim, sağlık sigortası, sosyal yardımlar ve bir dizi ek yasal ve bürokratik görevlerin yapılması bu süreçte önem arz etmektedir.

Öte yandan geri dönenler bir sosyal alana girme ve yeni sosyal ilişkiler kurma ya da eskileri yeniden canlandırma gereksinimleri belirmektedir. Sosyal ağların yerleşikliği, sosyal temasların maddi ve duygusal faydalarından yararlanmak için önemlidir. Geriye göç kararı eğer zorunlu bir göç niteliği taşımıyorsa, planlı bir süreçtir ve bu süreçte de sosyal ağlar önemli rol oynamaktadır.

Psikososyal yerleşiklik, kişinin kimliğini inşa etmede, kendini evinde ve güvenli hissetmesinde ve onun psikolojik iyiliğinde önemli bir etken olarak olduğu görülmektedir. Yerleşikliğin bu boyutlarının, geri dönenlerin bireysel özellikleri, geri dönenlerin geçirdiği göç döngüsü ve geri dönenlerin geri dönüş sırasında ve sonrasında aldıkları destek gibi farklı dış faktörlerden etkilenmektedir..

**Anahtar Kavramlar**: Geriye Dönüş Göçü, Ekonomik yerleşiklik, Sosyal ağ yerleşikliği, Psikososyal yerleşiklik

## Məskunlaşma Konsepsiyası Kontekstində Geri Dönüş Köçünün Davamlılığı Problemi

**Prof. Dr. Ebülfez Süleymanlı** (Üsküdar Universiteti, Sosiologiya Fakültəsi)
ebulfez.suleymanli@uskudar.edu.tr

Qaçqın və məcburi köçkünlərin vətənlərinə qayıtması çox vaxt insanın həyatını yenidən qurmasının mürəkkəb bir prosesdir.

Qayıdışı bir proses kimi düşünsək, vətənə qayıdış köçü reinteqrasiya deyil, qarışıq həll prosesi adlanır. Ədəbiyyatda məskunlaşma anlayışı şəxsiyyətə öz cəmiyyətində öz mövqeyini tapmaq hissini verən və bu cəmiyyətə mənsub olmaq hissini verən çoxölçülü anlayış kimi müəyyən edilir. Məskunlaşma bir-biri ilə bağlı üç anlayışdan ibarətdir: iqtisadi məskunlaşma, sosial mühit məskunlaşması və psixososial məskunlaşma

İqtisadi məskunlaşma immiqrantlar üçün davamlı dolanışıq təminatını əhatə edir. Geri qayıdanlar işsizlik və sosial xidmətlərə çıxışın məhdudluğu ilə üzləşdikcə, bu, onların müvafiq iqtisadi və sosial əsas olmadan geri qayıtmasının davamlı olacağı ehtimalını zəiflədir. Ona görə də bu prosesdə mənzil tapmaq, iş tapmaq, təhsil, tibbi sığorta, sosial müavinətlər və bir sıra əlavə hüquqi və siyasi vəzifələr vacibdir.

Digər tərəfdən, geri qayıdanlar sosial mühitə daxil olub yeni sosial münasibətlər qurmalı və ya köhnələrini canlandırmalıdırlar. Sosial əlaqələrin köklü olması sosial münasibətlərin maddi və emosional faydalarını əldə etmək üçün vacibdir. Geri qayıdış qərarı məcburi köç deyilsə, bu, planlı bir prosesdir və sosial əlaqələr bu prosesdə mühüm rol oynayır.

Psixososial məskunlaşma insanın şəxsiyyətinin formalaşmasında, özünü evdə və təhlükəsiz hiss etməsində, onun psixoloji rifahında mühüm amil kimi görünür. Məskunlaşmanın bu ölçülərinə geri dönüş edənlərin fərdi xüsusiyyətləri, prossesin baş verdiyi dövr, geri dönüş zamanı və geri dönüş başa çatdıqdan sonra aldıqları dəstək kimi müxtəlif xarici amillər təsir edir.

**Açar Sözlər**: Geri Dönüş Köçü, İqtisadi məskunlaşma, Sosial mühitə məskunlaşma, Psixososial məskunlaşma

# MÜZİK YOLUYLA KARABAĞLI GÖÇMENLERİN TOPLUMSAL HAFIZASININ YENİDEN İNŞASI VE UYUM

**Ecem Tuğçe Akbulut**
**İstanbul Üniversitesi**

Göç kavramı sosyo-kültürel bir değişim aracı olarak, uyum içerisinde tamamlanan süreçlerin bütünü olarak görülmektedir. Bu yüzden göç süreci içerisinde uyum önemli bir olgudur. Çünkü süreçler uyum içerisinde sonuçlanmadığı zaman, göçün işlevini tamamladığını söylemek mümkün değildir.

Toplumsal hafıza kavramı toplumların geçmişlerini bugüne taşıma bağlamında göçmenlerin uyum süreci, göç ve kültür ilişkisinde merkezi bir yere sahiptir. Bu bağlamda kapsayıcı bir kültür öğesi olması bakımından, geleneksel halk müziği, icra pratiğiyle ve aktarımla, belleği diri tutmayı sağlayan hatırlama aracı işlevini yerine getirmektedir. Bu aracın işlevi, basit bir hatırlamadan ziyade, geçmişi yeniden yorumlamak, anlamlandırmak ve geleceğe aktarmak olarak değerlendirilmelidir.

Konfüçyüs'un "Müzik devlet kurar, devlet yıkar" sözünden yola çıkarak sanat ve özellikle müzik bir kültürel miras olarak çocuklara ve gençlere aktarılmasında önemli bir araç olarak kullanılmalıdır. Geleneğin ve bağlı olarak bunun bir ögesi olan geleneksel müziğin, göçmenlerin toplumsal bellek üzerinde oluşturduğu yatırımlar ve birikimlerin yeni kuşaklara aktarılabilmesi tekrarlanmayla ve icra pratiğiyle mümkündür. Kafkasya'nın Konservatuarı olarak anılan Şuşa'nın dünyaya armağan ettiği müzik dehalarını dünyanın hiçbir ülkesinin vermediğini kesinlikle söyleyebiliriz. Bu bakışla Karabağlı göçmen çocuklar arasında müzik pratiklerinin de yapıldığı sanat atölyeleri düzenlemek göçmenlerin toplumsal hafızalarını canlı tutmaya yarar ve

böylece gelenek sürekliliği ile göçmenlerin sağlıklı uyum sürecine katkı sunmuş olur.

## QARABAĞDAN OLAN QAÇQIN VƏ MƏCBURİ KÖÇKÜNLƏRİN SOSİAL YADDAŞLARININ MUSİQİ VASİTƏSİLƏ YENİDƏN QURULMASI

**Ecem Tuğçe Akbulut**
**İstanbul Universiteti**

Miqrasiya anlayışı sosial-mədəni dəyişiklik vasitəsi olaraq bütün proseslərin ahənglə başa çatması kimi görünür. Buna görə də adaptasiya miqrasiya prosesində mühüm hadisədir. Çünki proseslər harmoniya ilə nəticələnmədikdə, miqrasiyanın öz funksiyasını başa vurduğunu söyləmək mümkün deyil.

Sosial yaddaş anlayışı immiqrantların inteqrasiya prosesində, miqrasiya və mədəniyyət arasındakı münasibətdə cəmiyyətlərin keçmişini bu günə çatdırmaq kontekstində mərkəzi yer tutur. Bu kontekstdə ənənəvi xalq musiqisi inklüziv mədəniyyət elementi olması baxımından ifa edilmə təcrübəsi və ötürülməsi ilə yaddaşı yaşadan bir xatırlatma vasitəsi funksiyasını yerinə yetirir. Bu alətin funksiyası sadəcə xatırlamaqdansa, keçmişi yenidən şərh etmək, anlamlandırmaq və gələcəyə köçürmək kimi qəbul edilməlidir.

Konfutsinin “Musiqi dövlət qurar, dövlət yıxar” devizinə əsaslanaraq mədəni irsin uşaqlara və gənclərə çatdırılmasında incəsənətdən və xüsusilə musiqidən mühüm vasitə kimi istifadə edilməlidir. Ənənə və bundan asılı olaraq ənənəvi musiqi onun bir elementi, mühacirlərin sosial yaddaşına sərmayə qoyulmuş və biliklərin təkrar və təcrübə yolu ilə yeni nəsillərə ötürülməsi mümkündür. Qətiyyətlə deyə bilərik ki, Qafqaz Konservatoriyası sayılan Şuşanın dünyaya bəxş etdiyi musiqi dühalarını dünyanın heç bir ölkəsi verməmişdir. Bu baxımdan, Qarabağdan olan köçkün uşaqlar arasında musiqi məşğələlərinin də keçirildiyi incəsənət məşğələlərinin təşkili həmin uşaqların sosial yaddaşlarını yaşatmağa kömək edir və

beləliklə də ənənənin davamlılığı ilə qaçqın və köçkünlərin sağlam adaptasiya prosesinə töhfə verir.

## Вопросы организации социальной работы с ранеными в послевоенный период

**Кызылгюль Ясин кызы Аббасова**
профессор, кафедра социальной работы, Бакинский Государственный Университет q.abbasova@mail.ru

Вопросы реабилитации раненых в послевоенный период является важным направлением восстановления человеческих ресурсов как с точки физического, так и социального здоровья. Подобная работа ведется в каждой стране, ставшей ареной военных действий, поскольку необходима реабилитационная работа со всеми слоями населения, в том числе с ранеными. Кроме того, демобилизованные солдаты, в особенности сразу после призыва попавшие на театр военных действий, также нуждаются в психологической реабилитации.

Учитывая все это, в Азербайджане, который на протяжении десятилетий оставался в состоянии войны с соседней Арменией, и только год назад благодаря политическим и военным усилиям руководства страны в лице Президента Ильхама Алиева, возглавившего народ в справедливой войне с агрессором, захваченные земли были освобождены, в направлении восстановления физического и психического здоровья участников войны были приняты необходимые меры. Рассмотрим основные направления социальной работы с участниками боевых действий:

1. всем раненым на войне оказывалась медицинская помощь, в том числе в необходимых случаях – за границей (в братской Турции);

2. в необходимых случаях с гази (ранеными) работали опытные психологи и психиатры, в том числе приглашенные из-за границы;

3. был проведен мониторинг по выявлению социально-бытовых и жилищных условий бывших бойцов, шло распределение среди них жилья для улучшения условий проживания;

4.Центром Социальных Исследований был проведен ряд опросов по изучению общественного мнения среди рядового населения, среди вынужденных переселенцев относительно социального самочувствия, отношения к ситуации с освобожденными территориями, реализации проекта «Великого возвращения»;

5. Министерством Труда и Социальной Защиты Населения был принят ряд мер по социально-психологической реабилитации родных и близких погибших на войне, по оказанию им помощи в улучшении жилищно-бытовых условий, в трудовой деятельности, в учебе, получении необходимой медицинской помощи;

6. идет работа по увековечению памяти погибших и получивших увечья и травмы на войне: их имена присуждаются школам, улицам, аудиториям, на доме вывешиваются мемориальные доски, отмечаются памятные дни вместе с семьями и близкими людьми;

7. ведется пропагандистская работа по формированию у подрастающего поколения уважения к тем, кто жертвовал своей жизнью во имя территориальной целостности страны, в частности, проводятся встречи с участниками войны, создаются сценарии для фильмов, пьес, пишутся рассказы и повести, сочиняются песни и другие музыкальные произведения;

8. в целях военно-патриотического воспитания детей и молодежи в общегуманитарные школьные дисциплины вводят факты о событиях и процессах войны;

9. отдельным направлением в социальной помощи стала работа с населением, также потерпевшим убытки как материальные, так и связанные с человеческими потерями из-за нападения врага на территории, не бывшие ареной боевых действий;

10. одним из важных направлений деятельности стало формирование общественного мнения, в том числе международного путем оповещения международных организации и медиа о зверствах и дикости противоположной воюющей стороны, в этом деле непосредственно принимали участие и государственные, и неправительственные организации.

Перед социальными работниками стоят задачи по организации помощи соответствующим ведомствам для социальной реабилитации участников войны, оказании помощи в устройстве на работу, получении необходимых пособий и других форм помощи.

Таким образом, в Азербайджане, как и в последние 30 лет, большое внимание и забота уделяется семьям наших шехидов и ветеранов войны, отдавших свои жизни за независимость Азербайджана после Второй карабахской войны. Согласно соответствующим поручениям Президента Ильхама Алиева и Первого вице-президента Мехрибан Алиевой, государственные органы серьезно занимаются проблемами этой категории людей, и регулярно принимаются меры по их устранению.

## Müharibədən sonrakı dövrdə yaralılarla sosial işin təşkili məsələləri

Qızılgül Yasin qızı Abbasova
professor, sosial iş kafedrası, Bakı Dövlət Universiteti
q.abbasova@mail.ru

Müharibədən sonrakı dövrdə yaralıların reabilitasiyası məsələləri həm fiziki, həm də sosial sağlamlıq baxımından

insan resurslarının bərpasında mühüm istiqaməti təşkil edir. Oxşar işlər döyüş meydanına çevrilmiş hər bir ölkədə aparılır, çünki əhalinin bütün təbəqələri, o cümlədən yaralılarla reabilitasiya işlərinə ehtiyac var. Bundan əlavə, tərxis olunan əsgərlərin, xüsusən də çağırışdan dərhal sonra hərbi əməliyyatlarda iştirak edən əsgərlərin psixoloji reabilitasiyaya ehtiyacı var.

Bütün bunları nəzərə alsaq, onilliklər ərzində qonşu Ermənistanla müharibə şəraitində olan Azərbaycanda və cəmi bir il əvvəl xalqa ədalətli müharibə aparan Prezient İlham Əliyevin simasında ölkə rəhbərliyinin siyasi və hərbi səyləri nəticəsində təcavüzkara qarşı işğal olunmuş torpaqlar azad edilmiş, müharibə iştirakçılarının fiziki və mənəvi sağlamlığının bərpası istiqamətində zəruri tədbirlər həyata keçirilmişdir. Hərbi əməliyyat iştirakçıları ilə sosial işin əsas istiqamətlərini nəzərdən keçirək:

1. müharibədə bütün yaralılara tibbi yardım göstərilmiş, o cümlədən, lazım gəldikdə xarici ölkəyə göndərilmişdir (qardaş Türkiyəyə);

2. zəruri hallarda təcrübəli psixoloqlar və psixiatorlar (o cümlədən xaricdən dəvət olunmuş) qazilərlə işləmişdir;

3. keçmiş döyüşçülərin sosial-məişət şəraitinin müəyyən edilməsi məqsədilə monitorinqlər aparılıb, yaşayış şəraitinin yaxşılaşdırılması üçün onlara mənzillər paylanılıb;

4. Sosial Araşdırmalar Mərkəzi sadə əhali, məcburi köçkünlər arasında sosial rifah, işğaldan azad edilmiş ərazilərlə bağlı vəziyyətə münasibət, «Böyük Qayıdış» layihəsinin həyata keçirilməsi ilə bağlı ictimai rəyi öyrənmək məqsədilə bir sıra sorğular keçirib;

5.Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi müharibədə həlak olanların qohum və yaxınlarının sosial-psixoloji reabilitasiyası, onların mənzil-məişət şəraitinin, əmək fəaliyyətinin, təhsil səviyyəsinin yaxşılaşdırılması, lazimi tibbi yardım almaları üçün bir sıra tədbirlər həyata keçirib;

6. müharibədə həlak olanların və yaralananların xatirəsinin əbədiləşdirilməsi istiqamətində işlər aparılır: onların adları məktəblərə, küçələrə, auditoriyalara verilir, evlərə xatirə lövhələri asılır, yaddaqalan günlər ailələri və yaxınları ilə birgə qeyd olunur;

7. gənc nəsildə vətənin ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərə hörmət hissinin formalaşdırılması istiqamətində təbliğat-təşviqat işləri aparılır, xüsusilə, müharibə iştirakçıları ilə örüşlər keçirilir, hekayə və romanlar, film və tamaşalara ssenarilər yazılır, mahnılar bəstələnir;

8.uşaq və gənclərin hərbi-vətənpərvər ruhda yetişdirilməsi məqsədi ilə ümumhumanitar məktəb fənlərinə müharibədəki hadisə və proseslər haqqında faktlar daxil edilmişdir;

9. sosial yardımın ayrıca bir istiqaməti də düşmənin hərbi əməliyyatlar aparılmayan ərazilərə hücumları nəticəsində həm maddi, həm də insan itkiləri ilə bağlı əhali ilə işdir;

10. mühüm fəaliyyət istiqamətlərindən biri də qarşı tərəfin insanlığa zidd davranışları və vəhşilikləri barədə beynəlxalq təşkilatlara və kütləvi informasiya vasitələrinə məlumat verməklə ictimai rəyin, o cümlədən beynəlxalq rəyin formalaşdırılması idi, istər dövlət, istərsə də qeyri-hökumət təşkilatları bu işlə birbaşa məşğul olurlar.

Sosial işçilərin qarşısında müharibə veteranlarının sosial reabilitasiyası üçün aidiyyatı idarələrə müraciət və yardımın təşkili, onların işlə təmin olunmasına kömək, lazimi müavinətlərin alınmasına və digər yardım formalarının alınması vəzifəsi dayanır.

Belə ki, son 30 ildə olduğu kimi Azərbaycanda İkinci Qarabağ müharibəsindən sonra vətənin müstəqilliyi uğrunda canlarından keçmiş şəhidlərimizin və müharibə veteranlarımızın ailələrinə böyük diqqət və qayğı göstərilir. Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın müvafiq tapşırıqlarına əsasən, dövlət orqanları bu kateqoriyadan olan insanların problemləri ilə ciddi məşğul olur,

onların aradan qaldırılması üçün mütəmadi olaraq tədbirlər həyata keçirir.

## ХАРАКТЕРНЫЕ ОСОБЕННОСТИ БЕЖЕНЦЕВ И ВЫНУЖДЕННЫХ ПЕРЕСЕЛЕНЦЕВ КАК ГРУППЫ КЛИЕНТОВ СОЦИАЛЬНЫХ РАБОТНИКОВ

**Məmmədova Rəna Oktaedr qızı**
*Bakı Dövlət Universiteti. Bakı. Azərbaycan Respublikası.*

Беженцы и вынужденные переселенцы являются представителями группы риска и требуют к себе особого внимания со стороны социальных работников, государственных структур. В 2000-м году Генеральная Ассамблея ООН объявила 20 июня Международным днем беженцев (World Refugee Day). Каждый год в этот день обсуждается конкретная тема, связанная с проблемами, с которыми сталкиваются беженцы и вынужденные переселенцы. Например, Тема дня 2021 года — «Вместе мы заботимся друг о друге, учимся и сияем». Тема 2020-го года - «Каждое действие имеет значение». 2019-го года — «Сделай шаг с беженцами». 2018-го года — «Сейчас нам больше, чем когда-либо, нужно встать на сторону беженцев». 2017-го года — «Обращение к беженцам, чтобы прославить наше общее человечество». 2016-го года — «Мы вместе с беженцами». 2015-го года — «Давайте объединимся с мужеством». 2014-го года — «Семья, разделенная войной, - это слишком». 2013-го года — «Найдите 1 минуту, чтобы помочь семье, вынужденной бежать». 2012-го года — «У беженцев нет выбора. Ты сделаешь». 2011-го года — «Поставьте себя на место беженца и сделайте первый шаг, чтобы понять их ситуацию». 2010-го года — «Дом». 2009-го года —

«Реальные люди — реальные нужды». 2008-го года — «Каждый человек имеет право искать убежища от преследования в других странах и пользоваться этим убежищем». 2007-го года — «Новый дом, новая жизнь». 2006-го года — «Поддерживая пламя надежды». 2005-го года — «Мужество». 2004-го года — «Место, которое можно назвать домом». 2003-го года - «Молодые беженцы: цементируя будущее». 2002-го года - «Женщины-беженцы». Тема 2001-го года - «Уважение».

Наличие международного дня, посвященного проблемам и чаяниям беженцев и вынужденных переселенцев свидетельствует о том, что мировая общественность озабочена сложными жизненными ситуациями, в которые попадают представители этой социальной группы.

В нашей стране ситуации, с которыми сталкиваются беженцы и вынужденные переселенцы, являются одними из самых злободневных и требующих детального изучения. Со стороны руководства государства регулярно осуществляются меры по устранению проблем, возникающих в жизни беженцев и вынужденных переселенцев. В стране действует Государственный комитет Азербайджанской Республики по делам беженцев и вынужденных переселенцев.

Вынужденный переселенец (лицо, переселенное в пределах страны) — лицо, вынужденное покинуть постоянное место проживания в результате военной агрессии, стихийных и техногенных бедствий на территории Азербайджанской Республики и переселиться на другое место.

Социальный работник выступает в качестве посредника между иммигрантами и беженцами и государственными службами, организациями и учреждениями, предоставляющими услуги в сфере

обеспечения духовного, физического и психологического здоровья населения. Социальные работники оказывают поддержку беженцам в получении материальной помощи и в разрешении личных проблем, осуществляют профессионально ориентированную, педагогическую работу с беженцами. Социальная работа с беженцами и вынужденными переселенцами осуществляется на индивидуальном, групповом уровне, на уровне отдельных семей, детей, представителей среднего поколения и людей пожилого возраста.

Кризис идентичности – основная личностная проблема беженцев. Ситуация неопределенности в жизни человека, обострение внутриличностного конфликта, состояние дезинтеграции личности и как следствие – возникновение депрессии – вот перечень основных проблем, с которыми сталкиваются беженцы и вынужденные переселенцы. Мотивационный, эмоциональный и когнитивный дисбаланс, возникающий в результате попадания человека в новую среду, сопровождает беженцев и вынужденных переселенцев. Для разрешения такого рода проблем необходима профессиональная помощь специалистов в сфере социальной работы.

## QAÇQINLARIN VƏ MƏCBURI KÖÇKÜNLƏRIN XARATERIK XÜSUSIYYƏTLƏRI SOSIAL IŞÇILƏRIN KLIENT QRUPLARI KIMI

**Məmmədova Rəna Oktaedr qızı**

*Bakı Dövlət Universiteti. Bakı. Azərbaycan Respublikası.*

Qaçqınlar və məcburi köçkünlər risk qrupuna aid edilirlər və onlara sosial işçilər, dövlət strukturları tərəfindən xüsusi diqqət tələb olunur. 2000-ci ildə BMT-in Baş Assambleyası 20 iyun tarixini Beynəlxalq qaçqınlar günü kimi qəbul etdi (WorldRefugeeDay). Hər il bu gündə qaçqın və məcburi

köçkünlərin qarşılaşdığı problemlərlə əlaqəli olan xüsusi mövzular müzakirə olunur. Məsələn, 2021-ci ildə günün mövzusu — «Birlikdə biz bir-birimizin qayğısına qalır, öyrənir və işıq saçırıq». 2020-ci ilin mövzusu — «Hər bir davranışın öz mənası var ». 2019-cu ilin— «Qaçqınlarla birgə addım at ». 2018-ci ilin — «İndi biz həmişəkindən daha çox qaçqınların müafiəsinə qalxmalıyıq». 2017-ci ilin — «İnsanlığımızı tərənnüm etmək üçün, qaçqınlara müraciət». 2016-cı ilin — «Biiz qaçqınlarla birlikdəyik». 2015-ci ilin — «Gəlin cəsarətlə birləşək». 2014-cü ilin— «Müharibə ilə parçalanan ailə- bu artıq çoxdur». 2013-cü ilin — «Qaçmağa məcbur olan ailəyə kömək etmək üçün 1 dəqiqənizi ayırın». 2012-ci ilin — «Qaçqınların seçimi yoxdur. Sən eliyəcəksən». 2011-ci ilin — «Özünüzü qaçqının yerinə qoyun, onların vəziyyətini amlamaq üçün bir addım atın». 2010-cu ilin — «Ev». 2009-cu ilin — «Real insanlar — real ehtiyaclar». 2008-ci ilin — «Hər bir kəsin təqiblərdən qaçarkən digər ölkələrdə sığınacaq tapmaq və ondan istifadə etmək hüququ var». 2007-ci ilin — «Yeni ev, yeni həyat». 2006-cı ilin — «Ümid alovunu yaşadaraq». 2005-ci ilin — «Cəsarət». 2004-cü ilin — «Ev adlandıra biləcəyimiz yer». 2003-cü ilin — «Gənc qaçqınlar: gələcəyin bünövrəsidir». 2002-ci ilin — «Qaçqın-qadınlar». 2001-ci ilin mövzusu isə — «Hörmət».

Qaçqınların və məcburi köçkünlərin problem və istəklərinə həsr olunmuş beynəlxalq bir günün olması onu göstərir ki, dünya ictimaiyyəti bu sosial qrupun nümayəndələrinin düşdüyü çətin həyat şəraitindən narahatdır.

Ölkəmizdə qaçqın və məcburi köçkünlərin üzləşdikləri hallar ən aktual və ətraflı öyrənilmə tələb edən məsələlərdəndir. Dövlət rəhbərliyi tərəfindən qaçqın və məcburi köçkünlərin həyatında yaranan problemlərin aradan qaldırılması üçün mütəmadi olaraq tədbirlər həyata keçirilir. Ölkədə Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi fəaliyyət göstərir.

Məcburi köçkün (ölkə daxilində köçürülən şəxs) — Azərbaycan Respublikasının ərazisinə hərbi təcavüz, təbii və texnogen xarakterli fəlakətlər nəticəsində daimi yaşayış yerini tərk etməyə və başqa yerə köçməyə məcbur olmuş şəxsdir.

Sosial işçi immiqrantlar və qaçqınlar ilə əhalinin mənəvi, fiziki və psixoloji sağlamlığının təmin edilməsi sahəsində xidmət göstərən dövlət orqanları, təşkilat və qurumlar arasında vasitəçi kimi çıxış edir. Sosial işçilər qaçqınlara maddi yardım almaqda və şəxsi problemlərinin həllində dəstək verir, onlarla peşəkar yönümlü, pedaqoji iş aparırlar. Qaçqın və məcburi köçkünlərlə sosial iş fərdi, qrup səviyyəsində, ayrı-ayrı ailələr, uşaqlar, orta nəslin nümayəndələri və qocalar səviyyəsində həyata keçirilir.

Şəxsiyyət böhranı – məsələsi qaçqınların əsas problemini təşkil edir. İnsan həyatında qeyri-müəyyənlik vəziyyəti, şəxsiyyətdaxili münasibətlərin kəskinləşməsi, şəxsiyyətin parçalanması vəziyyəti və bunun nəticəsində də depresiyanın yaranması – qaçqın və məcburi köçkünlərin qarşılaşdıqları əsas problemlərdəndir. İnsanın yeni mühitə daxil olması nəticəsində yaranan motivasiya, emosianal və koqnitiv disbalans qaçqın və məcburi köçkünləri müşayiət edir. Bu cür problemlərin həlli üçün sosial iş sahəsində mütəxəssislərin peşəkar köməyi lazımdır.

## THE ROLE OF SOCIAL WORK IN WORKING WITH ACTIVE-DUTY MILITARY & VETERANS THEIR FAMILIES

**Myrna McNitt, ACSW, LMSW**
myrnamcnitt@comcast.net
Spring Arbor University

Throughout the world military personnel and veterans along with their families are facing the consequences of war and reintegration into their families and communities. This is no less true in Azerbaijan. Internationally this population is

vulnerable and social workers have an important role in helping the military prepare for deployment and their reintegration into family and community.

Social work existed for centuries in Azerbaijan and was carried out in an informally consistent with cultural traditions. The military was formally recognized in 1918 but social work continued following its same cultural practices. This included informal support to the military. In the 1950's during the Soviet period social work was provided by members of the labor union or poorly trained high school graduates. At this time the needs of the military and their families existed but were likely not met. In 1992 with the advent of the Nagorno-Karabakh War Social worker still had no clear definition yet the needs of the military continued (Azerbaijan Armed Forces, 2014). In 2012 social work was defined by labor law in Azerbaijan (Alamadli, *Rzayeva*, & *Huseynli*, nd). Today in Azerbaijan social work is now positioned to meet the needs of vulnerable community members including active-duty military, veterans, and their families. This is best done by developing specialty training as part of social work education. In addition to military specialty training Azerbaijan ministries and government agencies need to work collaboratively to meet the needs of the military and veterans. Following the lead of other nations with a standing military Azerbaijan may find purpose in developing a Bureau of Veterans Affairs (NASW, nd) with professional services provided by social workers.

Social work assists the military by carrying out tasks associated with critical phases of military work. Social workers assist active military members and their family to prepare for deployment (how to manage finances, how to keep in contact during deployment, preparing for possible injury or death). During the deployment phase the social worker assists the active-duty member maintain contact with family in the face of serving in high risks situations. The social worker assists the

family in to assure the family continues the education of the children and manages the family finances. As the military person is absent the social worker helps the family to understand separation and how to continue to function as a family including maintaining positive communication with the active military family member. The final phase is the return from deployment. Social workers help the veteran by assessing the needs for health and mental health services post deployment. Social workers help to reintegrate the family with the military member now a veteran upon their return to the community. The military member/veteran and their family are community members and need community support to assure for positive reintegration. The community with its social workers needs to provide trauma focused therapy, employment services, occupational services treating physical and neurological injuries and access to mutual support groups for the veteran.

As part of the assessing the needs of the military, veterans, and their families it is important to evaluate the impact of “unseen” injuries impacting the veteran which includes an understanding the trauma of war as a complex mental health need. Many veterans experience severe depression and have suicidal thoughts. The veteran may struggle with fitting into their family on return with flashback thoughts to violent actions found in war which may result in the abuse of alcohol or other prescription medications. When the veteran is depressed and abusing substances, they may act out against those they love with domestic violence or physical abuse of the children. While it is important to focus on the needs of the military or veteran social workers need to provide direct services to military children.

Military life compromises the protective factors the child finds when living in a consistent environment. This includes being close to extended family and natural supports. Military

life involves a series of losses. These occur because of deployment and the reintegration of the service person to their family and community. The DePelchin Children's Center (2014) reported several situations which have a stressful impact on a child, including:

- a family's frequent relocations;
- temporary loss of a parent due to deployment;
- fears about the safety of the deployed parent;
- adjustment to family reintegration after deployment;
- changes in the returning parent due to PTSD or difficulty adjusting to home;
- and permanent changes in families due to death or injury. (Bukstein, 2014)

Substance misuse is common in the military and co-exists with abuse and neglect of children. One study reported 13% of soldier related child abuse occurred when the soldier was abusing alcohol (Gibbs et al, 2008). Military children are 11% more likely to seek care for behavioral and mental health issues during deployments than when the parent is at home (Gorman, Eide, & Hisle-Gorman, 2010). Specific family stressors of military life include isolation from extended families and involuntary relocations. Service members also experience long work hours and lengthy absences from home for temporary assignments, peacekeeping missions, and combat deployments. All of this takes its toll on children and social workers can ameliorate these stressors for children of active-duty military and veterans by providing support and clinical services.

Good practice when working with the military need social work practitioners, who are aware of the critical phases of military life and ways to address veterans' needs. This includes the emotional phases of deployment and reintegration which is often a trigger for the abuse. When considering the reduction of family violence in military families it is important to make full

use of evidence-based treatment models. Evidenced based treatments benefit the victim of the violence as well as the military perpetrator. It is essential for communities to come together to assure that children are protected and do not fall between the cracks of the military vs. civilian systems.

When working in a post war society, social workers with proper training are ready to become leaders in meeting the needs of the military, veterans, and their families. It is important for national governments and their respective ministries to recognize the potential contribution of social work in supporting these individuals (military/veteran) and families and create opportunities for social workers to serve these vulnerable community members working to improve their well-being.

References

Alamadli, K., *Rzayeva, L,,* & *Huseynli,.*(nd). *Social Work in Azerbaijan*. Retrieved from: https://khanahmadli.wordpress.com/2018/07/05/social-work-in-azerbaijankhanbala-ahmadli/.

Azerbaijan Armed Forces (2014). Retrieved from: Azerbaijani Armed Forces | Military Wiki | Fandom.

Bukstein, O. (2014). *Military life stress impacts the entire family, not just adults.* Retrieved from: https://www.depelchin.org/articles/military-life-stress-impacts-the-entire-family-not-just-adults/

Gibbs, S., Martin, R., Johnson, E., Rentz, D., Clinton-Sherrod, M., and Hardison, J. (2008) *Child Maltreatment and Substance Abuse Among U.S. Army Soldiers.* Child Maltreat 2008; 13; 259 originally published online Mar 14, 2008; DOI: 10.1177/1077559507313462

Eide, M., Gorman, G., Hisle-Gorman (2010). Effects of Parental Military Deployment on Pediatric Outpatient and

Well-Child Visit Rates *Pediatrics* (2010) 126 (1): 22–27. https://doi.org/10.1542/peds.2009-2704

NASW (nd). *Social Work in the Armed Forces*. Retrieved from: https://www.socialworkers.org/Practice/Military-Veterans/Social-Work-in-the-Armed-Forces

# XİDMƏTDƏ OLAN HƏRBİ QULLUQÇULAR VƏ VETERAN AİLƏLƏRİ İLƏ İŞDƏ SOSİAL İŞİN ROLU

**Myrna McNitt, ACSW, LMSW**
**myrnamcnitt@comcast.net**
**Spring Arbor Universiteti**

Bütün dünyada hərbi qulluqçular və veteranlar ailələri ilə birlikdə müharibənin nəticələri və öz ailəl və icmalarına reinteqrasiya etməkdə çətinliklə üzləşirlər. Bu hal Azərbaycanda da az deyil. Beynəlxalq miqyasda bu əhali həssas əhali qrupu hesab olunur və sosial işçilər onların səfərbərliyə hazırlaşmaqda və onların ailə və cəmiyyətə reinteqrasiyasında kömək etməkdə mühüm rola malikdirlər.

Azərbaycanda sosial iş əsrlər boyu mövcud olmuş və mədəni ənənələrə uyğun, qeyri-rəsmi şəkildə həyata keçirilmişdir. Ordu rəsmi olaraq 1918-ci ildə tanınmasına baxmayaraq, hərblə bağlı sosial iş qədimdə olduğu kimi eyni mədəni təcrübələrə uyğun olaraq davam edirdi. Bura orduya qeyri-rəsmi dəstək də daxildir. 1950-ci illərdə sovet dövründə ictimai iş həmkarlar ittifaqı üzvləri və ya zəif təlim keçmiş orta məktəb məzunları tərəfindən həyata keçirilirdi. Bu zaman hərbçilərin və onların ailələrinin ehtiyacları mövcud idi, lakin çox güman ki, təmin edilmirdi. 1992-ci ildə Dağlıq Qarabağ müharibəsinin baş verdiyi dövrdə də sosial işçinin kim olduğuna dair hələ də dəqiq tərif malik deyildi, hələ də ordunun ehtiyacları davam edirdi (Azərbaycan Silahlı Qüvvələri, 2014). 2012-ci ildə sosial iş Azərbaycanda əmək qanunvericiliyi ilə müəyyən edilmişdir (Ələmədli, Rzayeva, Hüseynli,). Bu gün

Azərbaycanda sosial iş hazırda hərbi xidmətdə olan hərbçilər, veteranlar və onların ailələri də daxil olmaqla həssas icma üzvlərinin ehtiyaclarını ödəmək vəzifəsini öz üzərinə götürüb. Bu, ən yaxşı şəkildə sosial iş təhsilinin bir hissəsi kimi ixtisas hazırlığını inkişaf etdirməklə edilir. Hərbi ixtisas hazırlığı ilə yanaşı, Azərbaycanın nazirlikləri və dövlət qurumları hərbçilərin və veteranların ehtiyaclarını ödəmək üçün birgə işləməlidirlər. Daimi orduya malik digər dövlətlər kimi Azərbaycan sosial işçilər tərəfindən peşəkar xidmətlər göstəriləcək Veteran İşləri Bürosu (NASW,) yaratmaq məqsədini həyata keçirmişdir.

Sosial iş hərbi sistemin kritik vəzifələrini yerinə yetirməklə bağlı yaranan çətinliklərdə orduya kömək edir. Sosial işçilər xidmətdə olan hərbi qulluqçulara və onların ailələrinə həyati riskli vəzifələr təyin olunduğu zaman ona hazırlaşmağa kömək edir (maliyyəni necə idarə etmək, səfərbərlik zamanı əlaqəni necə saxlamaq, mümkün yaralanma və ya ölümə hazırlıq). Vəzifəyə təyinat mərhələsində sosial işçi xidmətdə olan hərbi qulluqçuya yüksək riskli vəziyyətlərdə xidmət zamanı ailəsi ilə əlaqə saxlamağa kömək edir. Sosial işçi ailədə uşaqların təhsilini davam etdirməsini təmin etmək üçün ailəyə kömək edir və ailənin maliyyəsini idarə edir. Xidmətdə olan şəxs hər zaman ailənin yanında ola bilmədiyi üçün sosial işçi ailəyə ayrılığı anlamağa və ailə kimi fəaliyyətini necə davam etdirməli olduğunu, o cümlədən hərbi qulluqçunun ailə üzvü ilə müsbət ünsiyyət saxlamasına kömək edir.

Son mərhələ, hərbçinin vəzifə öhdəliklərini həyata keçirdikdən sonra geri qayıtmasıdır. Sosial işçilər, səəfrbərlik təyinatından sonra sağlamlıq və psixi sağlamlıq xidmətlərinə olan ehtiyacları qiymətləndirərək veterana kömək edirlər. Sosial işçilər cəmiyyətə qayıtdıqdan sonra artıq veteran olan hərbçi ilə ailənin yenidən inteqrasiyasına kömək edir. Hərbi qulluqçu/veteran və onların ailəsi icma üzvləridir və müsbət reinteqrasiyanı təmin etmək üçün icma dəstəyinə ehtiyac duyurlar. Cəmiyyət sosial işçilər ilə birlikdə travmaya yönəldilmiş terapiya, məşğulluq

xidmətləri, fiziki və nevroloji xəsarətləri müalicə edən peşə xidmətləri və veteran üçün qarşılıqlı dəstək qruplarına çıxışı təmin etməlidir.

Hərbçilərin, veteranların və onların ailələrinin ehtiyaclarının qiymətləndirilməsinin bir hissəsi olaraq, müharibə travmasının kompleks psixi sağlamlıq ehtiyacı kimi başa düşülməsini əhatə edən veterana təsir edən "görünməyən" xəsarətlərin təsirini qiymətləndirmək vacibdir. Bir çox veteranlar ağır depressiyada olur və intihar düşüncələri ilə yaşayırlar.

Veteran, alkoqoldan və ya reseptlə verilən digər dərmanlardan sui-istifadə etdikdə müharibədə şahid olduğu zorakı hərəkətlərə geri dönən düşüncələri ilə ailəsinə uyğunlaşmaqda çətinlik çəkə bilər. Veteranlar depressiyada olduqda və maddələrdən sui-istifadə etdikdə, sevdikləri insanlara qarşı məişət zorakılığı və ya uşaqların fiziki istismarı kimi hərəkətlər edə bilərlər. Hərbçilərin və ya veteranın ehtiyaclarına diqqət yetirmək vacib olsa da, sosial işçilər hərbi təsirlərə məruz qalmış uşaqlara birbaşa xidmət göstərməlidirlər.

Hərbi həyat, uşağın uyğun bir mühitdə yaşayarkən tapdığı qoruyucu faktorları pozur. Bura geniş ailəyə yaxın olmaq və təbii dəstək daxildir. Hərbi həyat bir sıra itkiləri əhatə edir. Bunlar hərbi qulluqçunun öz ailəsinə və icmasına yerləşdirilməsi və reinteqrasiyası nəticəsində baş verir. DePelchin Uşaq Mərkəzi (2014) uşağa stresli təsir göstərən bir neçə vəziyyət haqqında məlumat verdi: • ailənin tez-tez yerdəyişməsi;

• hərbitəyinat ilə əlaqədar valideynin müvəqqəti itirilməsi;

• səfərbərliklə vəzifəyə təyin olunan valideynin təhlükəsizliyi ilə bağlı qorxular;

• yerləşdirildikdən sonra ailənin reinteqrasiyasına uyğunlaşma;

• Post-travmatik stress və ya evə uyğunlaşmaqda çətinlik səbəbindən qayıdan valideyndə dəyişikliklər;

• ölüm və ya xəsarət nəticəsində ailələrdə daimi dəyişikliklər. (Bukstein, 2014)

Maddələrdən sui-istifadə orduda geniş yayılmışdır və uşaqların istismarı və laqeydliklə əlaqəli şəkildə mövcuddur. Bir araşdırma, hər hansı hərbi qulluqçu tərəfindən həyata keçirilən uşaq istismarı zamanı, hərbi qulluqçuların 13 %-in spirtli içkinin təsiri altında olduğunu sübut edir. (Gibbs et al, 2008). Hərbiçi ailəsində olan uşaqlar, ata-ananın evdə olduğu vaxtdan fərqli olaraq, valideynin xidməti zamanı davranış və psixi sağlamlıq problemləri ilə bağlı qayğıya 11% daha çox müraciət edirlər (Gorman, Eide və Hisle-Gorman, 2010). Hərbi həyatın ailədaxili stress məsələlərinə böyük ailələrdən təcrid olunma və məcburi uzaqlaşmalar daxildir. Hərbi qulluqçular, həmçinin, müvəqqəti tapşırıqlar, sülhməramlı missiyalar və səfərbərlik təyinatlarına görə uzun müddət evdən kənarda qalmaq məcburiyyətində olurlar. Bütün bunlar uşaqlara öz təsirini göstərir və sosial işçilər dəstək və klinik xidmətlər göstərməklə hərbi qulluqçuların və veteranların uşaqları üçün bu stresslərin təsirini azalda bilərlər.

Hərbçilər ilə işləyərkən yaxşı təcrübə, hərbi həyatın kritik mərhələlərindən və veteranların ehtiyaclarını həll etmək yollarından xəbərdar olan sosial iş praktikantlarına ehtiyac duyur. Buraya hərbçinin təyinatı və reinteqrasiya emosional mərhələləri daxildir ki, bu da tez-tez sui-istifadəyə səbəb olur. Hərb çi ailələrində ailə zorakılığının azaldılmasını nəzərdən keçirərkən təcrübəyə əsaslanan müalicə modellərindən tam istifadə etmək vacibdir. Təcrübəyə əsaslanan müalicə zorakılığın qurbanına, eləcə də hərbçiyə fayda verir. Uşaqların müdafiə olunmalarını və ordu və mülki sistemlərin çatları arasında qalmamasını təmin etmək üçün icmaların bir araya gəlməsi vacibdir.

Müharibədən sonrakı cəmiyyətdə işləyərkən, lazımi təhsili olan sosial işçilər hərbçilərin, veteranların və onların ailələrinin ehtiyaclarını ödəmək üçün lider vəzifəsini həyata keçirməyə hazırdırlar. Hökumət və onun müvafiq nazirlikləri üçün bu şəxslərin (hərbçi/veteran) və ailələrinin dəstəklənməsində sosial işin potensial töhfəsinin tanınması və sosial işçilərə onların

rifahını yaxşılaşdırmaq üçün çalışan bu həssas icma üzvlərinə xidmət etmək üçün imkanlar yaratmaq vacibdir.

## ƏDƏBİYYAT


Alamadli, K., *Rzayeva, L,, & Huseynli,*.(nd). *Social Work in Azerbaijan*. Retrieved from: https://khanahmadli.wordpress.com/2018/07/05/social-work-in-azerbaijankhanbala-ahmadli/.

Azerbaijan Armed Forces (2014). Retrieved from: Azerbaijani Armed Forces | Military Wiki | Fandom.

Bukstein, O. (2014). *Military life stress impacts the entire family, not just adults.* Retrieved from: https://www.depelchin.org/articles/military-life-stress-impacts-the-entire-family-not-just-adults/

Gibbs, S., Martin, R., Johnson, E., Rentz, D., Clinton-Sherrod, M., and Hardison, J. (2008) *Child Maltreatment and Substance Abuse Among U.S. Army Soldiers.* Child Maltreat 2008; 13; 259 originally published online Mar 14, 2008; DOI: 10.1177/1077559507313462

Eide, M., Gorman, G., Hisle-Gorman (2010). Effects of Parental Military Deployment on Pediatric Outpatient and Well-Child Visit Rates *Pediatrics* (2010) 126 (1): 22–27. https://doi.org/10.1542/peds.2009-2704

NASW (nd). *Social Work in the Armed Forces*. Retrieved from: https://www.socialworkers.org/Practice/Military-Veterans/Social-Work-in-the-Armed-Forces

# ISSUES OF TRAUMA, GRIEF, RESILIENCE AND THE ROLE OF THE INTERNATIONAL COMMUNITY IN POST-WAR SOCIETIES

**Professor Ann Petrila**
**Ann.Petrila@du.edu**
University of Denver Graduate School of Social Work

When civil society unravels to the point that massive human rights violations, crimes against humanity, war and genocide can occur, the post-conflict period is one of great challenge. When entire neighborhoods, communities, countries or regions are impacted by such violence, nearly everybody is affected. What does this mean, then, when everyone is trying to recover from horrific events, including those who would typically be in a position to lead and to help. When only the international community has been directly unscathed, how can plans be made, society rebuilt, basic needs met, and extreme psychosocial issues be addressed in a way that is culturally-appropriate if those who would typically be in charge of such initiatives are also struggling with their own trauma and grief responses. Yet, we know that interventions are most successful when designed with the leadership and input from those who are part of the impacted culture.

Social workers are uniquely qualified to be part of such post-war plans and interventions for a number of reasons. Social workers are trained to be systems-thinkers, meaning that assessing any situation beginning with a person- in-environment model known as PIE (Karls & Keefe, 2008) which includes the family, groups, neighborhoods, organizational norms, cultural norms and, sometimes most importantly, historical trauma issues that may be present, is how social workers are taught to think. It is through this

assessment model that the most useful, applicable, and effective intervention strategies can be built during post-war periods.

Another strength that social workers bring is an ability to assess and understand the impact of cumulative and collective trauma across all systems. Additionally, something that is frequently neglected in designing interventions in a post-war region is an understanding and acknowledgment of the long-standing and often potent presence of a particular type of grief that is a result of such trauma and unimaginable loss.

The evidence is clear that interventions such as Eye Movement Desensitization and Reprocessing (EMDR) can be useful when dealing with a trauma-response (Lenferink, Meyerbröker, and Boelen, 2020). It is reasonable to assume that trauma is present in most people who have been impacted by war at one level or another.

What is often missed, however, is an understanding of a grief response which is typically more long- lasting and often misunderstood. There is growing agreement among psychosocial professionals that it is as essential to pay attention to grief because it is sometimes less obvious than a trauma response. The two most accepted psychiatric diagnostic manuals, the *Diagnostic and Statistical Manual of Mental Disorders* known as the *DSM–5* (American Psychiatric Association) in the United States and the International Statistical Classification of Diseases and Related Health Problems known as the ICD (World Health Organization) used more broadly throughout the world, have added a diagnosis of Prolonged Grief Disorder to their guides. This has come after a series of studies that have outlined a set of symptoms often seen in individuals who have experienced extreme cumulative and collective trauma and loss. Prolonged grief comes later and lasts longer than an initial trauma response.

As published in Helio (2021), “Research across several decades showed many individuals had ongoing difficulties linked to bereavement that were significantly prolonged beyond expectations considered within cultural norms.” This type of bereavement, previously known as complicated grief, includes the following criteria which are often seen in post-war regions. Criteria from the ICD-11 and the DSM-5 that need to be present for a Prolonged Grief Disorder diagnosis are both listed below because even though they are very similar there are some differences which are worth noting.

It is important to reiterate that all of these symptoms must be considered within cultural norms. The question must be asked if it really fair to label such intense grief as a “disorder”? In some ways no, because who could reasonably expect anyone who has lived through a war and is still coming to terms with their loss and sorrow to be feeling or behaving any differently than they are. On the other hand, having official recognition of a prolonged response that is beyond cultural norms is helpful in many ways. It forces the international community to focus on interventions that may be useful in alleviating peoples’ pain.

Many cultures have a tradition of telling stories, of passing history down from generation to generation in this way. It is also sometimes the most comfortable, less threatening way for people to communicate with each other. An intervention that is gaining potency for both trauma and prolonged grief is the use of oral histories or personal narratives. Sometimes, however, people who have been victimized are encouraged to tell their stories, perhaps in a way that is too soon for them or in a way that is not culturally appropriate. A greater understanding of the need to avoid insisting that people tell their stories if they are not ready to do so is gaining ground (Cramer, 2020). Additionally consideration must be given to strategies that can increase the healing nature of this experience and decrease the

retraumatization that can occur when people tell the stories of their horrendous experiences.

Stories are best told by those who have lived through the experience, yet the timing must be right. Additionally, we should ask ourselves the question of whether it is fair to depend on those who are traumatized to make sure the broader world knows what happened. Yet if survivors are not encouraged to claim their own narratives, then others speak for them which is also not ideal.

Encouraging people to talk about their experiences and their trauma can be done in the context of a therapeutic session, or as part of an organized effort to preserve and document oral histories.

Preserving the voices of those who have survived war, mass atrocities and genocide is now recognized as an important and significant method of documenting history, while also providing survivors with an outlet to tell their personal stories. There are numerous approaches to obtaining and preserving these narratives. Those who have the opportunity to share their experiences sometimes choose to participate and sometimes do not. There are many reasons for either decision.

Whether survivor voices are preserved through a formal oral history protocol or through more informal sharing, or as part of a therapeutic session, people need to be ready before they can tell their stories. This is easier for some than for others, and there are those who may never be ready to have their voices heard.

Survivors describe why it is too difficult for them to share their stories. There are several reasons given, including the following summary:

- It gives them nightmares;
- They are afraid to open the "unknown box" that might explode;

- It would possibly harm them emotionally and be too painful;
- They want to forget, to have a new life, and think they can erase what happened;
- They think they have nothing to add because everything has already been said;
- They assume their story would not make any difference and would not change anything;
- They don't think anyone would be interested;
- They wonder why anyone would care since they did not care back when the atrocities were initially happening (Personal communication)

While it is too difficult for many survivors to tell their stories, there are others who have decided that they are now able to talk about their experiences and also to share the stories of those who did not survive. As a group, survivors tell their stories for the following reasons, summarized:

- It felt like a shadow of traumatic memory was following them where ever they went and they wanted to address it;
- They feel like they owe it to people who were killed;
- They believe they survived in order to tell the story of those who did not survive;
- The world needs to know because it can happen again;
- Future generations need to learn what happened to avoid having the same destiny;
- They want to contribute toward justice (Personal communication)

We were grateful that these survivors were willing and able to share with us their thoughts, ideas and concerns about talking to someone either privately or publicly about the

intimate details of their traumatic experiences. It is crucial and an honor to listen to those who have firsthand experience.

While the international community often has the resources that are needed and the organizational structure to intervene and help rebuild after a war, any services provided or programs developed must take into account cultural considerations and must be developed and provided as a partnership with local psychosocial professionals. Those who claim their own personal narratives are then the ones who control the telling of history. This is a journey best made through sharing resources and expertise and by walking side by side in partnership.

BIBLIOGRAPHY

American Psychiatric Association. DSM-5. https://www.psychiatry.org/psychiatrists/practice/dsm

Center for Prolonged Grief. Official Diagnostic Criteria.

https://complicatedgrief.columbia.edu/professionals/complicated-grief-professionals/diagnosis/

Cramer, J.A. (2020). First, do no harm: tread carefully where oral history, trauma, and current crises intersect. *The Oral History Review*, 47 (2).

https://www.tandfonline.com/doi/full/10.1080/00940798.2020.1793679

Helio (2021). DSM-5-TR to include prolonged grief disorder. *Psychiatry*, September 24. https://www.healio.com/news/psychiatry/20210924

Karls, J. M. & O'Keefe, M. (Eds.). (2008). *Person-in-environment (PIE) system: The PIE classification system for social functioning problems* (2nd Edition).Washington, DC: NASW Press.

Lenferink, L.I.M., Meyerbröker, K. & Boelen, P.A. (2020). PTSD treatment in times of COVID-19: A systematic review of the effects of online EMDR. *Psychiatry Research*,

November, 293. https://www.ncbi.nlm.nih.gov/pmc/articles/PMC7458053/

World Health Organization. International Statistical Classification of Diseases and Related Health Problems (ICD). https://www.who.int/standards/classifications/classification-of-diseases

# MÜHARİBƏDƏN SONRAKİ DÖVRDƏ SOSİAL İŞİN ROLU
# TRAVMA, KƏDƏR, DÖZÜMLÜLÜK MƏSƏLƏLƏRİ VƏ MÜHARİBƏDƏN SONRAKİ CƏMİYYƏTLƏRDƏ BEYNƏLXALQ İCTİMAİYYƏTİN ROLU

Professor Ann Petrila
Ann.Petrila@du.edu
Denver Universiteti Sosial İş Məktəbi

Vətəndaş cəmiyyəti kütləvi insan hüquqları pozuntularının, insanlığa qarşı cinayətlərin, müharibə və soyqırımların baş verə biləcəyi nöqtəyə çatdıqda, müharibədən sonrakı dövr böyük problemlərdən biridir. Bütün icmalar, ölkələr və ya bölgələr bu cür zorakılığın təsirinə məruz qaldıqda, demək olar ki, hər kəs zərər çəkir. İnsanlara rəhbərlik və kömək etmək iqtidarında olanlar da daxil olmaqla, hər kəsin bu dəhşətli hadisələrdən xilas olmağa çalışması bunun nə qədər böyük təsir dairəsinə malik olduğunu sübut edir. Bununla belə, biz bilirik ki, müdaxilələr təsirə məruz qalan mədəniyyətin bir hissəsi olan şəxslərin rəhbərliyi və töhfəsi ilə tərtib edildikdə daha uğurlu olur.Sosial işçilər bir sıra səbəblərə görə müharibədən sonrakı dövrdə hazırlanan plan və müdaxilələrin bir hissəsi olmaq üçün unikal xüsusiyyətlərə malikdirlər. Sosial işçilər sistem mütəfəkkirləri olmaq üçün öyrədilir, yəni insanın mühitdə öyrənilməsi modeli kimi təqdim olunan PIE modeli (Karls &

Keefe, 2008) və o modelə daxil olan ailəni, qrupları, icmaları, təşkilati normaları, mədəni normaları və bəzən ən əhəmiyyətlisi, mövcud ola biləcək tarixi travmatik problemlər barədə sosial işçilərə necə düşünmələrinin öyrədilməsidir. Məhz bu qiymətləndirmə modeli vasitəsilə müharibədən sonrakı dövrlərdə ən faydalı, tətbiq oluna bilən və təsirli müdaxilə strategiyaları yaradıla bilər.

Sosial işçilərin gətirdiyi başqa bir güc bütün sistemlərdə kumulyativ və kollektiv travmanın təsirini qiymətləndirmək və anlamaq bacarığıdır. Bundan əlavə, müharibədən sonrakı bölgəyə müdaxilələrin layihələndirilməsində tez-tez nəzərdən qaçırılan bir şey, belə bir travma və ağlasığmaz itkilərin nəticəsi olan müəyyən bir kədər növünün uzun müddət davam edən və çox vaxt güclü mövcudluğunun anlaşılması və etirafıdır.

Bununla belə, yanlış olan travmanın tez-tez nəzərdən qaçırılan, adətən daha uzunmüddətli olan və tez-tez səhv başa düşülən bir yas kədər reaksiyası kimi anlaşılmasıdır. Psixososial mütəxəssislər arasında yas tutmağa diqqət yetirməyin vacib olduğuna dair artan razılıq var, çünki bu, bəzən travma reaksiyasından daha gizli şəkildə baş verir. Ən çox qəbul edilən iki psixiatrik diaqnostika təlimatı, ABŞ-da DSM-5 (Amerika Psixiatriya Assosiasiyası) kimi tanınan Psixi Pozğunluqların Diaqnostik və Statistik Təlimatları və ICD (Ümumdünya Səhiyyə Təşkilatı) kimi tanınan Xəstəliklərin və Əlaqəli Sağlamlıq Problemlərinin Beynəlxalq Statistik Təsnifatı) hansı ki, bütün dünyada daha geniş şəkildə istifadə edilir, öz müştərilərinə Uzunmüddətli Kədər Pozğunluğu diaqnozunu təyin etdilər. Bu, həddindən artıq kumulyativ və kollektiv travma və itki ilə üzləşmiş şəxslərdə tez-tez görülən bir sıra simptomları əks etdirən bir sıra tədqiqatlardan sonra baş verdi. Uzun müddət davam edən kədər ilk travma reaksiyasından sonra gəlir və ondan daha uzun müddət davam edir.

Bir çox mədəniyyətlərdə hekayələr söyləmək, tarixi bu şəkildə nəsildən-nəslə ötürmək ənənəsi var. Bu həm də bəzən insanların bir-biri ilə ünsiyyət qurması üçün ən rahat, daha az təhlükəli üsuldur. Həm travma, həm də uzun müddətli kədər üçün təsirli bir müdaxilə şifahi tarixdən və ya şəxsi hekayələrdən istifadə etməkdir. Ancaq bəzən müharibə qurbanı insanlar hekayələrini, bəlkə də onlar üçün çox tez və ya mədəniyyətə uyğun olmayan bir şəkildə danışmağa təşviq olunurlar. İnsanlar bunu etməyə hazır deyillərsə, hekayələrini söyləmələrini israr etməkdən çəkinmək ən uyğun seçimdir. (Cramer, 2020). Bundan əlavə, bu təcrübənin müalicəvi xarakterini artıra bilən və insanlar öz dəhşətli təcrübələrinin hekayələrini danışarkən baş verə biləcək retravmatizasiyanı azalda biləcək strategiyalara diqqət yetirilməlidir.

Hekayələr ən yaxşı təcrübəni yaşayanlar tərəfindən danışılır, lakin vaxt düzgün olmalıdır. Bundan əlavə, daha geniş dünyanın nə baş verdiyini bildiyinə əmin olmaq üçün travmaya məruz qalanlardan asılı olmağın doğru olub-olmadığı sualını özümüzə verməliyik. Yenə də əgər sağ qalanlar öz hekayələrini danışmağa təşviq edilmirsə, o zaman başqaları onlar üçün danışır ki, bu da ideal deyil.

İnsanları öz təcrübələri və travmaları haqqında danışmağa həvəsləndirmək terapevtik seans kontekstində və ya şifahi tarixi saxlamaq və sənədləşdirmək üçün təşkil edilmiş səylərin bir hissəsi kimi həyata keçirilə bilər. Müharibədən, kütləvi vəhşiliklərdən və soyqırımdan sağ çıxanların hüquqlarının qorunması indi tarixi sənədləşdirmənin vacib və əhəmiyyətli üsulu kimi tanınır, eyni zamanda sağ qalanlara öz şəxsi hekayələrini danışmağa imkan verir. Bu rəvayətləri əldə etmək və saxlamaq üçün çoxsaylı yanaşmalar mövcuddur. Təcrübələrini bölüşmək imkanı olanlar bəzən bu tipli fəaliyyətlərdə iştirak etməyi seçir, bəzən isə yox. Hər iki qərarın bir çox səbəbi var.

Sağ qalanlar hekayələrini bölüşməyin nə üçün çox çətin olduğunu izah edirlər

- Onların kabuslar görməsinə səbəb olur;
- Partlaya biləcək "naməlum qutu"nu açmaqdan qorxurlar;
- Bu, onlara emosional olaraq zərər verə bilər və çox ağrılı ola bilər;
- Unutmaq, yeni həyata sahib olmaq istəyirlər və baş verənləri silə biləcəklərini düşünürlər;
- Hər şey artıq deyildiyi üçün əlavə edəcəkləri bir şey olmadığını düşünürlər;
- Onlar öz hekayələrinin heç bir fərq etməyəcəyini və heç nəyi dəyişməyəcəyini düşünürlər;
- Kiməsə maraqlı olacağını düşünmürlər;

Bir çox sağ qalanlar üçün hekayələrini izah etmək çox çətin olsa da, bir sıra insanlar da var ki, onlar indi öz təcrübələri haqqında danışa və həmçinin sağ qalmayanların hekayələrini paylaşa bilirlər. Bir qrup olaraq, sağ qalanlar öz hekayələrini ümumiləşdirərək aşağıdakı səbəblərdən danışırlar:

- Öldürülmüş insanlara borclu olduqlarını hiss edirlər;
- Onlar sağ qalmayanların hekayəsini danışmaq üçün sağ qaldıqlarına inanırlar;
- Dünya bilməlidir, çünki bu, yenidən baş verə bilər;
- Gələcək nəsillər eyni taleyi yaşamamaq üçün baş verənləri öyrənməlidirlər;
- Ədalətə töhfə vermək istəyirlər (Şəxsi ünsiyyət)

Beynəlxalq ictimaiyyət tez-tez müharibədən sonra müdaxilə etmək və bərpaya kömək etmək üçün lazım olan resurslara və təşkilati struktura malik olsa da, göstərilən hər hansı xidmətlər və ya hazırlanmış proqramlar mədəni mülahizələri nəzərə almalı və yerli psixososial mütəxəssislərlə tərəfdaşlıq şəklində hazırlanmalı və təmin edilməlidir. Öz şəxsi hekayələrini danışanlar tarixin nəql edilməsində iştirak edənlərdir. Bu, resursların və təcrübənin paylaşılması və

tərəfdaşlıqda birlikdə tarixin səhfələrində ən yaxşı şəkildə edilən səyahətdir.

## ƏDƏBİYYAT


1. American Psychiatric Association. DSM-5. https://www.psychiatry.org

1. Center for Prolonged Grief. Official Diagnostic Criteria. // https://complicatedgrief.columbia.edu/

2. Cramer, J.A. (2020). First, do no harm: tread carefully where oral history, trauma, and current crises intersect. *The Oral History Review*, 47 (2). // https://www.tandfonline.com/

3. Helio (2021). DSM-5-TR to include prolonged grief disorder. *Psychiatry*, September 24. // https://www.healio.com/news/psychiatry/20210924

4. Karls, J. M. & O'Keefe, M. (Eds.). (2008). *Person-in-environment (PIE) system: The PIE classification system for social functioning problems* (2nd Edition).Washington, DC: NASW Press.

5. Lenferink, L.I.M., Meyerbröker, K. & Boelen, P.A. (2020). PTSD treatment in times of COVID-19: A systematic review of the effects of online EMDR. *Psychiatry Research,* November, 293. https://www.ncbi.nlm.nih.gov/

**6.** World Health Organization. International Statistical Classification of Diseases and Related Health Problems (ICD). https://www.who.int/standards/

# EVSİZ VƏ BAXIMSIZ UŞAQ VƏ YENİYETMƏLƏRLƏ SOSİAL İŞ

**Salmanova Səlmi Elşən qızı**
**BDU-nun II kurs magistrantı**
**salmisalmanova16@mail.ru**

Müasir dövrdə evsiz və baxımsız uşaq və yeniyetmələr problemi istər beynəlxalq, istərsə də milli səviyyədə diqqəti cəlb edən əsas problemlərdən biridir. Sosial cəhətdən az müdafiə olunan vətəndaşlar kateqoriyasına daxil olan evsiz və baxımsız uşaq və yeniyetmələrin layiqli həyat səviyyəsinin təmin edilməsi və onların yaşayış şəraitlərinin yaxşılaşdırılması Azərbaycan dövləti tərəfindən aparılan sosial siyasətin priotet istiqamətlərindən biridir.

Aparılan tədqiqatlar onu göstərmişdir ki, hal-hazırda Azərbaycanda minlərlə küçə uşağı var. Yalnız uşaqlar deyil valideynlərini (qəyyumlarını) və evlərini itirmiş, küçələrdə yaşayan və işləyən yeniyetmələr də buraya aid olunur. Onların böyük bir qismi internatdan qaçmış, ailələrini tərk etmiş və ya hansısa ailəyə övladlığa verilmiş uşaqlardır. Küçə uşaqları müxtəlif məhsulların satılması, tikinti, yüklərin daşınması, çatdırılması, maşınların yuyulması, və s. kimi işlərdə çalışdırılır və bəzən də oğurluğa və dilənçiliyə məcbur edilirlər. Eyni zamanda tədqiqatlar aparılarkən məlum olmuşdur ki, küçə həyatına məruz qalan, baxımsız uşaq və yeniyetmələrin əksəriyyəti ölkənin regionlarından gəlmədir. Belə ki, onlar ailə münaqişələrindən canlarını qurtarmaq üçün çıxış yolu olaraq Bakıya üz tuturlar. Cənub və şimal regionlardan gələn uşaq və yeniyetmələr sayı isə çoxluq təşkil edir [1].

Mütəxəssislərin rəyinə görə uşaq və yeniyetmələrin küçə həyatına məruz qalmasının və bu halların artmasının səbəbləri müxtəlifdir. Bura evdə məruz qaldıqları psixoloji, cinsi zoraklılıq, yoxsulluq, valideyn alkoqolizmi, narkotizasiyası,

uşağın ehtiyaclarına diqqət yetirilməməsi, valideynlərin ölümü, valideynlərin laqeydliyi, etinasızlığı vəs. daxildir.

BMT-nin və digər beynəlxalq təşkilatların səyləri nəticəsində evsiz və baxımsız uşaq və yeniyetmələrin müdafiəsi problemi dünya ictimaiyyətinin diqqət obyektinə çevrilib. Uşaqların hüquqlarınının qorunmasına dair ən mükəmməl beynəlxalq sənəd 1989 il noyabrın 20-də BMT tərəfindən qəbul edilmiş "*Uşaq Hüquqları* haqqında" *Konvensiyasıdır.* Bu Konvensiyaya 189 ölkə qoşulmuşdur [2]. Azərbaycan Respublikası bu Konvensiyanı 1992 ildə ratifikasiya etmişdir.

Bu Konvensiyanı ratifikasiya etmiş ölkələr uşaqların hüquqlarının müdafiəsi və onların yaşayış şəraitinin yaxşılaşdırılması ilə bağlı üzərinə bəzi öhdəliklər götürmüşdür. Konvensiyada qeyd olunurdu ki, hər bir uşağın yaşamaq, öz fikrini azad ifadə etmək, əqidə, vicdan və din azadlığı, uşağın assosiasiyalara üzv olma azadlığını və dinc yığıncaqlarda iştirak etmək, sosial təminat imtiyazlarından istifadə etmək və s. kimi bir çox hüquqları var və onlar irqindən, dərisinin rəngindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən asılı olmayaraq öz hüquqlarından istifadə etməlidirlər. İştirakçı dövlətlər isə bu Konvensiyada tanınan hüquqların həyata keçirilməsi üçün bütün lazımi qanunvericilik, inzibati və digər tədbirləri görməlidirlər.

Həssas qrupa daxil olan evsiz və baxımsız uşaq və yeniyetmələrin hüquqlarının müdafiəsi məqsədilə 1998-ci il 18may tarixində "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikası Qanunu qəbul olunub. Bu Qanun Azərbaycan Respublikasının Konstitusiyasına, Uşaq Hüquqları Bəyannaməsinə, Uşaq Hüquqlarına dair Konvensiyaya və digər beynəlxalq hüquq normalarına uyğun olaraq Azərbaycan Respublikasında uşaqların hüquqlarını və azadlıqlarını, uşaqlar barəsində dövlət siyasətinin əsas prinsiplərini, onların müdafiəsi sahəsində dövlət orqanlarının, digər hüquqi və fiziki

şəxslərin vəzifələrini müəyyən edir. Bu qanunun müddəalarına görə uşaqların tərbiyə, azadlıq və şəxsi toxunulmazlıq, təhsil almaq, həyat və sağlamlığının mühafizəsi, zəruri maddi təminat və s. kimi hüquqları vardır [4]. Bu qanunda eyni zamanda qeyd olunur ki, dövlət sosial, hüquqi, iqtisadi, tibbi və tərbiyəvi vasitələrlə uşaqları istismarın bütün növlərindən, ağır, zərərli və təhlükəli əməkdən və təsirlərdən mühafizə edir. Bu qanun və digər normativ hüquqi aktlar evsiz və baxımsız uşaq və yeniyetmərin müdafiəsi üçün hüquqi bazanı formalaşdırır.

Evsiz və baxımsız uşaq və yeniyetmələrlə sosial iş çoxaspektli xarakterə malikdir. Bu fəaliyyət evsiz və baxımsız, küçə həyatına məruz qalmış uşaqların və yeniyetmələrin ehtiyaclarının ödənilməsinə yönəldilmişdir. Bu zaman sosial iş uşaq və yeniyetmərin problemləri ətrafında təşkil olunacaqdır [3]. Evsiz və baxımsız uşaq və yeniyetmələrə sosial xidmət göstərən bütün mütəxəssislərin əsas vəzifəsi uşaqların və yeniyetmələrin küçə həyatına məruz qalmasının qarşısını almaq üçün profilaktik tədbirlər görməkdən və küçə həyatına məruz qalmış uşaq və yeniyetmələrin həyat səviyyəsinin yaxşılaşdırmaqdan, onların sosial problemlərini aradan qaldırmaqdan, qazandıqları mənfi vərdişləri tərgitməkdə onlara kömək etməkdən ibarətdir.

Ədəbiyyat

1. https://e-qanun.az/framework/3292
2. https://az.wikipedia.org/wiki/U%C5%9Faq_h%C3%BCquqlar%C4%B1_Konvensiyas%C4%B1
3. Проблемы социальной работы с безнадзорными детьми /https://peterglinskiy.ru/az
4. http://scfwca.gov.az/store/media/

# Müasir Azərbaycan cəmiyyətində yaşlı insanların sosial müdafiəsi mexanizmi

**Səbuhi Elçin oğlu Ələsgərov**
Bakı Dövlət Universitetinin Sosial iş kafedrasının
"Həyat fəaliyyətinin müxtəlif sahələrində sosial iş"
ixtisası üzrə II kurs magistrantı

Bu məqalədə yaşlıların sosial müdafiəsi məsələlərini əhatə edən "Müasir Azərbaycan cəmiyyətində yaşlı insanların sosial müdafiəsi mexanizmi" haqqında 40 nəfər respondent arasında keçirilən sorğu,onun keçirilməsi ilə alınan cavablar və onlar əsasında əldə olunan nəticə haqqında ətraflı məlumat təqdim olunub. Sorğu 2022-ci il, 1-20 oktyabr tarixləri arasında Azərbaycanın müxtəlif bölgələrindən olan şəxslər arasında keçirilmişdir. Sorğuda iştirak edənlərin yaşı, cinsi, təhsil və ailə vəziyyətini müəyyənləşdirməyə yönəlmiş suallar qeyd olunub. Sorğuda iştirak edənlərin yaşlılıqla bağlı təqaüdə çıxma yaşı öyrənilib, təqaüd yaşının artırılması və ya azaldılması ilə bağlı fikirlər müzakirə olunub. Müasir Azərbaycan ilə iyirmi il əvvəlki Azərbaycandakı yaşlıların sosial müdafiəsi mexanizmlərinin müqayisə etmək, inkişaf və əksiklikləri müəyyənləşdirmək və bu barədə cəmiyyətin müxtəlif siniflərinin rəyini öyrənmək üçün suallar təqdim olunub. Həmçinin, yaşlıların sosial müdafiəsi məsələrinin paytaxt və bölgələrdə nə dərəcədə eynilik təşkil etdiyi, sosial müdafiə mexanizminin tətbiqində dövlətlə yanaşı QHT-lərin rolunun nə dərəcədə önəmli olması ilə bağlı respondentlərin fikirləri alınıb. Azərbaycanda yaşlıların rifahının artırılması məsələsində sosial, iqtisadi və psixoloji aspektlərin nə qədər nəzərə alındığını, onlara ayrılan diqqətin daha çox hansı yöndə artırılmalı olduğu və müdafiə mexanizminin tətbiqində önəmli rol oyayan sosial işçilərin müdafiə tədbirləri zamanı mentalitet

dəyərlərini nəzərə almaları ilə bağlı suallar ünvanlanıb. Əlavə olaraq, yaşlıların həm sosial, həm də psixoloji vəziyyətlərinə müsbət təsir edə biləcək sosial layihələrin vacibliyi və həmin layihələrdən biri olan “Üçüncü bahar” layihəsi haqqında suallar respondentlərə ünvanlanıb.

**Açar sözlər:** yaşlanma, təqaüd yaşı, sosial müdafiə mexanizmi, ahılların rifahı, dövrlərin müqayisəsi, dövlət və QHT-lərin rolu, sosial layihələr, bölgələrdə sosial müdafiə, “Üçüncü bahar”.

**Key words:** aging, retirement age, social protection mechanism, welfare of the elderly, comparison of periods, role of the state and NGOs, social projects, social protection in regions, "Uchuncu bahar".

**Ключевые слова:** старение, пенсионный возраст, механизм социальной защиты, благосостояние пожилых людей, сравнение периодов, роль государства и общественных организаций, социальные проекты, социальная защита в регионах, “ Учунчу бахар”.

Sorğu 2022-ci ilin 1-15 oktyabr tarixində Azərbaycanın müxtəlif bölgələrində 40 nəfər respondent arasında keçirilmişdir. Aşağıda diaqramlar vasitəsilə respondentlərin verdikləri cavablar və onlar arasındakı nisbətə əsasən gələ bilinəcək nəticələr müzakirə olunacaq.




Sorğuya ilk olaraq respondentlərin cinsləri öyrənilməklə başladı. 40 nəfərdən bir şəxs cinsini qeyd etməmişdir. Geriyə qalan 39 nəfər arasında isə 20 kişi, 19 qadın sorğuda iştirak etmişdir. Gender nisbətlərinin bu

qədər yaxın olması məqsədli şəkildə edilmişdir ki, rəylər və cavablar daha obyektiv, həm də hər iki cinsin nümayəndələrinin maraqlarına uyğun olsun.




Yuxarıda göstərilən diaqramda isə sorğuda iştirak edənlərin yaşları faiz nisbətilə qeyd olunmuşdur. Bunun nəticəsiolaraq, iştirakçılardan 6 şəxs 18-30 yaş aralığında, 8 şəxs 30-45 yaş aralığında, 8 şəxs 45-60 yaş aralığında, geriyə qalan 18 nəfər isə 60 və daha yüksək yaşdadırlar. Mövzu hər nə qədər yaşlıların sosial müdafiəsi ilə bağlı olsa da, hər yaş qrupundan şəxsin burada iştirakı həm onlarda sosial dəyərlər və yaşlıların rifahının yüksəldilməsinə dair məsələlərə daha çox diqqət yaratmağa zəmin yaratmış, həm də məsələyə kənardan baxmağa və obyektiv rəyin formalaşmasına kömək etmişdir. Təbii ki, mövzu birbaşa yaşlıların özü ilə bağlı olduğu üçün respondentlərin böyük hissəsi yaşlılar arasından seçilmişdir. Çünki, normal olaraq, situasiyanın içərisində olan, dövlətin sosial siyasəti və sosial müdafiə ilə bağlı bütün tədbirlərin birbaşa iştirakçısı olan və onlardan müsbət və ya mənfi təsir alan şəxslər də elə yaşlılardır.




Bir digər sual isə respondentlərin ailə vəziyyəti ilə bağlıdır. İştirakçılardan 9 nəfər subay, 9 nəfər boşanmış, 5 nəfər dul, geriyə qalan 17 nəfər isə evlidir. Burada əsas məqsəd yaşlıların, həmçinin, onlarla bilrikdə digər respondentlərin də ailə vəziyyətini müəyyənləşdirməkdir. Çünki bu sual növbəti suallara və onların cavablarına bir növ zəmin rolu oynayır. İştirakçılardan dul olan 5 şəxsdən 1-i 45-60 yaş aralığında, geriyə qalan 4 nəfər 60 və daha çox yaşda olan ahıllardır. Bir digər diqqət çəkən məqam isə boşanmış olan 9 şəxsdən heç biri ahıl yaşda deyil. Bu da onların ahıl yaşda daha fərqli sosial və ünsiyyət dəyərlərinə sahib olduqlarını, yəni, daha çox birinə ehiyacları olduğunun göstəricisdir.




Növbəti sual isə yaşlılar başda olmaqla sorğuda iştirak edən şəxslərin kiminlə yaşaması ilə bağlıdır. İştirakçılardan 8 nəfər tənha, 8 nəfər həyat yoldaşı ilə, 14 nəfər həm həyat yoldaşı, həm uşaqları ilə, 7 nəfər valideynləri ilə, geriyə qalan 3 nəfər isə qocalar evində yaşayır. Qocalar evində olan şəxslərlə müəyyən vasitəçiliklə sorğu götürmə şansı yarandı. Onlar dövlətin sosial müdafiə sisteminin "qanadları altında" olduğu üçün həmin şəxslərdən sorğu götürmək cari vəziyyətlə bağlı daha ətraflı məlumat almaq üçün olduqca faydalı oldu. Tənha yaşayan 8nəfərdən 2-i isə bundan əvvəlki diaqramda dul şəxslər arasında qeyd olunan ahıl yaşlı şəxslərdəndir. Yaşlıların böyük bir qismi isə həyat yoldaşı, onunla yanaşı övladları ilə də birlikdə yaşayırlar. Hər sosial sinifdən və ailə vəziyyətindən olan şəxslərin , xüsusilə yaşlıların sorğuya cəlb olunması, sosial müdafiə sisteminin nə dərəcədə bərabərhüquqlu tətbiq olunduğunun, həmçinin tənhalıq və s. kimi vəziyyətlə qarşı-qarşıya olan ahıllara yaradılan xüsusi imtiyazların öyrənilməsi və təhlili baxımındam olduqca faydalıdır.




Sorğuda iştirak edən şəxslərin cavablarının obyektiv və realistliyi onların təhsili, dünyagörüşü və s. kimi faktorlarla birbaşa əlaqəlidir. Bu səbəbdən, digər bir sual respondentlərin təhsil səviyyəsini müəyyənləşdirmək üçün əlavə olunub. İştirakçılardan 15 nəfər ali, 10 nəfər natamam ali, 9 nəfər orta, 4 nəfər natamam təhsilli olmaqla, geriyə qalan 2 nəfər isə tamamilə təhsilsizdir. Təhsil səviyyəsinin nisbəti, demək olar ki, bütün yaş kateqoriyaları arasında bərabər paylanmışdı. Ancaq sorğuda iştirak edənlərin böyük əksəriyyətinin yaşlılar olduğunu nəzərə aldıqda natamam orta və təhsilsiz şəxslər də yaşlı nəslin nümayəndələri arasındadır. Bu hal da Azərbaycan Respublikasının keçən əsr boyunca SSRİ-nin tərkibində olması və həmin imperiyanın insanların təhsilindən çox fiziki əməyə və onun istismarına yönəldiyini nəzərə aldıqda bu, olduqca normal hal olaraq qəbul oluna bilər.

İlk suallar respondentlərlə bir növ ilkin tanışlıq və özlərinə aid bəzi məlumatları qeyd etməkdən ibarət idi. Həmin suallar artıq növbəti sualdan etibarən müzakirə olunacaq dövlətin sosial müdafiəsi ilə bağlı suallara zəmin rolu oyanıyırdı.

Növbəti sual açıq şəkildə iştirakçılara təqdim olunmuşdur. Burada onların təqaüd yaşının neçə olması, müasir dövrdə insanların pensiya yaşının ideal olub-olmamasına münasibəti, əgər deyilsə artırılması yoxsa azaldılmasının tərəfdarı olduqları ilə bağlı sual ünvanlanıb. Sualın ünvanlandığı respondentlərdən

7 nəfər şəxs sadəcə pensiya yaşını qeyd edib və ideal olub olmaması ilə bağlı heç bir fikir bildrimədi. 6 nəfər şəxs isə təqüd yaşının 65 yaş olmasını ideal adlandırıb, artırılması və ya azaldılmasının tərəfdarı deyillər. 7 nəfər şəxs təqaüd yaşının artırılmasını tələb edir, bu suala cavab verən şəxslər çoxu artıq pensiya yaşına çatmış şəxslərdir ki, onlar hələ də işləməyə güclərinin olduğunu və təqaüdə çıxdıqdan sonra fəaliyyətsizlk həyatlarından çox sıxıldılqlarını bildirdilər. əlavə olaraq isə, müəssisənin fəaliyyəti və məqsədlərindən asılı olmayaraq təcrübəli kadrların olması və onların baxış bucağının çox önəmli olduğunu vurğulayırlar. İştirakçılardan 11 nəfər isə təqaüd yaşının azaldılmasınınn tərəfdarıdırlar. Azaldılmasının tərəfdarı olan şəxslər arasında yaşlılar olsa da gənc və orta yaşlı şəxslər daha çox üstünlük təşkil edir. Ahıllar təqaüd yaşının azaldılmasını ona görə istəyirlər ki artıq işləməkdən yorulublar və ailələrinə daha çox vat ayırmaq istəyirlər. Gənclər isə iş yerlərindəki sıxlıq və vakansiyaların azlığına görə yaşın azaldılmasını üstün tuturlar, onların fikrincə, əgər azaldılsa həm yaşlı insanlara istirahət üçün daha çox vaxt imkanı yaranar, həm də onları daha enerjili, çevik və həvəsli gənclərin əvəz etməsi müəssisələrin də inkişafına əsaslı şəkildə təsir edər.



Bu sual respondentlərdən müasir Azərbaycanın sosial müdafiə sistemi ilə 20 il əvvəlki müdafiə sistemini müqayisə etmələri və bunun nəticəsində carı vəziyyətdə mövcud olan müsbət və mənfi keyfiyyətləri bildirməklə bağlıdır. İştirakçılardan 8 nəfər keçmişlə müqayisədə çox dəyişikliyin olmadığını,bununla da müsbət və ya mənfi hər hansı dəyişiklərin olmadığını və ya eyni nisbətdə olduğunu bildirdilər. Digər 8 nəfər şəxs isə 20 il əvvəlki dövrdə yaşlıların sosial müdafiəsinə daha çox diqqət ayrıldığını, indi o nisbətin xeyli azaldığını və bunun da bütün sosial sistem daxil olmaqla yaşlılara da mənfi təsir etdiyini qeyd etdilər. Respondentlərdən 10 nəfər isə keçmişlər müqayisədə sosial müdafiə sisteminin çox yaxşı olduğunu, müsbət halların üstünlük təşkil etdiyini və cari vəziyyətdən razı olduqlarını bildirdilər. Geriyə qalan 14 nəfər isə həmin interval müddətində həm mənfi, həm müsbət halların olduğunu, ancaq bu nisbətin müsbətə doğru dəyişəcəyi və dövlətin xalqın mənafeyini daha çox düşünəcəyinə inandıqlarını bildirdilər. Bu sualın nəticəsi olaraq 40 respondentdən cari vəziyyətdən razı olanlar olsa da, böyük əksəriyyət mənfi halların daha çox olduğu və ya cari vəziyyətin yaxşı olmasa da düzələcəyinə və müsbət yöndə inkişafına ümid bəsləsiklərini bildirdilər.



Bu diaqramda göstərilən faiz göstəriciləri əvvəlki sualla birbaşa əlaqəlidir və insanların yaşlıların sosial müdafiəsi ilə bağlı məsələyədən nə dərəcədə razı, narazı və ya buna qarşı neytral olduqlarını göstərir. Respondentlərdən 10 nəfər cari andakı sosial müdafiə sistemi və onla bağlı fəaliyyətlərlə razı deyil. 12 nəfər cari vəziyyəti kafi olaraq qiymətləndirir .Geriyə qalan 18 nəfər isə 9-9 nisbətində vəziyyəti yaxşı və ya çox yaxşı olaraq qiymətləndirirlər. Ümumi cavabların nisbətinə baxdıqda vəziyyətlə razı olmayan və onu kafi olaraq qiymətləndirən şəxslər ümumi sorğuda iştirak edənlərin yarısından çoxunu təşkil edir. Bu da hələ də mənfi təsir edən və ya tam tətbiq olunmayan layihə və tədbirlərin olduğunun göstəricisidir.




Bu sualda insanlara müasir dövrdə Azərbaycanda yaşlıların sosial müdafiəsi dedikdə daha çox hansı sahələrə daha çox diqqət edilməlidir deyə soruşuldu. Respondentlərdən 8 nəfər insanların icbari təqaüdə çıxma yaşlarının aradan qaldırılmasının, yəni müdafiə sistemində sosial-iqtisadi məsələlərə daha çox diqqət ayrılmasının tərəfdarıdır. 10 nəfər iştirakçı sağlamlıqla bağlı problem və məsələlərin hər zaman daha ön planda olmalı olduğunu, buna görə də, sağlamlıq problemləri olan ahıllara həm maddi, həm də mənəvi daha çox yardım edilməsinin, yəni, sağlamlıq, sosial-iqtisadi və psixososial məsələlərə eyni anda və daha çox diqqət ayrılmalı

olduğunu düşünürlər. Digər 11 nəfər ahıllarla bağlı məsələlərin bir çoxunun maddiyyatla bağlı olduğunu, buna görə də, dövlətin pensiyaların məbləğinin artırılması, yəni, sosial-iqtisadi məsələlərə daha çox nəzarət etməsini tələb edirlər. Son olaraq, geriyə qalan 11 nəfər isə, əsasən, təqaüdə çıxdıqdan sonra yaşlıların sosial nüfuz və münasibətlərdə geriləməsinin onların mənəvi və psixoloji vəziyyətinə mənfi təsir etdiyini, bu səbəbdən də, yaşlı insanları daha çox sosial fəaliyyət sahələrinə cəlb etməyin, yəni onların psixososial rifahının artırılmasının digər məsələlərdən daha önəmli olduğunu vurğulayırlar. Suala cavab verən iştirakçıların sayları arasında çox da ciddi fərq yoxdur, bu da sosial müdafiə sisteminin bütün aspektlərində müəyyən dərəcədə əksiklər olduğunu və məsələyə daha ciddi yanaşılmalı olduğunu göstəricisidir.




Növbəti olaraq, diaqramda cavablarının nisbəti qeyd olunan sual yaşlıların sosial müdafiəsinə yönəlmiş tədbir və fəaliyyətlərin paytaxtla müqayisədə bölgələrdə nə qədər eynilik təşkil etdiyi ilə bağlıdır. Resondentlərdən 10 nəfər şəxs sosial fəaliyyətlərin Azərbaycnın bütün bölgələrində eynilik təşkil etdiyini, 11 nəfər isə müəyyən fərqlər olsa da gözəçarpan ciddi fərqlər olmadığını bildirir. Digər 11 nəfər isə paytaxt Bakıya nisbətən rayon və ətraf ərazilərdə qocaların sosial fəaliyyətə cəl olunması başda olmaqla sosial tədbirlərin həyata keçirilməsinə çox diqqət və nəzarə olunmadığını vurğulayır. Geriyə qalan 8 nəfər də ,eynilə, rayonlarda bu məsələlərə az diqqət

yetirildiyini, xüsusən də, sosial xidmət və yardımların davamlı və fasiləsiz həyata keçirilməsi məsələlərində ciddi əksiklər olduğunu vurğulayır. Müsbət və mənfi rəylər arasında say baxımından fərq olsa da, bu fərq çox da ciddi deyil. Bu da paytaxta nisbətən rayon və ətraf ərazilərdə diqqət, qayğı və nəzarət məsələlərində müəyyən əksiklər olduğunu və ciddi diqqət yetirilməli olduğunu göstərir ki, həmin fərqlər mövcudluğu sistemin tam və əksiksiz şəkildə işləməsinəən böyük əngəldir.




Növbəti isə yaşlıların sosial müdafiəsi mexanizmlərindən biri olan, yaşlıların sosial fəaliyyət sahələrinə cəlb olunması məsələsi ilə respondentlərin razı olub-olmaması ilə bağlı sualdır. Respondentlərdən 12 nəfər sosial layihə və tədbirləri olduqca müsbət qiymətləndirir və yaşlıların bu tip fəaliyyətlərə cəlb olunmasını təqdirə layiq hesab edirlər. 8 nəfər isə bu tip tədbirlərin faydalı olacağını düşünmür ancaq tənhalıq və fəaliyyətsizlikdən sıxılan ahılların cəlb edilməsini müsbət qiymətləndirir. 10 nəfər şəxs isə bu tip tədbirləri tamamilə faydasız hesab edir və vaxt itkisi kimi qiymətləndirir. Son olaraq, geriyə qalan 10 nəfər isə yaşlıları bu tip sosial fəaliyyətlərə cəlb etmək əvəzinə maddi baxımdan sosial yardımları genişləndirərək, onlara öz sosial mühit və fəaliyyətlərini seçmək və formalaşdırmaq imkanı verməyi daha məqbul və məqsədəuyğun hesab edir. Nəticələrdən də

göründüyü kimi, insanlar yaşlıların sosial fəaliyyətə cəlb olunması məsələsində iki əks qütbə bölünürlər. Təbii ki, bu qütblər arasında soyuqluğun aradan qaldırılması, həmçinin, yaşlı nəsilə daha çox faydalı tədbirlərin həyata keçirilməsi cəmiyyətin müsbət rəyini almaq baxımından olduqca vacibdir.




Diaqramda cavablarının nisbəti göstərilən sual yaşlıların sosial müdafiəsində dövlətlə yanaşı QHT-lərin də fəaliyyət göstərməsinin nə qədər məqsədə uyğun olması və bunu necə qiymətləndirdikləri ilə bağlıdır. İştirakçılardan 8 nəfər dövlətin fəaliyyət və tədbirlərinin kifayət etdiyini əlavə dəstək və yardıma ehtiyac olmadığını qeyd edir. 10 nəfər QHT-lərin rol və tədbirlərindən çox xəbərdar və məlumatlı olmasalar da, dövlətin bütün yükü daşımaması baxımından onların fəaliyyətinin müsbət addımlara yol açacağına ümid edirlər. Digər 7 nəfər isə yaşlıların QHT təşkilatlarının yardımından olduqca məmnun olduğunu və dövlətin vahid sosial siyasət modeli yaratmaqdansa belə təşkilatlara maliyyə dəstəyi etməsinə daha da üstünlük verməsini tələb edirlər. Geriyə qalan 15 nəfər isə həm dövlət, həm QHT-lərin birlikdə fəaliyyət göstərməsinin daha yaxşı olduğunu , ahıl yaşlı insanların bu imkanlardan daha rahat və sərfəli şəkildə istifadə edə biləcəyini vurğulayırlar. Dövlət son 5 il ərzində vahid sosial sistem yaratmaq adına QHT-lərin fəaliyyətlərinə müəyyən məhdudiyyətlər qoymuşdur, ancaq cavablardan da göründüyü

qədərilə belə nəticəyə gəlmək olar ki, dövlət QHT-lərin bu sahədə tədbirlərinə məhdudiyyətlər qoymaq əvəzinə onlara daha geniş imkanlar və maddi yardım təmin eməklə onların xalqın. əsas da, yaşlı nəsilin rifahının qaldırılması mövzusunda rollarını artıra bilər.




Növbəti sual Azərbaycanda ahılların sosial müdafiə mexanizmində yaşlı şəxslərə xüsusi ehtiram, qayğı və hörmət göstərmək kimi mentalitet dəyərləri nə dərəcədə nəzərə alınmalı olduğu və bunun Azərbaycan ilə digər ölkələr arasında əsaslı fərqlər yaradıb-yaratmadığı ilə bağlıdır. İştirakçılardan 13 nəfər Azərbaycanda sosial müdafiə fəaliyyətlərinin tətbiqi və həmçinin burada iştirak edən şəxslərin(sosial işçilərin) yaşlılara xüsusi qayğı və hörmətlə yanaşmasını onların mentalitet və dəyərlərimizə bağlılığın göstəricisi kimi dəyərləndirir və bu dəyərlərə sahib çıxmağı olduqca müsbət qiymətləndirir. Həmçinin, bu cür yanaşmanı Azərbaycan və digər ölkələr arasında sistemin tətbiqi baxımından əsas fərq kimi görürlər. 12 nəfər isə mentalitet dəyərlərinin bu sistemdə çox da nəzərə alındığını düşünmür və bu baxımdan digər ölkələrlə aramızda çox fərq görmədiklərini bildirir. Ancaq onlar da sosial xidmət zamanı mentalitet və dəyələrimizə hörmətlə yanaşılmasının tərəfdarıdır və bu mövzuda əksikləri aradan qaldırmağın daha mümkün olduğunu vurğulayırlar.

Digər 13 nəfər isə mentalitet dəyərlərinin nəzərə alınması doğru olmadığını, hər kəsə obyektiv və bərabərhüquqlu yanaşılmalısının daha doğru adam addım olacağını düşünür. Son olaraq isə, 2 nəfər yuxarıda qeyd olunan variantlardan heç birini seçməyərək öz variantlarını bildirməyi üstün tutdular, ancaq cavablarının əsası da, eynilə, variantlarda qeyd olunmuş cavablara gəlib çıxır.

Haqqında məlumat qeyd olunacaq sual açıq tipli olaraq qeyd olunub. Burada iştirakçılara ümumilikdə Azərbaycan Respublikası vətəndaşı olan ahıl yaşlı insanların sosial, psixoloji və iqtisadi vəziyyətini qiymətləndirmələri və yaşlıların sosial rifahının artırılması üçün hansı addımlar atılmalı olduğu haqqında sual ünvanlandı. Respondentlərdən 13 nəfəri dövlətin diqqət, qayğı və nəzarətinin hər üç aspektə yönəltməli olduğunu, hər üç sahədə yaşlıların rigahı baxımından gözəçarpan geriliklər olduğunu bildirir. İştirakçılardan 9 nəfər yaşlıların iqtisadi rifahına daha çox diqqət yetirilməli olduğunu və digər tipli problemlərin böyük əksəriyyətinin də bu problemdən qaynaqlandığını bildirirlər. 6 nəfər onların sosial qaynaqlı problemlərinin həllinə üstünlük verilməsinin tərəfdarıdır. Digər 7 nəfər isə ahılların problemləri arasında psixoloji problemlərin olduqca ciddi hal aldığını və bu qəlibdən olan problemlərə daha çox diqqətin ayrılmalı olduğunu bildirir. Son olaraq, 5 nəfər isə yaşlıların hər üç aspektdə rifahının yaxşı olduğunu və dövlətin bu sahələrə diqqət ayırmaqla bağlı keçirəcəyi tədbir və fəaliyyətlərin çox olacağına inamlarını bildirirlər. Cavablara əsasən, respondentlərin böyük əksəriyyətinin yaşlıların rifahı ilə bağlı cari vəziyyəti o qədər də yaxşı qiymətləndirmir və sahədə inkişaf tələb edirlər.

Son sual isə "Üçüncü bahar" sosial layihəsi haqqındadır. İnsanlara bu layihə haqqında nə qədər məlumatlı olduqları, layihənin hansı məqsədlərə xidmət etdiyi, tarixi və s. ilə bağlı suallar ünvanlanıb. İştirakçılardan 15 nəfərin bu layihə

haqqında tamamilə məlumatı yoxdur. 10 nəfər isə layihədən xəbərdar olsalar belə bunu faydasız hesab edir, yaşlıların bir qismi isə iştirak üçün dəvət alsalar da maraqlı gəlmədiyini bildirir. Geriyə qalan 15 nəfər isə layihədən xəbərdardır. Onlar layihə haqqında yaxınlarından, telekanallardan və ya sosial şəbəkələrdə qarşılarına çıxan paylaşımlardan bu layihə haqqında müəyyən məlumata malikdirlər. Onlar bu tip layihələri müsbət qiymətləndirirlər, hətta, qocalar evində yaşayan ahıllar bu layihələrdə iştirak edib və layihənin əsas məqsədinin nəticəsi olaraq yeni bilik və bacarıqlar da əldə ediblər. Sorğuda iştirak edənlərdən təxminən 40%-nin bu tip layihə və layihələrdən məlumatlı olması müsbət hal kimi qiymətləndirilə bilər. Bu tip layihələrin sayının artırılması həm yaşlılar üçün daha xoş və əyləncəli istirahət müddəti keçirməyə zəmin yaradar, həm də bütün yaş kateqoriyalarında olan şəxslərin dövlətin sosial siyasətindən az da olsa məlumatlı olmasına şərait yaradar.

## Müasir Azərbaycan cəmiyyətində yaşlı insanların sosial müdafiəsi mexanizmi

**Ələsgərov Səbuhi**

### Xülasə

Bu məqalənin mövzusu adından da göründüyü kimi, “Müasir Azərbaycan cəmiyyətində yaşlı insanların sosial müdafiəsi mexanizmi” ilə bağlıdır. 2022-ci il, 1-20 oktyabr tarixləri əsasında keçirilmiş, 15 sual əsasında hazırlanmış sorğu, arasında yaşlıların üstünlük təşkil etdiyi, müxtəlif yaş kateqoriyalarından olan 40 nəfər respondentin cəlb olunmasıyla hazırlanmışdır. Sorğunun əsas məqsədi sosial müdafiə mexanizminin nə cür işlədiyi, onun təsir dairəsinin nə qədər geniş olması və bu mexanizmin iştirakçıları olan yaşlıların buradan necə bəhrələndiyi ilə bağlıdır. Sorğunun ilk 5 sualı respondentlərin bir növ şəxsi məlumatlarını əhatə edən cins, yaş, təhsil, ailə vəziyyəti və kimlə yaşadıqları ilə bağlı

suallardır. Bu sualların verilməsinin əsas məqsədi isə əvvəldən iştirakçılar haqqında və onların biopsixososial vəziyyətləri haqqında məlumatlı olmaq və növbəti sualları ona əsasən təqdim etməkdir. Respondentlərin bu suallarla bağlı cavab göstəriciləri artıq yuxarıda qeyd və təhlil olunub. Burada iştirakçıların hər sosial-iqtisadi sinifə aid olmasına, eyni sayda gender nümayəndələrinin olmasına və sorğu yaşlılarla bağlı olduğu üçün sayda , xüsusilə, onlara önəm verilməsinə xüsusi diqqət ayrılmışdır. Çünki bu aspektlərə diqqət yetirmək cavabları maksimum şəkildə problemlərin həllində faydalı olacaq şəkildə realist və obyektiv şəkildə əldə olunması üçün olduqca vacibdir. Növbəti mərhələdə iştirakçı şəxslərin sosial müdafiə sistemin müxtəlif aspektlərinə xüsusi diqqət yetirmələri üçün açıq və qapalı olmaqla 10 sual ünvanlanmışdır. Bu sualların nəticəsində müxtəlif kateqoriya və qruplar arasında eyni fikirlərə gəlməklə yanaşı, sərt qütbləşmələrə səbəb olan kəskin fikir ayrılıqlarıları da müşahidə olunur. Buna misal olaraq, yaşlılar təqaüdə çıxma yaşının artırılmasının tərəfdarıdırlar və bir çoxu hələ də, işləmək üçün enerji və həvəslərinin olduğunu, həmçinin təcrübələrini bölüşməyin faydalı olacağını iddia etdiyi təqdirdə, gənc və orta yaşlı nəsil gənclərin daha tez imkan tapması baxımından azaldılmasının tərəfdarıdır. Əlavə olaraq isə, yaşlışəxslərin sosial fəaliyyət və tədbirlərə cəlb olunması və sosial müdafiə sisteminin tətqbiqi zamanı mentalitet dəyərlərinin nəzərə alınması kimi mövzularda insanlar arasında kəskin fikir ayrılıqları, bir növ qütbləşmə yaranır. Təbii ki, bunun yaranmasında insanların məsələlərə subyektiv yanaşması bir xeyli rol oynayır, ancaq, yenə də, bu əksiklərin var olduğu gerçəyinin təməlini sarsıda bilmir. Müasir Azərbaycanla, 20 il əvvəlki Azərbaycanın sosial müdafiə sistemindəki fərqləri, mənfi və müsbət inkişafla bağlı olan, yaşlıların sosial müdafiəsində əsas diqqət yetirilməli olan nüanslar, həmçinin, sosial sistemin tətbiqi baxımından paytaxt

və bölgələr arasındakı fərqlərin az və ya çox olması ilə bağlı olan suallarda da insanlar müxtəlif və fərqli fikirdə idilər. Ancaq əvvəl qeyd olunmuş suallardakı kimi, kəskin fərqlər yoxdur, fərqliliklər isə insanların subyektiv fikirləri başda olmaqla, onların iqtisadi, sosial və psixoloji amillərinin təsiri ilə yaranmışdır. Son olaraq isə, sosial müdafiə sistemində QHT-lərin rolu və insanların sosial rifahının artırılması ilə bağlı məsələlərdə iştirakçıların cavablarından ortaq bir məxrəc əldə etmək olur. Təəssüf ki, həm qütbləşmə, həm kəskin olmayan fərqlər, həm də , ən əsası, insanların ortaq fikrə gəldiyi məsələlərdə mənfi rəy və düşüncələr üstünlük təşkil edir. Bu da hələ gənc olan dövlətimizin inkişafda olan sosial siyasət və onun əsasında formalaşan sistemindəki bir sıra əksikləri üzə çıxardır və həllinə yönəlmək üçün zəmin rolu oynayır.

## Механизм социальной защиты пожилых людей в современном Азербайджанском обществе

**Алескеров Сабухи**

### Аннотация

Тема данной статьи, как следует из названия, связана с «механизмом социальной защиты пожилых людей в современном Азербайджанском обществе». Опрос, проведенный по итогам 1-20 октября 2022 года, подготовлен на основе 15 вопросов, с привлечением 40 респондентов разных возрастных категорий, среди которых преобладали пожилые люди. Основная цель исследования связана с тем, как работает механизм социальной защиты, насколько широка сфера его влияния и какую пользу от него получают пожилые люди, являющиеся участниками этого механизма. Первые 5 вопросов анкеты — это вопросы о поле, возрасте, образовании, семейном положении и с кем они живут, которые охватывают какую-то личную информацию респондентов. Основная цель— получить информацию об участниках и их биопсихосоциальной ситуации с самого начала и

представить следующие вопросы на ее основе. Ответы респондентов на эти вопросы уже упоминались и анализировались выше. Здесь особое внимание было обращено на то, что участники принадлежат к разным социально-экономическим классам, на участие одинакового количества представителей пола, и на то, чтобы придать им большее значение с точки зрения количества, так как опрос связан с пожилой. Потому что обращать внимание на эти аспекты очень важно для получения реалистичных и объективных ответов, которые будут максимально полезны при решении задач. На следующем этапе было задано 10 открытых и закрытых вопросов, чтобы участники уделили особое внимание различным аспектам системы социальной защиты. В результате этих вопросов, кроме прихода к одинаковым мнениям у разных категорий и групп, наблюдаются и резкие расхождения во мнениях, что приводит к сильной поляризации. Например, пожилые люди выступают за повышение пенсионного возраста, а большинство за его снижение, чтобы молодое и среднее поколение могло получить шанс раньше, если они все еще утверждают, что у них есть энергия и энтузиазм для работы и что было бы полезно поделиться своим опытом. Кроме того, наблюдаются резкие разногласия и своего рода поляризация среди людей по таким вопросам, как привлечение пожилых людей к общественной деятельности и мероприятиям и учет ценностей менталитета при реализации системы социальной защиты. Конечно, субъективный подход людей к вопросам играет немалую роль в создании этого, но все же не может поколебать основы существования этих недостатков. У людей были разные мнения о различиях современного Азербайджана и 20-летней давности в системе социальной защиты Азербайджана, негативных и позитивных ситуациях, нюансах, на которые следует обратить внимание в социальной защите пожилых людей, а также различиях, которые возникли когда была реализована социальная система между столицей и другими регионами.Однако, как и в ранее упомянутых

вопросах, резких различий нет, а различия вызваны влиянием экономических, социальных и психологических факторов, особенно субъективных мнений людей. Наконец, общий знаменатель можно получить из ответов участников на вопросы, связанные с ролью НПО в системе социальной защиты и повышения социального благосостояния людей. К сожалению, в вопросах, где люди согласны, преобладает как поляризация, так и нерезкие разногласия, а главное, негативные мнения и мысли. Это вскрывает ряд недостатков в развивающейся социальной политике нашего еще молодого государства и сформировавшейся на ее основе системы и служит основой для ее решения.

**Mechanism of social protection of elderly people in modern Azerbaijani society**

**Alesgerov Sabuhi**

**Summary**

The topic of this article, as the name suggests, is related to the "mechanism of social protection of the elderly in modern Azerbaijani society". The survey, conducted on the basis of October 1-20, 2022, prepared on the basis of 15 questions, was prepared with the involvement of 40 respondents from different age categories, among whom the elderly prevailed. The main purpose of the survey is related to how the social protection mechanism works, how wide its sphere of influence is and how the elderly who are participants of this mechanism benefit from it. The first 5 questions of the survey are questions about gender, age, education, marital status and who they live with, which cover some kind of personal information of the respondents. The main purpose of asking these questions is to get information about the participants and their biopsychosocial situation from the beginning and present the next questions based on it. The respondents' answers to these questions have already been mentioned and analyzed above. Here, special attention has been paid to the fact that the

participants belong to each socio-economic class, to have the same number of gender representatives, and because the survey is related to the elderly, special attention has been paid to the number, especially to them. Because paying attention to these aspects is very important to obtain answers in a realistic and objective manner that will be maximally useful in solving problems. At the next stage, 10 open and closed questions were addressed for participants to pay special attention to various aspects of the social protection system. As a result of these questions, in addition to coming to the same opinions among different categories and groups, there are also small disagreements that lead to severe polarization. For example, older people are in favor of raising the retirement age, and most are in favor of lowering it so that younger and middle-aged generations can get a chance earlier if they still claim that they have the energy and enthusiasm to work and that it would be useful to share their experience. In addition, there are sharp differences of opinion and a kind of polarization among people on issues such as involving the elderly in social activities and events and considering the values of mentality during the implementation of the social protection system. Of course, people's subjective approach to issues plays a significant role in the creation of this, but still, it cannot shake the foundation of the fact that these shortcomings exist. Differences between modern Azerbaijan and the social protection system of Azerbaijan 20 years ago, the nuances related to negative and positive development, the nuances that should be paid attention to in the social protection of the elderly, as well as the questions related to whether the differences between the capital and regions are more or less in terms of the application of the social system. they had different and different opinions. However, as in the previously mentioned questions, there are no sharp differences, and the differences are caused by the influence of economic, social and psychological factors,

especially the subjective opinions of people. Finally, a common denominator can be obtained from the responses of the participants in the issues related to the role of NGOs in the social protection system and increasing the social welfare of people. Unfortunately, both polarization and non-sharp differences and, most importantly, negative opinions and thoughts prevail in matters where people agree. This reveals a number of deficiencies in the developing social policy of our still young state and the system formed on its basis, and serves as a basis for solving it.

## YENİYETMƏ İNTİHARI: SƏBƏBLƏRİ VƏ PROFİLAKTİKASI

***Arixova Nəzrin Mobil qızı***
***BDU-nun II kurs magistrantı***
***nazrin.arixova.00@gmail.com***

İntihar həyatın mənasının itirilməsi ilə əlaqəli olan sosial davranışın ən faciəli növlərindən biridir. Uşaq və yeniyetmələrin intiharı xüsusilə faciəvidir. Statistikaya görə, ən çox intiharlar payız (oktyabr) və yaz (aprel, may) aylarında baş verir. Yaşa görə intiharların pik həddi 15-16 yaşda baş verir və 8 yaşa qədər olan uşaqlarda praktiki olaraq baş vermir. Cinslərə görə oğlanlar intihara daha çox meyllidirlər və intihar edən uşaq və yeniyetmələrin 92%−i heç vaxt psixiatr qeydiyyatında olmayıb.

D.S. İsayev və K.V. Şerstnyov qeyd edir ki: “İntiharların və intihara cəhdlərin artması həyatımızın artan tempi ilə əlaqəlidir, yeniyetmələr də, valideynləri kimi, böhran vəziyyətlərinin öhdəsindən gəlmirlər”[4, 3]. Gənclər arasında intihar probleminin araşdırılması göstərir ki, bir sıra hallarda yeniyetmələr valideynlərinin, müəllimlərinin diqqətini çəkmək,

bununla da böyüklərin biganəliyinə və qəddarlığına etiraz etmək üçün intihara qərar verirlər.

Uşaqlarda və yeniyetmələrdə intihar davranışının yetkinlərin hərəkətindən fərqi sadəcə yaş xüsusiyyətləridir. Uşaqlara həssaslıq, yüksək hissiyyatlılıq, əhval dəyişikliyinə meyllilik, qərar qəbul etmədə intensivlik xasdır. Uşaq və yeniyetmələrin intiharının səbəbinin qəzəb, etiraz və ya özünü və başqalarını cəzalandırmaq arzusu olduğu hallar da az deyil. Yeniyetməlik dövrünə keçid edərkən onlarda özünütəhlilə meyllilik, ətrafa və öz şəxsiyyətinə pessimist baxış artır. Tez-tez intihara səbəb olan emosional qeyri-stabillik sağlam yeniyetmələrin demək olar ki, dörddə birində baş verir.

Bəs uşaqlarda və yeniyetmələrdə suisidal davranışın motivləri hansılardır?

Bir qayda olaraq, bu motivlər ekzistensial problemlərlə bağlıdır, yəni insanın bir şəxsiyyət kimi mövcudluğunun yaratdığı suallarla bunların arasında, yalnızlıq, təklənmə və anlaşılmazlıq; günahkarlıq, utanc hissi, özünügünahlandırma; həqiqi və ya düşüncədə valideynlərinin sevgisinin itirilməsi, qısqanclıq; ailədən kiminsə ölümü valideynlərin boşanması və ya ailəni tərk etməsi ilə əlaqəli olan narahatlıq var. Beləliklə, uşağın intihar niyyətinin qarşısını vaxtında almaq üçün onun böyümə prosesinə diqqət və hörmətlə yanaşmaq lazımdır.

Şəxsiyyətin formalaşması dövrünə xas olan yuxarıda göstərilən problemlərlə yanaşı, tamamilə əks prosesdən irəli gələn səbəbləri də qeyd etmək zəruridir – yeniyetmənin infantilliyi, onun “yetkin” ola bilməməsi, məsuliyyət daşıya bilməməsi, digər insanların hərəkətlərini adekvat qiymətləndirə bilməkdə hazırsızlığı. Belə infantil davranışın ələsalınma, alçaldılma qorxusu; cəzalandırılma qorxusu, üzr istəmək istəməmək və ya üzr istəyə bilməmək; diqqəti öz üzərinə çəkmək arzusu, anlaşılmaq istəyi; hər hansı film və ya kitab qəhrəmanlarını təqlid etmək kimi nümunələri mövcuddur.

Tanınmış Amerikan sosioloqlarından Farberou və Şneydmanın araşdırmalarında intihar ətraf aləmə özünəməxsus çağırış, “yardım çağırışı” kimi göstərilir [2, 16]. Məhz intihara meylli olan insanın canlı insan iştirakına ehtiyacı, ona təklif olunan yardımı qəbul etməyə hazır olması intiharın profilaktikasını təşkil etmək imkanının əsasını təşkil edir ki, bu da praktiki psixoloji yardımın humanist mahiyyətini əks etdirir [2, 17].

İntihar düşüncələrini yaradan səbəblərdən biri də aqressiv davranışın nəticəsini qiymətləndirilməsinin kifayət qədər adekvat olmamasıdır. Uşaqlıqda “ölüm” adətən mücərrəd şəkildə, yuxu kimi və ya müvəqqəti bir şey kimi qəbul edilir. Məktəbəqədər yaşda uşaqlar ölümü həyatın sonu hesab etmirlər, əksinə onu müvəqqəti olan bir hadisə və ya harasa gediş kimi dərk edirlər. Yaxınlarının ölümü isə uşaqlarda olan xüsusi düşüncə tərzindən və məhdud təcrübədən irəli gələrək onun arzularının nəticəsi kimi dərk olunur ki, bu da uşaqda əksər hallarda günahkarlıq hissi ilə nəticələnir. İbtidai məktəb yaşlarında uşaqlar ölümü qeyri-mümkün hesab edirlər, onun imkanlarını dərk etmir, onu geridönməz hesab etmirlər. Yeniyetməlik yaşına yaxınlaşdıqca ölüm haqqında obyektiv faktlar fantaziyalardan daha önəmli olmağa başlayır, canlı ilə cansız, diri ilə ölü insandakı fərq haqqında anlayış formalaşır. Yeniyetmələr üçün ölüm daha aydın anlayışa çevrilir. Zamanla yeniyetmə öz ölümü haqda fikri qəbul edir, lakin yaranmış həyəcanı basdırmaq üçün bu ehtimalın reallığını inkar edir. Bundan da belə nəticə çıxarmaq olar ki, uşaqlar və bir çox yeniyetmələr intihar edərkən əslində öləcəklərini düşünmürlər. Yetkinlərdən fərqli olaraq onlar əsl intihar cəhdi ilə nümayişkaranə şəkildə şantaj xarakterli aqressiv davranış arasında aydın sərhədlərə malik deyillər.

Bundan başqa yeniyetmə mövcud halını sözlərlə və ya müəyyən davranışlarla xarakterizə edə bilər. Belə ki, yeniyetmə ölüm haqqında danışmağa, dolayısı ilə niyyətini işarə etməyə,

intihar haqqında çox zarafat etməyə meyllidir. Uşaq onun üçün əhəmiyyət daşıyan əşyaları başqaları ilə paylaşa, işlərini sahmana sala, köhnə düşmənləri ilə barışa, ətraf mühitə qarşı ya həddən artıq maraqlı, ya da laqeyd münasibət bəsləyə, ya həzz hissi yaşaya, ya da ümidsizliyə qapıla bilər. Sözsüz ki, intihar etməyə qərar verən yeniyetmə emosional cəhətdən stabil olmayan, fiziki, cinsi və emosional zorakılığın və ya hədsiz özünütənqidin nəticəsində sosial təcrid olunma yaşayan yeniyetmədir.

Eyni zamanda, sosial çevrənin genişlənməsi öz-özlüyündə tənhalığın və yalnızlığın profilaktikası üçün bir addımdır. İsayev yazır: "Yeniyetmənin sosial əlaqələri nə qədər az olarsa, bir o qədər tez bu dezadaptasiyaya gətirib çıxara bilər. Nə qədər çox sosial əlaqələri olarsa, yeniyetmə bir o qədər asanlıqla bir sferadakı uğursuzluqlarını maraqlarını digər sahəyə keçirməklə kompensasiya edə bilər" [4, 5].

Yeniyetmənin həqiqətən intihara meylli olması ehtimalını qəbul etmək olduqca çətindir. Valideynlər isə daha çox problemi inkar etməyə meyllidirlər, nəinki kömək etməyə. Psixoloqlara isə məlumdur ki, intihara meylli şəxslər güclü yadlaşma hissi keçirdiklərindən dinləmə əhval-ruhiyyəsində olmurlar. Onlar daha çox öz problemlərini müzakirə etmək istəyirlər. Əgər uşaq depressiyadan əziyyət çəkirsə o özü daha çox danışmalıdır.

Yəqin ki, intiharın cinayət kimi qiymətləndirilməsindən əl çəkməyin və fransız sosioloqu Dürkheymin ardınca yeni sosial qarşılıqlı əlaqə formalarını və ya sosial münasibətləri – insanlıq dinini [3, 35] formalaşdırmanın zamanı gəlib çatıb. Ümumiyyətlə, ictimai əlaqələr Dürkheym tərəfindən fərdin diqqətdən kənarda qalmadığı və sosial təzyiqə məruz qalmadığı, eyni zamanda harmoniya və əməkdaşlıq münasibətləri kimi şərh edilmişdir [3, 47].

12-16 yaşlı yeniyetmə cəmiyyətin qarşısına qoyduğu bir neçə ciddi vəzifə ilə qarşılaşmağa məcbur olur: yaşıdları

arasında layiqli yer tutmaq, öz güc və qabiliyyətlərini sınamaq, həyatdakı maraqlarını seçmək, gələcək üçün planları müəyyən etmək. Sadalananlardan hər hansı biri əlverişli şəraitdə travmatik ola bilər. Yeniyetmə isə çox vaxt çətinliklərə və uğursuzluqlara sağlam olmayan reaksiyalar verir. Üzüntü, məyusluq, inciklik, kədər – emosional təcrübəsinin əsas komponentləridir. Müxtəlif hissləri, onlardan qaçmadan və onlar tərəfindən məhv edilmədən yaşamaq ruhi-psixi sağlamlığı təminatıdır.

D.S. İsayev yazır: "Beləliklə, 12 yaşadək uşaqların intihar davranışı bir qayda olaraq, şizofreniya prosesinin əlaməti və ifadəsi kimi özünü göstərir" [4, 7]. Müəllif eyni zamanda depressiyanın gedişinin müxtəlif xarakterli olması şəxsin psixoloji aksentuasiyasından asılı olaraq dəyişməsini də qeyd edir.

Belə nəticəyə gəlmək olar ki, uşaqlar və yeniyetmələr həyat təcrübəsinin olmaması və şüurunun tam inkişaf etməməsi səbəbindən seçim edə bilmirlər. Ehtiyatsızlıq və intihar növləri haqqında məlumatın olmaması isə intihar üsulundan asılı olmayaraq ölüm riskini daha da artırmış olur.

## ƏDƏBİYYAT

1. Акопов, Г. В. Методы профилактики суицидального поведения / Г. В. Акопов. – Самара; Ульяновск, 1998.
2. Амбрумова, А. Г. Психология самоубийства // Соц. и клин. психиатрия. – 1996. – № 4. – С. 14-20.
3. Дюркгейм, Э. Самоубийство / Э. Дюркгейм. – М.: Наука, 1990.
4. Исаев, Д. С. Психология суицидального поведения / Д. С. Исаев, К. В. Шерстнев. – Самара, 2000.

# MÜNDƏRİCAT

Ağayeva Günay Şərbət qızı. MÜHARİBƏDƏN ZƏRƏR ÇƏKƏN ŞƏXSLƏRİN EMOSİONAL VƏ PSİXİ SAĞLAMLIĞI…………………………………………3

Kazımova Bənövşə Mübariz qızı. POSTMÜHARİBƏ DÖVRÜNDƏ İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏMƏŞĞULLUQ SİYASƏTİ..........................8

Əzizova Həmidə Müşfiq qızı. Postmüharibə dövründə müharibə nəticəsində valideyn himayəsindən məhrum olmuş uşaqlarla sosial iş .......................................................11

Məsimov Nicat MÜHARİBƏ VƏ MÜNAQİŞƏ QURBANLARI İLƏ SOSİAL İŞ.......................................14

İsgəndərova Aysel İbrahim. MÜHARİBƏ VETERANLARI İLƏ SOSİAL İŞİN TƏŞKİLİ...............................................................................17

Eyvazlı Aygün. MÜHARİBƏDƏN ƏZİYYƏT ÇƏKMİŞ MÜLKİ ƏHALİ, HƏRBÇİLƏR VƏ ONLARIN AİLƏ ÜZVLƏRİ, MƏCBURİ KÖÇKÜNLƏR, ŞƏHİDLƏR, QAZİLƏR VƏ ONLARIN AİLƏ ÜZVLƏRI İLƏ SOSIAL IŞ.............................................................................................20

Şəfiyev Üzeyir. POSTMÜHARİBƏ DÖVRÜNDƏ SOSİAL İŞIN VERƏ BİLƏCƏYİ TÖHFƏLƏR.......................... 22

İsmayılova Elizə Sahadulla qızı. SOSİAL SAHİBKARLIQ – CƏMİYYƏTİN İNKIŞAFINA İSTİQAMƏTLƏNƏN YENİ SOSİAL XİDMƏT SAHƏSİDİR......................................... 25

Orucov Samir Zakir oğlu ZƏNGƏZUR KORİDORUNUN AÇILMASININ REGİONAL VƏ İPƏK YOLU TİCARƏTİ ÜÇÜN İQTİSADİ FAYDALARININ EKONOMETRİK TƏHLİLİ.............................................................................27

Verdiyeva Tünzalə Müslüm qızı. ƏHALİNİN QARABAĞA QAYITMASI PROSESİNDƏ SOSİAL İŞİN ROLU..............................................................................29

Muradlı Aygün Hüseynağa qızı. MÜHARİBƏDƏN ƏZİYYƏT ÇƏKMİŞ QAZİLƏR VƏ ONLARIN AİLƏ ÜZVLƏRİ İLƏ SOSİAL İŞ.....................................................................39
Əsgərzadə Mədinə Ehtibar qızı. POSTMÜHARİBƏ DÖVRÜNDƏ MÜHARİBƏ NƏTİCƏSİNDƏ VALİDEYNİNİ İTİRMİŞ UŞAQLARA HİMAYƏDARLIQ.........................41
Həsənzadə Natəvan Rəşid qızı. MÜHARİBƏDƏN ƏZİYYƏT ÇƏKMİŞ MÜLKİ ƏHALİ, HƏRBİÇİLƏR VƏ ONLARIN AİLƏ ÜZVLƏRİ, MƏCBURİ KÖÇKÜNLƏR, ŞƏHİDLƏRİN AİLƏ ÜZVLƏRİ, QAZİLƏR VƏ ONLARIN AİLƏ ÜZVLƏRİ İLƏ SOSİAL İŞ...................................................44
Əsgərli Pünhani Səyyad oğlu. Post-müharibə dövründə Qarabağda yaradılacaq məktəblərdə sosial işçilərin əhəmiyyəti.......................................................................44
Quliyev Nurlan. HƏRBİ SİSTEMDƏ SOSİAL İŞ, ONUN TARİXİ İNKİŞAFI VƏ MÜXTƏLİF YANAŞMALAR.......48
Əliyev Rəcəbəli. DÖVLƏTİN SOSİAL YARDIM SAHƏSİNDƏ SOSİAL SYASƏTİ.......................................55
Rzayeva Ülkər Cəmil qızı. MÜHARİBƏDƏN SONRA TƏHSİLİN TƏŞKİLİ XÜSUSİYYƏTLƏRİ...........................................................58
Şabanov Zeynəddin Müsənnif oğlu. REİNTEQRASİYA PROSESİNDƏ SOSİAL İŞÇİNİN ROLU.............................61
Musayeva Vüsalə Kərəm qızı. MÜHARİBƏDƏN SONRAKI DÖVRDƏ MƏNƏVİ MƏDƏNİYYƏTDƏ MİLLİ ƏNƏNƏLƏRİN DİRÇƏLDİLMƏSİ...................................61
Köçərli Yalçın Ənvər oğlu, Köçərli Leyla Rais qızı. POSTMÜHARİBƏ DÖVRÜNDƏ HƏSSAS QRUPLAR ÜZRƏ SOSİAL İŞİN TƏŞKİLİ...........................................68
Abbasov Kənan Cavanşir. Müharibədən sonrakı dövrdə qazilərlə sosial iş..................................................................73
Əlirzayev Əli Qənbərəli oğlu, Qurbanova Fəridə Əhməd qızı. POSTMÜHARIBƏ ŞƏRAITINDƏ SOSİAL IŞÇININ TƏLİM ISTIQAMƏTLƏRI.............................................................76

Süleymanlı Ebulfez. Yerleşiklik Kavramı Bağlamında Geriye Dönüş Göçünün Sürdürülebilirliği Sorunu............................79
Süleymanlı Ebulfez. Məskunlaşma Konsepsiyası Kontekstində Geri Dönüş Köçünün Davamlılığı Problemi...........................80
Ecem Tuğçe Akbulut. MÜZİK YOLUYLA KARABAĞLI GÖÇMENLERİN TOPLUMSAL HAFIZASININ YENİDEN İNŞASI VE UYUM...............................................................82
Ecem Tuğçe Akbulut. QARABAĞDAN OLAN QAÇQIN VƏ MƏCBURİ KÖÇKÜNLƏRİN SOSİAL YADDAŞLARININ MUSİQİ VASİTƏSİLƏ YENİDƏN QURULMASI...............82
Аббасова Кызылгюль Ясин кызы. ВОПРОСЫ ОРГАНИЗАЦИИ СОЦИАЛЬНОЙ РАБОТЫ С РАНЕНЫМИ В ПОСЛЕВОЕННЫЙ ПЕРИОД...................84
Məmmədova Rəna Oktaedr qızı ХАРАКТЕРНЫЕ ОСОБЕННОСТИ БЕЖЕНЦЕВ И ВЫНУЖДЕННЫХ ПЕРЕСЕЛЕНЦЕВ КАК ГРУППЫ КЛИЕНТОВ СОЦИАЛЬНЫХ РАБОТНИКОВ.......................................89
Myrna McNitt. THE ROLE OF SOCIAL WORK IN WORKING WITH ACTIVE-DUTY MILITARY & VETERANS THEIR FAMILIES…………………………...93
Ann Petrila. ISSUES OF TRAUMA, GRIEF, RESILIENCE AND THE ROLE OF THE INTERNATIONAL COMMUNITY IN POST-WAR SOCIETIES......................91
Salmanova Səlmi Elşən qızı. EVSİZ VƏ BAXIMSIZ UŞAQ VƏ YENİYETMƏLƏRLƏ SOSİAL İŞ..............................114
Ələsgərov Səbuhi Elçin oğlu. Müasir Azərbaycan cəmiyyətində yaşlı insanların sosial müdafiəsi mexanizmi...................................................................117
Arixova Nəzrin Mobil qızı. YENİYETMƏ İNTİHARI: SƏBƏBLƏRİ VƏ PROFİLAKTİKASI……………………137